RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 71 (10091) 25 aprel 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# İlham Əliyevin uzaqgörən strategiyası

## Azərbaycan Qərb və Şərq arasında ən etibarlı bağlantını təmin edən strateji ünvandır

Azərbaycanın Mərkəzi Asiya dövlətləri Bakını özlərinin "Qərbə açılan qapısı" kimi görürlər. Mərkəzi Asiya ölkələri, xüsusən Qazaxıstan və Özbəkistan öz ixracatını şaxələndirmək üçün Xəzər dənizi və Azərbaycan infrastrukturundan intensiv istifadə etməyə başlayıblar. Mərkəzi Asiyanın enerji resurslarının dünya bazarlarına çıxarılmasında Azərbaycan əvəzedilməz tranzit tərəfdaşdır. Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri Qazaxıstan neftinin daşınmasında aktiv rol oynayır.

Bakının həlledici qovşaq missiyası Şərqin və Qərbin maraqlarını bir nöqtədə birləşdirərək ölkəmizin diplomatik manevr imkanlarını və iqtisadi qüdrətini əhəmiyyətli dərəcədə artırır. Şübhəsiz, Azərbaycanın mövqelərinin yüksəlməsi Prezident İlham Əliyevin illər öncədən təməlini qoyduğu çoxşaxəli və uzaqgörən strateji kursun məntiqi nəticəsidir. Bu gün bir çox ölkənin həsəd apardığı müstəqil xarici siyasətimiz düzgün qurulmuş iqtisadi özünütəminetmə bazası sayəsində mümkündür. Azərbaycanın əlverişli coğrafi mövqeyini strateji dəyərə çevirmək uzaqgörənlik və siyasi iradə tələb edirdi. İlham Əliyevin təşəbbüsü ilə reallaşan Orta dəhliz layihəsi Azərbaycanı Avrasiyanın əvəzedilməz logistik habına çevirdi. İndi Şərq də, Qərb də Azərbaycanın etibarlı bağlantısı olmadan öz ticarət təhlükəsizliyini tam təsəvvür etmir. Dünya Azərbaycanın iştirakı olmadan regionda heç bir strateji layihənin uğur qazana bilməyəcəyi reallığını qəbul edir. Bu, Prezident İlham Əliyevin uğurlu xarici siyasət kursunun və uzaqgörən dövlətçilik strategiyasının xəritədəki silinməz izidir.

5

## 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 81-ci ildönümü ilə əlaqədar **qərara alıram:**

1. 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2 750,0 (iki min yeddi yüz əlli) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1 500,0 (bir min beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 3,0 (üç) milyon manat vəsait ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2026-cı il*

## Ortaq gələcək naminə: *Azərbaycanın sistemyaradıcı rolu*

Qlobal rəqabət kontekstində burada bir sıra vacib xüsusiyyətləri vurğulamaq lazımdır. Ümumilikdə məsələ müasir dünya düzəninin hansı istiqamətdə transformasiya etdiyini və bu prosesdə regionallaşmanın oynadığı rolu əhatə edir. Analitiklər vurğulayırlar ki, 2026-cı ilin başlanğıcı postmüharibə arxitekturasının, sadəcə, "sistemdaxili qüsurlar"ı ilə xarakterizə olunmur. Proseslər "beynəlxalq münasibətlərin yeni modelinə keyfiyyət keçidini ifadə edir". Bu zaman "universal normaların yerini alətləşmiş hüquqa və güclərin regionallaşmış iyerarxiyasına verdiyi" hiss edilir.

"Güclərin regionallaşmış iyerarxiyası" prizmasından C6 aktual format kimi çıxış edir. Onu aşağıdakı iki istiqamətdə qiymətləndirmək olar: birincisi, böyük geosiyasi aktorların Cənubi Qafqaz və Mərkəzi Asiya kontekstində yaratmağa çalışdıqları "regionallaşmış iyerarxiya" fonunda Azərbaycanın xarici siyasətinin perspektivləri; ikincisi, Bakının C6 çərçivəsində təşəbbüskarı olduğu müxtəlif layihələrin özəllikləri.

Birinci istiqamət Qafqaz-Mərkəzi Asiya kontekstində Azərbaycanın regional lider kimi xarici siyasətinin uğurları ilə bağlıdır. Çox maraqlı və əhəmiyyətlidir ki, məhz Azərbaycanın xarici siyasəti böyük güclərin C6 məkanında formalaşdırmaq istədikləri "regionallaşmış iyerarxiya"ya ciddi təsir edir - rəsmi Bakının maraqları nəzərə alınmadan burada heç bir əməli addım atmaq mümkün deyil.

6

## Qlobal çağırışların müzakirə olunduğu dialoq mərkəzi

### WUF13-ün timsalında dünyanın yeni şəhərsalma fəlsəfəsi Bakıda formalaşacaq




Azərbaycanın beynəlxalq nüfuzunun ən parlaq səhifələrindən biri COP29-a evsahibliyi və orada əldə edilən tarixi razılaşmalardır. İqlim maliyyəsi sahəsində ildə ən azı 300 milyard dollar vəsaitin səfərbər olunması öhdəliyinin təmin edilməsi Azərbaycanın bəşəri problemlərin həllində vacib aktor olduğunu sübut etdi. Respublikamızın növbəti evsahibliyi edəcəyi qlobal tədbir WUF13 öz miqyasına və strateji əhəmiyyətinə görə COP-dan sonra BMT-nin ikinci ən böyük platforması hesab olunur. May ayında Bakıda keçiriləcək bu forum, "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər" mövzusunda qlobal mənzil çağırışlarını müzakirə edəcək.

Azərbaycanın çox qısa zamanda Qarabağ və Şərqi Zəngəzurda dirçəliş dastanı yazması, müasir standartlara uyğun şəhərlər salması heç şübhəsiz ölkəmizin bu tədbirə evsaibliyinə layiq görülməsində mühüm rol oynayıb.

11

## "Şəfəq"in ilk günəş panelləri quraşdırılıb



Gözlənilir ki, "Şəfəq" və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların yarıya qədər azaldılmasına imkan yaradacaq.

Hazırda terminal öz enerji ehtiyacını qarşılamaq üçün yeddi qaz turbinindən istifadə edir.

10

## Azərbaycanın yaratdığı reallıqlar erməni saxtakarlığını da fiaskoya uğradır



Qarabağdakı xristian dini abidələri bu ərazilərə XIX əsrdə müxtəlif yollarla köçürülmüş ermənilərə aid deyil. Həmin abidələr Azərbaycan Qafqaz Alban irsinin nümunələridir. Qədim tarixi mənbələr sübut edir ki, Qafqaz Albaniyası xristianlığın dünyada yayıldığı ilk ocaqlardan biridir. Alban məbədləri memarlıq üslubuna görə erməni kilsələrindən köklü şəkildə fərqlənir. Məsələn, alban məbədlərinin tikintisində istifadə olunan həndəsi naxışlar və günəş simvolları türk-islam mədəniyyəti ilə eyni kökdən gələn elementlərdir və bunların erməni kilsə memarlığı ilə heç bir bağlılığı yoxdur. Alban mədəni irsinə məxsus abidələrin erməniləşdirilməsi və tarixi faktların təhrif olunması Ermənistanın onilliklər ərzində apardığı sistemli saxtalaşdırma siyasətinin tərkib hissəsidir. Qarabağ və Şərqi Zəngəzurda işğal dövründə tikilən binaları isə "qədim kilsə" kimi təqdim etmək çox gülüncdür. Azərbaycan dövləti həmin ərazilərdəki tarixi irsi erməni saxtakarlığından təmizləyərək öz həqiqi sahiblərinə, xalqımıza qaytarır.

5

# "Yerli icra hakimiyyəti orqanlarının strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 546 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yerli icra hakimiyyəti orqanlarının strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 546 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Qaçqın və köçkünlərin məskunlaşdığı düşərgələrdə idarəetmə sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 17 sentyabr tarixli 207 nömrəli Fərmanının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 18, maddə 257 (Cild I)2-ci hissəsində "hakimiyyətinin nümayəndəsi, nümayəndənin müavini, nümayəndəliyin katibi" sözləri "hakimiyyəti başçısının nümayəndəsi, baş məsləhətçi-ev təsərrüfatlarının uçotu işinin aparıcısı, xadimə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I); 2024, № 5 (I kitab), maddə 526; 2025, № 5, maddə 444, № 9, maddə 817; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 624 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.8.4-cü abzasda "orqanlarının" sözü "başçılarının" sözü ilə əvəz olunsun, həmin abzasa ikinci halda "dairələri" sözündən sonra "üzrə" sözü əlavə edilsin və həmin abzasdan ikinci halda ", böyük məsləhətçi, aparıcı məsləhətçi" sözləri çıxarılsın;

2.2. 2.3.4-cü yarımbənd üzrə:

2.2.1. 3-cü abzasdan ", yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində" sözləri çıxarılsın və həmin abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

2.2.2. aşağıdakı məzmunda 4-cü abzas əlavə edilsin:

"4. yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində aparıcı mütəxəssis.".

3. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 oktyabr tarixli 508 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 892 (Cild I) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi Qaydaları"nın 2.4-cü bəndində "hüquq şöbəsinin" sözləri "hüquq məsələləri üzrə struktur bölməsinin" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 186 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü bənddə, 7-ci bəndin birinci və ikinci abzaslarında, 8-ci bənddə, 9-cu bəndin ikinci cümləsində, 10-cu bəndin ikinci abzasının ikinci cümləsində, 12-ci bəndin birinci cümləsində, 15-ci bəndin birinci və üçüncü abzaslarında və ikinci abzasının birinci cümləsində,17-ci bəndin ikinci abzasında ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.2. 25-ci bəndin birinci abzasının birinci cümləsində "hüquq şöbəsinin" sözləri "hüquq məsələləri üzrə struktur bölməsinin" sözləri ilə əvəz edilsin;

4.3. 28-ci bənddə "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinə" sözləri ilə əvəz edilsin;

4.4. 29-cu bəndin birinci abzasında və 30-cu bənddə "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.5. 31-ci bənddə "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.6. 38-ci bəndin dördüncü abzasında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.7. 39-cu bəndin birinci abzasında,45-ci, 49-cu bəndlərdə, 50-ci bəndin birinci abzasında, 52-ci bəndin ikinci abzasında, 53-cü bənddə və 54-cü bəndin birinci abzasında ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.8. 55-ci bənd üzrə:

4.8.1. birinci abzasda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.8.2. ikinci abzasda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsində" sözləri ilə əvəz edilsin;

4.9. 57-ci bənddə, 61-ci bəndin birinci abzasında, 62-ci bəndin yeddinci cümləsində, 65-ci bəndin birinci və ikinci abzaslarında, 70-ci bənddə ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.10. 72-ci bəndin birinci abzasında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.11. 80-ci, 81-ci bəndlərdə, 83-cü bəndin birinci abzasının birinci cümləsində və ikinci abzasında, 88-ci bəndin birinci cümləsində, 91-ci bənddə, 92-ci bəndin ikinci abzasında, 93-cü bəndin birinci abzasının ikinci cümləsində, 96-cı bəndin birinci abzasının ikinci cümləsində və ikinci abzasında ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.12. 97-ci bəndin birinci cümləsində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.13. 98-ci bəndin ikinci abzasının ikinci cümləsində, 99-cu bəndin birinci abzasının ikinci və beşinci cümlələrində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinin" sözləri ilə əvəz edilsin;

4.14. 102-ci bəndin birinci abzasının birinci cümləsində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsində" sözləri ilə əvəz edilsin;

4.15. 103-cü bənd üzrə:

4.15.1. birinci abzasda "kadr işlərinin aparılması həvalə edilmiş şöbəsinə" sözləri "kadr məsələləri üzrə struktur bölməsinə" sözləri ilə əvəz edilsin;

4.15.2. onuncu abzasda "Kadr işlərini aparan şöbə" sözləri "Kadr məsələləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.16. 104-cü bənddə "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsində" sözləri ilə əvəz edilsin;

4.17. 107-ci bəndin birinci abzasında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.18. 109-cu bənd üzrə:

4.18.1. ikinci abzasın birinci cümləsində, üçüncü və dördüncü abzaslarda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.18.2. altıncı abzasın ikinci cümləsində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinə" sözləri ilə əvəz edilsin;

4.19. 110-cu bəndin birinci abzasında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsində" sözləri ilə əvəz edilsin;

4.20. 111-ci bəndin birinci abzasında və ikinci abzasının ikinci cümləsində, 115-ci bəndin birinci abzasında və 116-cı bənddə ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.21. 119-cu bənd üzrə:

4.21.1. birinci abzasın birinci cümləsində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə, ikinci cümləsində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinə" sözləri ilə əvəz edilsin;

4.21.2. yeddinci abzasda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsində" sözləri ilə əvəz edilsin;

4.22. 121-ci bənddə və 123-cü bəndin birinci abzasında ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.23. 124-cü bənd üzrə:

4.23.1. birinci abzasda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinin" sözləri ilə əvəz edilsin;

4.23.2. ikinci abzasda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinin" sözləri ilə əvəz edilsin;

4.24. 128-ci bənddə, 129-cu bəndin birinci cümləsində, 130-cu bənddə, 136-cı bəndin birinci cümləsində və 137-ci bənddə (hər iki halda) ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.25. həmin Təlimata 3 və 26 nömrəli əlavələrdə "Ümumi şöbə" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.26. həmin Təlimata 13 nömrəli əlavədə "ümumi şöbəyə" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2026-cı il*

---

# "Çoxmənzilli yaşayış binaları layihələndirilərkən hər bir mənzil üzrə fərdi istilik sistemlərinin quraşdırılmasına icazə verilən hallar"ın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 115** **Bakı şəhəri, 24 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstilik təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 iyul tarixli 442 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Çoxmənzilli yaşayış binaları layihələndirilərkən hər bir mənzil üzrə fərdi istilik sistemlərinin quraşdırılmasına icazə verilən hallar" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

---

# Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Ələt Azad İqtisadi Zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən, Bakı şəhər Qaradağ rayonu Ələt qəsəbəsinin inzibati ərazisində yerləşən və Ələt Azad İqtisadi Zonasının ərazisi qismində müəyyən edilmiş torpaq sahəsinin bu Sərəncama əlavə olunan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi yerquruluşu planında göstərilmiş, dövlət mülkiyyətinə aid 1453,09 hektar təşkil edən hissəsi birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumuna verilsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumu bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2026-cı il*

---

# "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli 2070 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli 2070 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 296 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1."Azərbaycan Respublikasının energetika naziri" sözləri "Samir Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini" sözləri ilə əvəz edilsin;

1.2. "Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası energetika nazirinin müavini";

1.3. "Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini";

1.4."Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri" abzasının sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişikliklər barədə Qazaxıstan Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2026-cı il*

---

# Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak etmək üçün ödənişin məbləğinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 114** **Bakı şəhəri, 24 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 321-VIIQD nömrəli Qanununun tətbiqi və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 583 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü maddəsinin üçüncü cümləsinə uyğun olaraq, müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak etmək üçün ödənişin məbləği 60 (altmış) manat təsdiq edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahidin dekslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 116** **Bakı şəhəri, 24 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi, "Məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2021-ci il 22 sentyabr tarixli 2908 nömrəli Sərəncamının 3.2-ci bəndinin və "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında" 2024-cü il 27 dekabr tarixli 431 nömrəli Sərəncamının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996, № 12 (I kitab), maddə 1326 (II kitab), maddə 1428; 2025, № 3, maddələr 273, 294, № 7, maddə 707, № 9, maddə 854, № 12 (II kitab), maddə 1257) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 13-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adı aşağıdakı redaksiyada verilsin:

"13. Səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətlər və istehsalat birlikləri".

2. Aşağıdakı məzmunda iyirmi üçüncü-iyirmi beşinci abzaslar əlavə edilsin:

"13-22/ "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

13-23/ "Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyəti

13-24/ "Azərpambıq Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 117** **Bakı şəhəri, 24 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 275-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 noyabr tarixli 524 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 101 (Cild I); 2024, № 9, maddə 1090; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nın 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 5.1.8-ci yarımbənddə "faizi" sözü "dərəcəsi" sözü ilə əvəz edilsin.

2. 5.1.9-cu yarımbənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan-Gürcüstan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin səviyyəsi təqdir edilib

**Aprelin 24-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdəki fəaliyyət müddətinin bitməsi ilə əlaqədar Gürcüstanın fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, Baş nazir iki ölkə arasında münasibətlərin inkişafına verdiyi töhfəyə görə səfirə təşəkkür edib, gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsi təqdir edilib, müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.



# Kür çayında su səviyyəsinin artması ilə bağlı vəziyyət müzakirə edilib

**Məlum olduğu kimi, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə dövlət başçısının 2020-ci il 15 aprel tarixli sərəncamı ilə aidiyyəti dövlət qurumlarından ibarət komissiya yaradılıb.**

Su ehtiyatlarından səmərəli istifadə üzrə komissiyanın fəaliyyəti çərçivəsində ölkə üzrə əsas su anbarlarının iş rejimlərinə ciddi nəzarət olunmaqla, su ehtiyatlarından içməli su təchizatı, suvarma, energetika və digər məqsədlər baxımından planlı, koordinasiyalı və optimal istifadə istiqamətində mütəmadi zəruri tədbirlər həyata keçirilir.

Bu baxımdan, əsas diqqət göstərilən istiqamətləri Kür çayı üzərində yerləşən kaskad tipli Şəmkir-Yenikənd-Mingəçevir-Varvara su anbarları, Araz çayı üzərində yerləşən kaskad tipli Araz-Xudafərin-Qız Qalası su anbarları və əsasən Samur çayından qidalanan kaskad tipli Taxtakörpü-Ceyranbatan su anbarları sistemləri təşkil edir.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, aprelin 23-də Azərbaycan Respublikası Baş nazirinin müavini, komissiyanın sədri Şahin Mustafayevin rəhbərliyi ilə Su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiyanın 67-ci iclası keçirilib və iclasda gündəlikdə olan digər məsələlərlə yanaşı, gursululuq dövrünə uyğun olaraq ölkənin əsas su anbarlarının iş rejimlərinin tənzimlənməsi barədə ətraflı müzakirələr aparılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin proqnoz məlumatlarına əsasən, cari ilin gursululuq dövründə su ehtiyatlarının ötən illərlə müqayisədə daha çox olacağı gözlənilir.

Son vaxtlar Kür çayı üzrə su ehtiyatlarının artması ilə bağlı bildiririk ki, illər üzrə çoxsulu və azsulu fazalar, habelə gursulu dövrlər (aprel, may və iyun ayları) nəzərə alınmaqla çoxillik tənzimləmə prinsipi çərçivəsində Kür çayı üzərində yerləşən su anbarları sistemi komissiya tərəfindən nəzarətdə saxlanılmaqla operativ qaydada və optimal səviyyədə tənzimlənir.

İclasda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən son günlər ərzində intensiv yağıntılar nəticəsində Kür çayı və onun qolları olan Türyançay, Göyçay, Girdimançay, Qarqarçay və digər çaylarda sululuğun artması, çayətrafı rayonlardakı mövcud vəziyyət, fəsadlara qarşı görülən qabaqlayıcı tədbirlər barədə geniş məlumat verilib.

Hazırda müşahidə olunan su səviyyəsi artımının hidrometeoroloji şəraitlə bağlı olduğu, lokal xarakter daşıdığı və bəzi ərazilərdə mühafizə bəndlərinə təzyiqin artması ilə müşayiət olunduğu bildirilib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rayonlarda yerləşən yerli istismar idarələrinin digər aidiyyəti qurumlarla birlikdə gücləndirilmiş iş rejimində işlədiyi, vəziyyətin ciddi nəzarətdə saxlanıldığı, izafi su həcmlərinin maneəsiz və təhlükəsiz şəkildə Xəzər dənizinə ötürülməsi üçün müvafiq tədbirlər görüldüyü qeyd edilib.

Sonda Baş nazirin müavini, komissiyanın sədri Şahin Mustafayev su ehtiyatlarından səmərəli istifadə, gursululuq dövründə su və su təsərrüfatı obyektlərində təhlükəsiz su axınının təmin olunması və ölkə üzrə əsas su anbarlarının iş rejimlərinə ciddi riayət olunması ilə bağlı aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verib.

# XİN: Azərbaycan sülh, təhlükəsizlik və rifaha töhfə verməyə bundan sonra da davam edəcək

**"Aprelin 24-ü Sülh naminə Beynəlxalq Çoxtərəflilik və Diplomatiya Günü kimi qeyd olunur. Azərbaycan çoxtərəfli diplomatiya və əməkdaşlığın ən böyük dəstəkçilərindən biri olaraq, Qlobal Cənubun fəal üzvü qismində bu istiqamətdə töhfələr verməyə hər zaman sadiqdir".**

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycan Xarici İşlər Nazirliyinin Sülh naminə Beynəlxalq Çoxtərəflilik və Diplomatiya Günü ilə bağlı bəyanatında əksini tapıb.

Bəyanatda həmçinin bildirilib: "Son illərdə ölkəmizin çoxtərəfli diplomatiya və əməkdaşlıq müstəvisində əldə etdiyi çoxsaylı nailiyyətlər sırasında Qoşulmama Hərəkatı (NAM), Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Quruculuğu Tədbirləri üzrə Müşavirə (CICA), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (BSEC) kimi mühüm təsisatlara uğurlu sədrlikləri qeyd edilə bilər.

2026-cı il ərzində ölkəmizin Ümumdünya Şəhərsalma Forumu (WUF13), İslam İnkişaf Bankının illik toplantıları, Dünya Ətraf Mühit Günü (WED26), CICA dövlət və hökumət başçılarının Zirvə görüşü kimi beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi etməsi bir daha çoxtərəfli diplomatiya və əməkdaşlığa verilən önəmə və beynəlxalq müstəvidə etibarlı tərəfdaş kimi Azərbaycanın artan nüfuzuna dəlalət edir.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi və evsahibliyi çoxtərəfli diplomatiya tarixinə ən uğurlu tədbirlərdən biri kimi həkk olunub. Azərbaycan COP29-da əldə edilmiş tarixi əhəmiyyətli razılaşmaların icrası və irəlilədilməsi, eləcə də xarici siyasətimizdə aktiv sahələrdən birinə çevrilən dayanıqlı inkişaf və iqlim diplomatiyasına töhfələrini davam etdirməkdədir. 2026-cı ildə ölkəmizin ilk dəfə Regional İqlim Həftəsinə evsahibliyi etməsi nəzərdə tutulur.

Eyni zamanda Bakı şəhərinin çoxtərəfli diplomatiya, dialoq və əməkdaşlıq üçün önəmli mərkəz qismində əhəmiyyəti artmaqdadır. Yalnız son bir neçə il ərzində Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil qərargahı və İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi kimi strukturların Bakıda yerləşməsi haqqında qərarlar verilib. Buna əlavə olaraq, cari ilin aprelində İstanbulda keçirilmiş konfrans zamanı Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin mənzil-qərargahının da Bakıda təsis edilməsinə dair tarixi qərar qəbul edilib.

Azərbaycan həmçinin beynəlxalq təşkilatlarda ədalətli coğrafi təmsilçiliyin tərəfdarıdır. Bu istiqamətdə prinsipial mövqe sərgiləməklə yanaşı, Azərbaycan və vətəndaşlarının beynəlxalq təşkilatların seçkili orqanlarında təmsilçiliyinə xüsusi önəm verilir. Yalnız 2025-ci ildə 14 mühüm beynəlxalq qurumlara namizədliyimiz üzrə uğurlu nəticə təmin edilib.

Azərbaycan çoxtərəfli diplomatiya və formatlarda aktiv iştirakı ilə həm beynəlxalq, həm də regional müstəvidə sülh, təhlükəsizlik və rifaha töhfə verməyə bundan sonra da davam edəcək".

# Ombudsman Səbinə Əliyeva vətəndaşların müraciətlərini dinləyib



**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva aprelin 23-24-də Bakı şəhərində növbəti dəfə vətəndaşların müraciətlərini dinləyib.**

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Bildirilib ki, ombudsman müraciət edən şəxslərlə fərdi qaydada görüşüb, bəzi məsələlərin operativ həlli məqsədilə yerində zəruri tədbirlər görülüb. Araşdırma tələb edən digər məsələlərin nəzarətdə saxlanılacağı və mövcud qanunvericiliyin tələblərinə uyğun həlli istiqamətində aidiyyəti dövlət qurumlarına müraciət ediləcəyi diqqətə çatdırılıb.

Görüş zamanı vətəndaşlara hüquqi məsləhətlər verilib, habelə müraciətlərə daha səmərəli və çevik şəkildə baxılması üçün Ombudsman Aparatında 24/7 rejimdə fəaliyyət göstərən "916" Çağrı Mərkəzi, elektron poçt ünvanları, poçt, faks, eləcə də sosial media platformaları vasitəsilə də müraciətlərin qəbul olunduğu diqqətə çatdırılıb.

# Ağdam şəhərində daha 110 ailəyə mənzillərinin açarları təqdim olunub

**Bu gün növbəti köç karvanı ilə Ağdam şəhərinə çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 110 ailə olmaqla, 397 nəfər Ağdam sakini doğma yurduna qovuşub.

Ağdama köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

ANAMA-nın əməkdaşları tərəfindən sakinlərə mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.





Açarların təqdimat mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Doğma yurda qayıdışın sevincini yaşayan Ağdam şəhərinin sakinləri açarları təhvil alaraq yeni mənzillərində məskunlaşıblar. Onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Sakinlər həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, onların ailələrinə səbir diləyiblər.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin may ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 6, 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 8, 15, 22 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi** Səttarov Orxan Rəcəb oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 19 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 22 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 22 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 25 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 26 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 26 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 26 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 25 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi, 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Media subyektlərini və sosial şəbəkə istifadəçilərini məlumatları yayarkən rəsmi mənbələrə istinad etməyə çağırırıq

**APA İnformasiya Agentliyi tərəfindən Azərbaycan Respublikası Baş Prokurorluğunun Gəncə Şəhər İcra Hakimiyyətində araşdırma aparması ilə bağlı yayılan məlumat rəsmi mənbələr tərəfindən təsdiqlənməmiş və yanlış məlumatlara əsaslanmışdır.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilib. Açıqlamada həmçinin qeyd olunub: "Dövlət orqanlarının nüfuzuna xələl gətirilməsi ilə nəticələnən qanunvericiliklə qadağan olunmuş bu kimi məlumatların mediada yayılmasını yolverilməz hesab edirik.

Bəyan edirik ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun 14.1.11-1-ci maddəsinə əsasən saxta məlumatların dərc edilməsinə (yayımlanmasına) yol verilməməlidir.

Media subyektlərini və sosial şəbəkə istifadəçilərini məlumatları yayarkən məsuliyyətli olmağa və rəsmi mənbələrə istinad etməyə çağırırıq".

# Nur saçan ömür: mənəvi dəyərlərin təcəssümü




**Aprelin 24-də Yeni Azərbaycan Partiyası (YAP) və "Modern İnkişaf və Ailə" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Nur saçan ömür: mənəvi dəyərlərin təcəssümü" mövzusunda tədbir keçirilib.**



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra "Əsl məhəbbət haqqında" sənədli filmi nümayiş olunub.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, anadan olmasının 103-cü ildönümünü böyük hörmət və ehtiramla qeyd etdiyimiz Zərifə xanım Əliyeva istər peşəkar həkim-mütəxəssis, istər dəyərli elm xadimi, istərsə də vəfalı ömür-gün yoldaşı və qayğıkeş ana kimi Azərbaycan tarixində silinməz izlər buraxmış, yüksək mənəvi keyfiyyətləri və humanizm prinsiplərinə əsaslanan səmərəli ictimai fəaliyyəti ilə parlaq nümunə yaratmışdır: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamında vurğulandığı kimi, akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Onun zəngin elmi irsi Azərbaycanın tibb elmi tarixində müstəsna yer tutur. Ölkəmizdə traxomanın xəstəlik kimi aradan qaldırılması məhz Zərifə xanım Əliyevanın adı ilə bağlıdır. Görkəmli alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoymuşdur. Oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxsaylı tədqiqatların müəllifi olan Zərifə Əliyeva səmərəli pedaqoji fəaliyyəti ilə peşəkar mütəxəssislərin hazırlanmasına da mühüm töhfə vermişdir. Zərifə xanımın yetişdirdiyi həkimlər bu gün də onun elmi irsini və qabaqcıl ideyalarını layiqincə yaşadaraq ölkəmizi beynəlxalq müstəvidə müvəffəqiyyətlə təmsil edirlər".

Tahir Budaqov bildirib ki, Zərifə xanımın nəsillərə örnək həyat yolunun daha bir şərəfli səhifəsi milli mənəviyyatımıza xas ailə dəyərlərini layiqincə yaşatmasıdır: "Zərifə xanım Əliyeva Ümummilli Liderimiz Heydər Əliyev ilə ailə məsuliyyətini bölüşərək cənab İlham Əliyev kimi tarixi şəxsiyyət yetişdirmişdir. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Azərbaycanın dünəni, bu günü və gələcəyini müəyyən edən Heydər Əliyev yoluna sadiqlik nümayiş etdirərək Vətənə sədaqət andını əzm və ləyaqətlə yerinə yetirməklə xalqımıza misilsiz nailiyyətlər qazandırmış və şanlı Zəfərə imza atmışdır. Dövlət başçısının uzaqgörən siyasəti milli ləyaqətimizi özümüzə qaytarmaqla ölkəmizi dünyada söz və nüfuz sahibinə çevirmiş, Ulu Öndərimizin əminliklə söylədiyi "Vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq" fikrini gerçəkləşdirmişdir. Bütün bunlar isə əminliklə söyləməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyevin və Zərifə xanımın ruhu şaddır".

YAP Sədrinin müavini vurğulayıb ki, bir çox mükafatlar və fəxri adlara layiq görülmüş Zərifə xanım Əliyeva, hər şeydən öncə, xalqımızın, sadə insanların məhəbbətini qazanmışdır ki, bu da onun ən qiymətli mükafatıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Zərifə xanımı tanıyanlar, haqqında kitablardan, məqalələrdən oxuyanlar onun nurlu obrazını daim öz ürəyində saxlayırlar. Onun əziz xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov bildirib ki, Zərifə Əliyeva yalnız bir alim, həkim və müəllim kimi yox, həm də ailəsi, çevrəsi və ölkəsi üçün dəyərli bir insan olaraq qəlblərdə əbədi iz buraxmışdır: "Onun həyat yolu, əslində, hər bir qadının, ananın və mütəxəssisin arzusunu gerçəkləşdirən bir nümunədir. Bir ana olaraq Zərifə xanımın verdiyi tərbiyə və həyat dərsləri çox dəyərli və əvəzsizdir. Onun övladlarına verdiyi əxlaqi dəyərlər, onları yalnız öz sahələrində müvəffəqiyyətli insanlar etməklə qalmamış, həm də vətənlərinə xidmət etməyə həvəsləndirmişdir. Zərifə xanımın bu tərbiyəsi nəticəsində Prezident İlham Əliyev kimi bir lider yetişmişdir. Bir alim olaraq isə Zərifə xanım oftalmologiya sahəsindəki misilsiz nailiyyətləri ilə yalnız Azərbaycanda deyil, dünyada da çox böyük hörmət qazanmışdır. Onun apardığı tədqiqatlar, yeni müalicə üsulları və əsərləri, bu sahəyə verdiyi töhfələr bu gün də öz əhəmiyyətini qorumaqda və gənc həkimlərə, alimlərə yol göstərməkdədir".

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, Zərifə xanımın ən böyük mükafatı yalnız öz sahəsindəki müvəffəqiyyətləri deyil, həm də insanlara göstərdiyi mərhəmət, empatiya və öyrətdiyi dəyərlərlə bağlıdır: "O, sadəcə, bir həkim deyil, eyni zamanda bir insan olaraq hər bir xəstənin sağlamlığını düşünən, ona sevgi və şəfqət göstərən, həkimlik peşəsinin ən yüksək etik dəyərlərini özündə cəmləşdirən bir şəxsiyyət idi. Zərifə xanımın bu dəyərləri, onun mübarizəsi və göstərdiyi nümunə gələcək nəsillər üçün böyük bir irs və dərsdir. Zərifə xanımın həyat yolunda yaratdığı bu ideal, hər bir insanın həyatına ilham verməkdə, onlara doğru yol göstərməkdə davam edəcəkdir".

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin "Elmi-məlumat və təşkilati-metodik" bölməsinin müdiri, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədr müavini Yazgül Abdıyeva çıxışında bildirib ki, Zərifə xanım Əliyeva insanlara nur bəxş edən, xeyirxahlığı həyat amalına çevirən nadir şəxsiyyətlərdən idi: "Yüksək mənəviyyatı, zəngin daxili aləmi və insanlara olan sonsuz sevgisi onu yaddaşlarda əbədi yaşadan əsas keyfiyyətlərdir. Onun mənalı ömür yolu bu gün də gələcək nəsillərə işıq saçan örnəkdir".

Yazgül Abdıyeva vurğulayıb ki, akademik Zərifə Əliyeva oftalmologiyanın aktual problemlərinə dair mühüm tədqiqatlar aparıb, xüsusilə Azərbaycanda geniş yayılmış traxomanın aradan qaldırılmasında böyük xidmətlər göstərib: "Eyni zamanda kimya və elektron sənayesində çalışan insanlarda rast gəlinən peşəkar göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsi istiqamətində dəyərli elmi nəticələr əldə edib. Akademik Zərifə Əliyeva bir çox monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, 150-yə yaxın elmi işin, 1 ixtiranın və 12 səmərələşdirici təklifin müəllifidir. Onun əsərləri bu gün də aktuallığını qoruyur. Zərifə xanımın oftalmologiya elminin inkişafına verdiyi töhfələr danılmazdır".

Çıxış edən Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, "Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri Zərifə Quliyeva bildirib ki, Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir: "Böyük və səmərəli elmi fəaliyyətinin nəticəsidir ki, Zərifə xanım keçmiş SSRİ məkanında oftalmologiya sahəsində ən nüfuzlu M.İ.Averbax adına mükafata layiq görülən ilk azərbaycanlı akademikdir. Bu gün onun adını daşıyan Milli Oftalmologiya Mərkəzi uğurla fəaliyyət göstərir və görkəmli alimin elmi irsi layiqincə davam etdirilir".

Onun sözlərinə görə, Zərifə xanım Əliyeva yalnız alim kimi deyil, həm də ailəsinə bağlı, qayğıkeş bir ömür-gün yoldaşı, müqəddəs ana kimi tanınırdı: "Ulu Öndər Heydər Əliyev Zərifə xanım haqqında danışarkən onu yüksək insani keyfiyyətlərə malik bir şəxsiyyət kimi xarakterizə edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurğulayır ki, Zərifə Əliyeva öz həyatı ilə insanlara nümunə olub, elmə və xalqa sədaqətlə xidmət edib. Zərifə xanımın irsi bu gün də yaşayır və gələcək nəsillər üçün örnəkdir. Onun həyatı, sadəcə, bir alim ömrü deyil, həm də insanlara xidmətin, zəhmətin və yüksək mənəviyyatın təcəssümüdür".

Tədbir çərçivəsində uzun illər partiya sıralarında səmərəli fəaliyyət göstərən və ölkənin ictimai-siyasi həyatında fəal mövqeyi ilə seçilən Bilman Məhərrəm oğlu Vəliyev 75 illik yubileyi münasibətilə təbrik edilib və ona xatirə hədiyyəsi təqdim olunub.

Göstərilən diqqətə görə minnətdarlığını ifadə edən Bilman Vəliyev Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin Azərbaycana möhtəşəm nailiyyətlər qazandırdığını, ölkəmizin tərəqqi və Zəfər zirvəsinə yüksələrək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

# 2026-cı ilin birinci rübünün nəticələri ilə bağlı müşavirə keçirilib





**Aprelin 24-də Dövlət Gömrük Komitəsinin 2026-cı ilin birinci rübü üzrə fəaliyyəti ilə bağlı müşavirə keçirilib.**

Tədbirin əvvəlində gömrük əməkdaşlarının peşə bayramı ərəfəsində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə gömrük orqanlarında səmərəli fəaliyyətinə görə yüksək dövlət mükafatlarına layiq görülən gömrük əməkdaşlarına təltifləri təqdim olunub. Təltif olunan əməkdaşlar göstərilən yüksək etimada görə dövlət başçısına minnətdarlıqlarını ifadə edib, hər zaman vətənə və dövlətə sədaqətlə xidmət edəcəklərini bildiriblər.

Dövlət Gömrük Komitəsinin Aparat rəhbəri Kənan Əsədov tərəfindən 2026-cı ilin birinci rübünün nəticələrinin müqayisəli təhlilinə dair təqdimat nümayiş etdirilib, cari dövr ərzində gömrük orqanlarının fəaliyyətinin yekunları ilə bağlı müzakirələr aparılıb.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov gömrük əməliyyatlarının asan və sürətli şəkildə həyata keçirilməsi, xidmət keyfiyyətinin daha da yüksəldilməsi, prosedurların sadələşdirilməsi, rəqəmsallaşmanın genişləndirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib.

# Qlobal forumlar məkanında davamlı təhsil

## Bunu Azərbaycan nümunəsində görmək mümkündür

**Son illər ərzində Azərbaycan beynəlxalq tədbirlərin keçirildiyi mühüm mərkəzlərdən biri kimi öz mövqeyini xeyli möhkəmləndirib.**

Respublikamızın müxtəlif yerlərində təşkil olunan qlobal forumlar, sammitlər, idman yarışları Azərbaycanın dünyada gündən-günə artan nüfuzunun, diplomatik uğurunun bariz göstəricisidir. Eyni zamanda bu proses daxili idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, infrastrukturun yüksəldilməsi və sosial xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılması kimi dəyərləndirilir.

Ölkəmizin paytaxtında mayın 17-dən 22-dək keçiriləcək Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) bu istiqamətdə növbəti mühüm addım olacaq.

Forumun Azərbaycanda təşkili ölkənin beynəlxalq proseslərdə aktiv iştirakının nümunəsidir. Bu cür platformalar yalnız müzakirə mühiti yaratmaqla kifayətlənmir, eyni zamanda yeni tərəfdaşlıqların qurulmasına və strateji əməkdaşlıqların inkişafına şərait yaradır. Bakı bu tədbir vasitəsilə özünü həm siyasi, həm də iqtisadi baxımdan etibarlı tərəfdaş kimi göstərmək imkanı əldə edir.

Hazırda tədbirin yüksək səviyyədə təşkili üçün genişmiqyaslı hazırlıq işləri həyata keçirilir. Yüksək təhlükəsizlik, qonaqların rahatlığı kimi əsas məsələlər diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, şəhər infrastrukturunun qonaqlar üçün optimallaşdırılması istiqamətində görülən tədbirlər Bakının müasir və dayanıqlı şəhər modeli kimi tanıdılmasına xidmət edir. Bu isə xarici investorların diqqətini cəlb etməklə yanaşı, paytaxtın idarəetmə potensialına dair müsbət təsəvvür yaradır.

Belə mühüm və geniş tədbirlərin keçirilməsi şəhərin müxtəlif sahələrində olduğu kimi, təhsil sistemində də müəyyən dəyişikliklərin edilməsi zərurətini yaradır. Əsas məqsəd tədris prosesinin dayanmadan davam etməsini təmin etməkdir. Bu baxımdan, forum günlərində təhsil müəssisələrində dərslərin təşkili ilə bağlı müvafiq dövlət qurumu tərəfindən strateji qərarlar qəbul olunub.

Eyni zamanda Bakı şəhərində yerləşən peşə, orta ixtisas və ali təhsil müəssisələrində də tədris distant formada təşkil ediləcək.

Qərara əsasən, WUF13-ün keçiriləcəyi günlərdə Bakı şəhərində fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilində bəzi dəyişikliklər nəzərdə tutulub. Bundan başqa, Pirallahı, Qaradağ, Suraxanı, Sabunçu və Nizami rayonları istisna olmaqla, Bakı şəhərinin digər rayonlarında fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin V-XI siniflərində dərslər mayın 18-dən 22-dək distant formada keçiriləcək. Eyni yanaşma paytaxtda yerləşən ali, orta ixtisas və peşə təhsili müəssisələrinə də şamil ediləcək.

Bu addım təhsilin fasiləsizliyinin təmin olunmasına yönəlib. Müasir dövrdə onlayn təhsil artıq yalnız alternativ deyil, tədris prosesinin ayrılmaz hissəsinə çevrilib. Distant təhsil modeli şagird və tələbələrin proqramdan geri qalmamasına imkan yaradır, eyni zamanda onların bacarıqlarını inkişaf etdirir.

Əvvəllər bu kimi hallarda dərslərin müvəqqəti dayandırılması və ya tətil verilməsi geniş yayılmış təcrübə idi. Lakin hazırkı yanaşma akademik itkilərin qarşısını almağa xidmət edir. Şagirdlər artıq təhsilin yalnız fiziki məkanla məhdudlaşmadığını anlayır və bu, onların gələcək peşə həyatında mühüm rol oynayır. Xüsusilə, distant iş modelinin geniş yayıldığı bir dövrdə bu bacarıqların erkən formalaşması böyük əhəmiyyət daşıyır.

Onlayn təhsil və məsafədən iş rejiminə keçidin digər mühüm üstünlüklərindən biri də şəhər daxilində nəqliyyat sıxlığının azalmasıdır. Hesablamalara görə, bu cür qərarlar yol hərəkətində yükü əhəmiyyətli dərəcədə azaldır. Bu isə beynəlxalq tədbir iştirakçılarının şəhər daxilində rahat hərəkətinə imkan yaradır. Nəqliyyatın azalması ekoloji vəziyyətə də müsbət təsir göstərir. Bu baxımdan görülən tədbirlər "yaşıl şəhərsalma" prinsipləri ilə tam uyğunluq təşkil edir.

Xatırladaq ki, Azərbaycan bu sahədə müəyyən təcrübələrə malikdir. Belə ki, pandemiya dövründə əldə olunan rəqəmsal təhsil bacarıqları sonrakı illərdə də uğurla tətbiq olunub. Məsələn, 2024-cü ildə keçirilən COP29 iqlim sammiti zamanı tətbiq edilən distant təhsil modeli öz effektivliyini sübut edib. Həmçinin hər il keçirilən "Formula-1" yarışları zamanı da oxşar yanaşma tətbiq edilərək tədris prosesinin fasiləsizliyi təmin olunub.

Qəbul olunan qərarlar müvəqqəti xarakter daşıyır. Bu dəyişikliklər tədris proqramının ümumi icrasına uzunmüddətli təsir göstərmir və yalnız konkret dövrü əhatə edir. Əsas məqsəd həm tədbirin yüksək səviyyədə təşkilinə nail olmaq, həm də təhsil sisteminin fəaliyyətini davam etdirməkdir.

Beləliklə, Bakı bir tərəfdən beynəlxalq müzakirələrin keçirildiyi nüfuzlu məkana çevrilir, digər tərəfdən isə müasir idarəetmə və rəqəmsal təhsil modelini uğurla tətbiq edən şəhər kimi diqqəti cəlb edir. Bu yanaşma ölkənin uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsidir.

BMT Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakıda təşkili Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, yeni əməkdaşlıq imkanlarının yaranmasına və müxtəlif sahələrdə innovativ yanaşmaların tətbiqinə təkan verəcək. Təhsil sahəsində həyata keçirilən çevik qərarlar isə göstərir ki, ölkəmiz istənilən şəraitdə dayanıqlı inkişaf modelini qorumağa qadirdir. Bu da Azərbaycanın həm regional, həm də qlobal miqyasda mövqeyini daha da gücləndirir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***



# İlham Əliyevin uzaqgörən strategiyası

## Azərbaycan Qərb və Şərq arasında ən etibarlı bağlantını təmin edən strateji ünvandır

**Vətən müharibəsində qazanılan zəfərdən sonra rəsmi Bakının bölgədə və dünya arenasında həlledici qərarlara təsir imkanları xeyli genişləndi. Ölkəmizə yanaşma və beynəlxalq baxış bucağı əhəmiyyətli dərəcədə dəyişdi. Bu gün Azərbaycanla sıx təmaslar qurmağa can atan və strateji əməkdaşlığa üstünlük verən dövlətlərin sayı artmaqdadır. Cənubi Qafqazda yeni geosiyasi şərait formalaşdıran Azərbaycanla əlaqələri keyfiyyətcə daha üst səviyyəyə daşımaqda Baltikyanı ölkələr də olduqca maraqlıdır.**

Latviyanın dövlət başçısı Edqars Rinkeviçsin 22 aprel tarixində Bakıya rəsmi səfəri və imzalanan sənədlər bunun təzahürüdür. Bakı və Riqa arasındakı dialoq, sadəcə, iki dövlətin maraqları ilə məhdudlaşmır, bu əməkdaşlıq Cənubi Qafqaz və Baltikyanı regionları bir-birinə bağlayan strateji körpü funksiyasını yerinə yetirir. Latviyanın Avropa İttifaqındakı (Aİ) mövqeyi Azərbaycan-Aİ əlaqələrinin dərinləşməsinə töhfə verir. Həmin günlərdə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Azərbaycanın qitə üçün enerji və logistika sahələrində əvəzedilməz tərəfdaş olduğunu vurğulamışdı. Brüsselin Azərbaycanla əlaqələri çoxşaxəli platformada inkişaf etdirmək niyyətinin Latviya Prezidentinin səfəri ilə üst-üstə düşməsi prosesin məntiqi davamıdır.

Xatırladaq ki, aprelin 9-da Litvanın Baş naziri İnqa Ruqiniene də Azərbaycana səfər edib və dövlətimizin başçısı İlham Əliyevlə görüşüb. Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub. Bu xüsusda Litvanın Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına həmişə dəstək verdiyi vurğulanıb. Litva rəhbərliyinin sülh təşəbbüslərini təqdir etməsi Vilnüsün bu regionda stabil və proqnozlaşdırıla bilən tərəfdaş istədiyini göstərir. Ölkəmizin Qarabağ və Şərqi Zəngəzur bölgələri də Baltikyanı dövlətlər üçün gələcək investisiya meydançası kimi cəlbedicidir. Litva limanlarının Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (Orta dəhliz) inteqrasiyası da müzakirələrin mərkəzindədir. Bu, "Xəzər-Baltik" logistik körpüsünün qurulması deməkdir.

Baltikyanı ölkələr Avropa İttifaqı daxilində Azərbaycanın enerji və təhlükəsizlik sahəsindəki önəmini anlayan və müdafiə edən tərəf kimi çıxış edirlər. Bu dövlətlər rəsmi Bakının Avropa ilə strateji tərəfdaşlığının aktiv dəstəkçiləridir. Litva, Latviya və Estoniya üçün Azərbaycan hazırda üç mühüm boşluğu doldurur. Birincisi, Rusiyadan enerji idxalını dayandıran bu ölkələr üçün Azərbaycanın artan rolu strateji sığortadır. Baltik ölkələri uzun illərdir ki, enerji asılılığını azaltmaq və təchizat mənbələrini diversifikasiya etmək strategiyası yürüdürlər. Azərbaycanın "Cənub qaz dəhlizi" vasitəsilə Avropanın enerji xəritəsindəki payının artması bu ölkələr üçün Bakını strateji tərəfdaş edir. İkincisi, hərbi və hibrid təhdidlər qarşısında Azərbaycanın suverenliyini qoruması onlar üçün optimal nümunədir. Üçüncüsü isə Qərbin sanksiya tətbiq etdiyi bazarlara alternativ olaraq, Cənubi Qafqaz və onun üzərindən Mərkəzi Asiya bazarlarına çıxış üçün Azərbaycan ən etibarlı qapıdır.

Qlobal geosiyasi vəziyyət fonunda ənənəvi şimal marşrutlarına alternativ olaraq Orta dəhliz ön plana çıxıb. Baltikyanı ölkələr bu dəhliz vasitəsilə Çin və Mərkəzi Asiyadan gələn yüklərin Avropaya çatdırılmasında Azərbaycanın həlledici qovşaq olduğunu dərk edirlər. Azərbaycanın Türk Dövlətləri Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı daxilindəki nüfuzu və fəallığı Baltik ölkələrinə bu geniş coğrafiyalara çıxış üçün siyasi pəncərə təqdim edir.

Dünyanın enerji böhranı ilə üz-üzə qaldığı bir vaxtda rəsmi Bakının etibarlı təchizatçı kimi çəkisi sürətlə artır. Aİ-nin 10 üzvünün Azərbaycandan mavi yanacaq alması bu etimadın əyani göstəricisidir. Bakıdakı biznes-forumda vurğulandığı kimi, yaxın gələcəkdə boru kəmərləri vasitəsilə Azərbaycan qazını idxal edən Avropa ölkələrinin sayının artması qaçılmazdır. Avropa İttifaqı Azərbaycanı "yaşıl saziş" hədəflərinə çatmaqda mühüm tərəfdaş hesab edir. Ölkəmiz gələcəyin "yaşıl hidrogen" və bərpaolunan enerji mənbəyi kimi də diqqət çəkir. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış "Yaşıl Enerji Dəhlizi" sazişi Xəzərin külək enerjisinin Qara dənizin dibi ilə Avropaya çatdırılmasını nəzərdə tutur.

Avropa İttifaqı və onun aparıcı üzvlərinin Azərbaycana böyük maraq göstərməsi həm coğrafi zərurətlərə, həm də rəsmi Bakının yürütdüyü balanslı diplomatiyaya əsaslanır. Avropa ölkələri Azərbaycanı Cənubi Qafqazda sabitliyin təminatçısı və regionun iqtisadi mühərriki kimi qəbul edirlər. Bakının yürütdüyü müstəqil xarici siyasət Aİ-yə imkan verir ki, regionda hər hansı dövlətin hegemonluğu olmadan iqtisadi maraqlarını təmin etsin.

Azərbaycanın strateji qovşaq rolu təkcə Qərb, Avropa deyil, həm də Şərqin böyük gücü Çin və Mərkəzi Asiya respublikaları tərəfindən yüksək qiymətləndirilir. Bu ölkələr üçün Azərbaycan dünya bazarlarına çıxışda "dar boğaz"ları aradan qaldıran ən etibarlı qapıdır. Pekin üçün Azərbaycanın əhəmiyyəti onun nəhəng ticarət layihəsi olan "Bir Kəmər, Bir Yol" layihəsi ilə birbaşa bağlıdır. Çin öz mallarını Avropaya çatdırmaq üçün Rusiyadan və Süveyş kanalından keçən dəniz yollarından asılı olmaq istəmir. Azərbaycanın təşəbbüskarı olduğu Orta dəhliz Çin üçün ən qısa, təhlükəsiz və sanksiyalardan kənar marşrutdur. Çin şirkətləri Azərbaycanın logistik imkanlarına, o cümlədən Ələt Azad İqtisadi Zonasına maraq göstərirlər ki, burada istehsal və qablaşdırma mərkəzləri quraraq məhsullarını daha tez Avropaya çatdırsınlar.

Azərbaycanın Mərkəzi Asiya dövlətləri Bakını özlərinin "Qərbə açılan qapısı" kimi görürlər. Mərkəzi Asiya ölkələri, xüsusən Qazaxıstan və Özbəkistan öz ixracatını şaxələndirmək üçün Xəzər dənizi və Azərbaycan infrastrukturundan intensiv istifadə etməyə başlayıblar. Mərkəzi Asiyanın enerji resurslarının dünya bazarlarına çıxarılmasında Azərbaycan əvəzedilməz tranzit tərəfdaşdır. Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri Qazaxıstan neftinin daşınmasında aktiv rol oynayır.

Bakının həlledici qovşaq missiyası Şərqin və Qərbin maraqlarını bir nöqtədə birləşdirərək ölkəmizin diplomatik manevr imkanlarını və iqtisadi qüdrətini əhəmiyyətli dərəcədə artırır. Şübhəsiz, Azərbaycanın mövqelərinin yüksəlməsi Prezident İlham Əliyevin illər öncədən təməlini qoyduğu çoxşaxəli və uzaqgörən strateji kursun məntiqi nəticəsidir. Bu gün bir çox ölkənin həsəd apardığı müstəqil xarici siyasətimiz düzgün qurulmuş iqtisadi özünütəminetmə bazası sayəsində mümkündür. Azərbaycanın əlverişli coğrafi mövqeyini strateji dəyərə çevirmək uzaqgörənlik və siyasi iradə tələb edirdi. İlham Əliyevin təşəbbüsü ilə reallaşan Orta dəhliz layihəsi Azərbaycanı Avrasiyanın əvəzedilməz logistik habına çevirdi. İndi Şərq də, Qərb də Azərbaycanın etibarlı bağlantısı olmadan öz ticarət təhlükəsizliyini tam təsəvvür etmir. Dünya Azərbaycanın iştirakı olmadan regionda heç bir strateji layihənin uğur qazana bilməyəcəyi reallığını qəbul edir. Bu, Prezident İlham Əliyevin uğurlu xarici siyasət kursunun və uzaqgörən dövlətçilik strategiyasının xəritədəki silinməz izidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycanda uşaq hüquqları:

## *qanunvericilik, məhkəmə təcrübəsi və müasir tendensiyalar*

**Azərbaycan Respublikasında uşaq hüquqlarının qorunması məsələsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Müstəqillik əldə etdikdən sonra respublikamız BMT-nin "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyasına qoşulmuş və sonrakı illərdə uşaq hüquqları sahəsində digər sənədlərə də qoşularaq yerli qanunvericiliyi davamlı şəkildə təkmilləşdirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu günlərdə imzalanmış "Uşaq hüquqları haqqında" qanun yuxarıda qeyd olunanları təsdiq edir.**

Azərbaycan Respublikasında 1998-ci ildə "Uşaq hüquqları haqqında", 1999-cu ildə "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", 2002-ci ildə "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", 2003-cü ildə "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", 2005-ci ildə "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", 2018-ci ildə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlar və digər normativ-hüquqi aktlar qəbul edilmiş, o cümlədən dövrün tələbinə uyğun olaraq mütəmadi olaraq yenilənmişdir.

Məhkəmə-hüquq sistemi yetkinlik yaşına çatmayanların hüquqlarının pozulmasının qarşısının alınmasında əsas rollardan birini oynayır. Bu sahədə Azərbaycan Respublikasının qanunvericiliyi beynəlxalq normalara uyğundur. Son illərdə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları uşaqların da maraqlarına və onların məhkəmədə müdafiəsinə öz müsbət təsirini göstərmişdir. Azərbaycanın müstəqillik qazanmasının ilk illərindən uşaq hüquqlarına önəm verilməsi fikrini bir daha vurğulamaq istərdik. Belə ki, Milli Məclisin 1993-cü il 28 iyul tarixli qərarı ilə ölkəmiz BMT Baş Məclisinin 1985-ci il noyabrın 29-da qəbul etdiyi "Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə aid minimal standart qaydaları"na qoşulmuşdur. Sonrakı illərdə isə milli qanunvericilik bu sənəddən irəli gələrək daha da təkmilləşdirilmişdir.

Azərbaycan qanunvericiliyi uşaqların məhkəmə vasitəsilə öz hüquqlarının müdafiəsi imkanlarını təsbit etmişdir. Belə ki, Azərbaycan Respublikasinin Ailə Məcəlləsinin 51.5-ci maddəsinə əsasən uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanına, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir. Həmin maddəyə görə, uşağın hüquqları və qanuni mənafeləri pozulduqda, valideynləri (onlardan biri) uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə, valideynlik hüquqlarından sui-istifadə etdikdə uşağın məhkəməyə müraciət etməyinə imkan yaranır.



Ailə Məcəlləsinin 52-ci maddəsi uşağın öz fikrini bildirmək hüququnu təsbit etmişdir. Belə ki, həmin maddəyə əsasən uşaq ailədə onun maraqlarına toxunan istənilən məsələnin həlli zamanı öz fikrini bildirmək, habelə məhkəmə istintaqı və inzibati araşdırmaların gedişində dinlənilmək hüququna malikdir. Maddədə o da qeyd edilmişdir ki, uşağın maraqlarına zidd olan hallar istisna olunmaqla, 10 yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır. Qanunvericiliyin bu müddəasında məntiqi vurğunun "mütləq" sözünün üzərinə düşdüyünü hiss etmək mümkündür. Bu səbəbdən də bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda məhkəmə və ya qəyyumluq və himayə orqanının yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə bilməsi şərti həmin maddədə açıq-aydın göstərilmişdir.

Lakin bu, heç də o demək deyil ki, 10 yaşdan aşağı uşağın fikri önəmli deyil. Həmin maddədə əks olunmuş məhkəmə, qəyyumluq və himayə orqanı qərar qəbul edərkən 7 yaşına çatmış uşağın fikrini öyrənməsi və nəzərə ala bilməsi şərti onu göstərir ki, dinlənilmək və fikri nəzərə alınmaq 7 yaşı tamam olmuş uşağın haqqıdır.

Ümumi tendensiyanı nəzərə alaraq demək olar ki, uşaqların maraqlarına toxunan məsələlərdə onların özlərinin iştirakı bundan sonra daha da artırılacaq. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın 4.4.15-ci maddəsində uşaqların maraqlarına toxunan məsələlərdə onların iştirakının müxtəlif formalarda təmin edilməsi istiqamətində fəaliyyətin gücləndirilməsi həmin strategiyanın əsas prioritet istiqamətlərindən biri kimi qeyd edilmişdir.

Ən yaxşı mənafe prinsipinin tətbiqi Ali Məhkəmənin plenumunun diqqət mərkəzindədir və qərarlarda bu prinsipə istinad edildiyini görmək mümkündür. Belə ki, "Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikasi Ali Məhkəməsi plenumunun 28 mart 2016-cı il tarixli qərarı da uşaqların kimin yanında qalması məsələsi həll olunarkən ən yaxşı mənafelərinə uyğun olmasını əsas götürmüşdür. Həmin qərarda nikahın pozulması zamanı yetkinlik yaşına çatmayan uşaqların kimin yanında qalması məsələsi həll olunarkən uşaqların digər bacı-qardaşları ilə artıq vərdiş etdikləri şəraitdə birlikdə yaşamalarının təmin olunması baxımından (müstəsna hallar istisna olmaqla) eyni valideynə verilmələri onların qanunla qorunan ən yaxşı mənafelərinə daha uyğun olması məhkəmələrə tövsiyə edilmişdir.

Bu prinsipin tətbiqi barədə digər qərara nəzər yetirək. "Uşaqların ölkədən getməsinə icazənin verilməsi ilə əlaqədar valideynlər arasında yaranan mübahisələr üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi plenumunun 24 dekabr 2021-ci il tarixli qərarının 1.5-ci bəndində deyilir: "Uşaq hüquqları haqqında" Konvensiyasının 3-cü maddəsində təsbit edilmişdir ki, uşaq barəsində bütün tədbirlərdə onun mənafeləri tam həcmdə nəzərə alınmalıdır. Bu konvensiyanın 9-cu maddəsinə görə uşaq valideynlərindən ayrılmamaq hüququna malikdir, bu uşağın ən yaxşı mənafeləri naminə labüd olmasından irəli gəlir.

Azərbaycanda uşaq hüquqları sahəsində qanunvericik aktları qəbul edilərkən müvafiq beynəlxalq sənədlərdən faydalanılmışdır. Nümunə olaraq 1959-cu il tarixli "Uşaq Hüquqları Bəyannaməsi"nə baxa bilərik. Həmin bəyannamənin 3-cü prinsipi hər bir uşağın anadan olandan ad və vətəndaşlıq hüququnun olmasını özündə əks etdirir. Analoji müddəaya 1989-cu il tarixli "Uşaq hüquqları haqqında" Konvensiyanın 7-ci maddəsində də rast gəlinir. Eynilə də 3 mart 2026-cı il tarixli "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun 14-cü maddəsi də uşağın vətəndaşlıq və ad almaq hüququnu özündə əks etdirmişdir.

Müqayisədə deyə bilərik ki, hərbi xidmətə çağırılma baxımından isə Azərbaycan qanunvericiliyi 20 noyabr 1989-cu il tarixli "Uşaq hüquqları haqqında" Konvensiyadan daha humanist mövqe tutur. Belə ki, bu konvensiyanın 38-ci maddəsinin 2-ci bəndinə əsasən iştirakçı dövlətlər 15 yaşına çatmayan hər hansı şəxsi öz silahlı qüvvələrində hərbi xidmətə çağırmaqdan imtina edirlər. İndi isə Azərbaycan qanunvericiliyinə nəzər salaq. 23 dekabr 2011-ci il tarixli "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun 36.1.2-ci maddəsinə əsasən xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisəsinə qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan vətəndaşlar hərbi xidmətlərə daxil olurlar. Göründüyü kimi, beynəlxalq konvensiya hərbi xidmətə çağırılma üçün minimal yaş limitini 15 yaş müəyyən etsə də, Azərbaycan qanunvericiliyi uşaqların qayğısına qalaraq minimal yaş limitini 17 yaş müəyyən etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsi plenumunun "Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 28 oktyabr 2011-ci il tarixli qərarı olmuşdur. Bu qərarın tətbiqindən sonra illərin və məhkəmələrin təcrübəsi toplanmış, plenumda bu qərarda qeyd edilən məsələlərə dövrün tələblərinə uyğun yenidən baxılması zərurəti yaranmışdır. Təsadüfi deyil ki, bu qərarın tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyəti monitorinq edilmiş və Ali Məhkəmənin plenumunun bu mövzuda yeni qərarı olmuşdur. Belə ki, Ali Məhkəmənin plenumu "Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 2011-ci il 28 oktyabr tarixli qərarının tətbiqi ilə bağlı həyata keçirilmiş məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələrinə dair" 19 dekabr 2022-ci il tarixli, 5 nömrəli yeni qərar qəbul etmişdir. Sonuncu qərara əsasən 2011-ci il 28 oktyabr tarixli qərara belə bir məzmunda yeni 2.6-ci bənd əlavə edilmişdir: "Məhkəmələr uşaqların öz valideynləri ilə ünsiyyət forması kimi şəxsi görüşdən əlavə, mümkün olduğu hallarda digər ünsiyyət formalarının (yazışma, telefon danışıqları, videoəlaqə və texnologiyaların imkan verdiyi digər vasitələr) tətbiqini də nəzərdən keçirməlidirlər". Qərara edilmiş düzəlişin mahiyyətindən göründüyü kimi, həmin dövrün əsas xüsusiyyətləri, yəni informasiya və kommunikasiya texnologiyalarının inkişafı və pandemiyanın doğurduğu şərait nəzərə alınmışdır.

Təəssüflə qeyd edirik ki, nikahın pozulmasından sonra aliment ödəməli olan tərəfin müəyyən səbəbdən ölkə xaricinə getməsi səbəbindən alimentin tam həcmdə, vaxtlı-vaxtında alınmasında çətinliklərə rast gəlinir. Bu isə öz növbəsində uşaqların rifah halına mənfi təsir edir. Bu kimi neqativ halların qarşısını almaq məqsədilə "Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər formalarının beynəlxalq qaydası haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 30 sentyabr 2022-ci il tarixli Qanunu qəbul edilmişdir. Həmin qanuna əsasən göstərilən konvensiya Azərbaycanda təsdiq edilmişdir. Həmin konvensiyanın məqsədlərinə aliment barədə qərarların tanınması və icrasının təmin edilməsi, həmçinin aliment barədə qərarların qısa müddətdə icrası üçün səmərəli tədbirlərin tələb edilməsi daxildir. Bu isə öz növbəsində aliment ödəyən tərəfin ölkə xaricinə getməklə alimentin ödənilməsindən yayınması hallarının qarşısını almaqda mühüm rol oynayır.

Uşaqlar bizim gələcəyimizdir. "Uşaq hüquqları haqqında" qəbul olunmuş Azərbaycan Respublikasının Qanunu gələcəyimizin daha parlaq olması naminə atılmış bir addımdır. Bu qanunun həyatımıza tətbiqi isə gələcəyimizin təminatıdır!

*Vüsalə MURADXANLI,*
*hüquq üzrə fəlsəfə doktoru*

# Azərbaycanın yaratdığı reallıqlar erməni saxtakarlığını da fiaskoya uğradır

**Ermənistan mətbuatında Azərbaycanın Qarabağda guya erməni irsini məhv etməsi ilə bağlı informasiyalar tirajlanır. Xüsusilə, özünü "Artsax Birliyi" adlandıran, lakin hüquqi legitimliyi olmayan bir qondarma qurumun yaydığı son bəyanat bir daha erməni saxtakarlığının mahiyyətini göstərir.**

Belə əsassız informasiyaların Azərbaycanın regionda bərpa-quruculuq işlərini sürətləndirdiyi və sülh müqaviləsi üçün real addımlar atdığı bir dönəmdə yayılması təsadüfi deyil. Bu, revanşist və antiazərbaycançı dairələrin maraqlarına xidmət edən, beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlmiş "informasiya terroru"dur. Görünür, hərb meydanında məğlub olanlar, indi də saxta ittihamlarla özlərini "qurban" obrazı kimi təqdim edirlər.

Əslində, mədəni irsə qarşı soyqırımını Ermənistan özü işğal dövründə Qarabağdakı məscidləri dağıtmaqla, tövləyə çevirməklə, tarixi abidələrimizi Yer üzündən silməklə həyata keçirib. Torpaqlarımızın işğalı nəticəsində Azərbaycanın mədəni mühiti vandallığa məruz qalıb, yüzlərlə tarixi abidə, muzey, minlərlə sənət nümunəsi vandalizmin qurbanı olub. Tarixi abidələrin təhqir olunması və mənimsənilməsi beynəlxalq hüquq normalarına zidd olmaqla yanaşı, bəşəri dəyərlərə qarşı törədilmiş bir cinayətdir.

Qarabağdakı xristian dini abidələri bu ərazilərə XIX əsrdə müxtəlif yollarla köçürülmüş ermənilərə aid deyil. Həmin abidələr Azərbaycan Qafqaz Alban irsinin nümunələridir. Qədim tarixi mənbələr sübut edir ki, Qafqaz Albaniyası xristianlığın dünyada yayıldığı ilk ocaqlardan biridir. Alban məbədləri memarlıq



üslubuna görə erməni kilsələrindən köklü şəkildə fərqlənir. Məsələn, alban məbədlərinin tikintisində istifadə olunan həndəsi naxışlar və günəş simvolları türk-islam mədəniyyəti ilə eyni kökdən gələn elementlərdir və bunların erməni kilsə memarlığı ilə heç bir bağlılığı yoxdur. Alban mədəni irsinə məxsus abidələrin erməniləşdirilməsi və tarixi faktların təhrif olunması Ermənistanın onilliklər ərzində apardığı sistemli saxtalaşdırma siyasətinin tərkib hissəsidir. Qarabağ və Şərqi Zəngəzurda işğal dövründə tikilən binaları isə "qədim kilsə" kimi təqdim etmək çox gülüncdür. Azərbaycan dövləti həmin ərazilərdəki tarixi irsi erməni saxtakarlığından təmizləyərək öz həqiqi sahiblərinə, xalqımıza qaytarır.

Eyni zamanda "mədəni soyqırımı" iddiası erməni xislətinin növbəti təzahürüdür. Özgəsinin tarixini mənimsəməkdə pərgar olanlar indi həmin abidələrin bərpasına "dağıdılma" adı qoyurlar. Görünür Azərbaycanın tarixi abidələrin üzərindən sonradan yapışdırılmış saxta daşları və yazıları söküb onları ilkin vəziyyətinə qaytarması erməni tərəfində qorxu yaradır. Çünki saxta tarix söküldükcə, ermənilərin bu torpaqlarda "qədim xalq" olması barədə uydurduqları miflər də darmadağın olur.

Erməni mətbuatında UNESCO-ya və Beynəlxalq Ədalət Məhkəməsinə çağırışlar edilməsi şantajdan başqa bir şey deyildir. Ermənistan 30 illik işğal dövründə UNESCO missiyasının Qarabağa daxil olmasına hər vəchlə mane olurdu, çünki oradakı islam irsini dağıdaraq dini-tarixi irsə dair beynəlxalq konvensiyaları kobud şəkildə pozmuşdur.

Erməni mediasında yer alan informasiyalarda diqqətçəkən digər məqam Ermənistan hökumətinin "hərəkətsizlikdə" ittiham edilməsidir. Bu, onu göstərir ki, Qarabağ mövzusu Ermənistanın daxilində radikal qruplar tərəfindən siyasi hakimiyyətə təzyiq vasitəsi kimi istifadə olunur. Revanşist qüvvələr həm də saxtakarlıq yolu ilə erməni xalqını fəlakətlərə sürükləməyə çalışırlar. Onlar Paşinyan hakimiyyətindən Azərbaycanla sülh danışıqlarını pozmağı və yenidən qarşıdurma yolunu seçməyi tələb edirlər. Beynəlxalq platformalarda sanksiya tələbləri səsləndirmək çağırışı, sadəcə, dialoqdan qaçmaq və bölgədə gərginliyi saxlamaq istəyidir. Şübhəsiz ki, bu cür ritorika nə sülhə, nə də regionun inkişafına xidmət edir.

Qafqaz Albaniyasının irsini erməni irsi kimi təqdim etmək cəhdi tarixi cinayətdir. Uydurma və saxta iddialar üzərində qurulan siyasət heç vaxt uğur gətirə bilməz. Həqiqət isə birdir. Qarabağ Azərbaycandır və oradakı hər bir daşın, hər bir abidənin həqiqi kimliyi artıq öz sahibinə qayıdıb. Bu, əsrlərdir gizlədilən, təhrif edilən tarixi ədalətin bərpasıdır. Azərbaycanın yaratdığı reallıqlar erməni saxtakarlığını da fiaskoya uğradır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Ortaq gələcək naminə: Azərbaycanın sistemyaradıcı rolu

**Azərbaycan Prezidentinin Çin-Mərkəzi Asiya-Cənubi Qafqaz-Yaxın Şərq miqyasında əməkdaşlıqla təhlükəsizliyin təminini vahid məntiqi müstəviyə gətirməsinin bünövrəsində, zərgər dəqiqliyi ilə işlənib hazırlanmış sistemli siyasi xətt dayanır. Burada hər bir geosiyasi faktorun yeri və rolu dəqiq nəzərə alınmışdır. Belə balanslı və dəyişən şərtləri nəzərə alan yanaşma sayəsində Azərbaycan geniş geosiyasi məkanda "orta güc" kimi sistemyaradıcı funksiyasını uğurla həyata keçirir. Bəs rəsmi Bakının Mərkəzi Asiya siyasəti fonunda bu qənaət necə təsir bağışlayır?**

## Böyük rəqabətin fonunda

Öncə onu vurğulayaq ki, ekspertlər hazırkı mərhələdə Cənubi Qafqazla Mərkəzi Asiyanın bir-biri ilə qarşılıqlı geosiyasi əlaqədə olmasını müsbət anlamda "tarixi məhkumluq" kimi qiymətləndirirlər. Bu barədə konkret mövqe ifadə edən politoloq Gela Vasadze vurğulayır: "...indi formalaşan institusional çərçivələrin - Türk Dövlətləri Təşkilatının və Azərbaycanın Mərkəzi Asiya "beşliyi"nə qoşulmasının əhəmiyyəti çox yüksəkdir". Yəni Mərkəzi Asiyanın 5 dövləti ilə Azərbaycan arasında dialoq mexanizmi kimi fəaliyyət göstərən C6 platforması, əslində, müasir tarixi mərhələdə bir zərurətdir ki, bütövlükdə geniş coğrafiyada ciddi rol oynaya bilər. Bu baxımdan, ekspertlərin Azərbaycan-Mərkəzi Asiya əməkdaşlıq və təhlükəsizlik platformasını qlobal geosiyasətin aktual gündəmi kontekstində qiymətləndirməsi tamamilə əsaslıdır. Bununla yanaşı, Azərbaycanın xarici siyasətinin Mərkəzi Asiya istiqaməti ilə digər prioritet istiqamətlər arasındakı geosiyasi və siyasi əlaqələri araşdırmaq əhəmiyyətlidir.

Qlobal rəqabət kontekstində burada bir sıra vacib xüsusiyyətləri vurğulamaq lazımdır. Ümumilikdə məsələ müasir dünya düzəninin hansı istiqamətdə transformasiya etdiyini və bu prosesdə regionallaşmanın oynadığı rolu əhatə edir. Analitiklər vurğulayırlar ki, 2026-cı ilin başlanğıcı postmüharibə arxitekturasının, sadəcə, "sistemdaxili qüsurlar"ı ilə xarakterizə olunmur. Proseslər "beynəlxalq münasibətlərin yeni modelinə keyfiyyət keçidini ifadə edir". Bu zaman "universal normaların yerini alətləşmiş hüquqa və güclərin regionallaşmış iyerarxiyasına verdiyi" hiss edilir.

"Güclərin regionallaşmış iyerarxiyası" prizmasından C6 aktual format kimi çıxış edir. Onu aşağıdakı iki istiqamətdə qiymətləndirmək olar: birincisi, böyük geosiyasi aktorların Cənubi Qafqaz və Mərkəzi Asiya kontekstində yaratmağa çalışdıqları "regionallaşmış iyerarxiya" fonunda Azərbaycanın xarici siyasətinin perspektivləri; ikincisi, Bakının C6 çərçivəsində təşəbbüskarı olduğu müxtəlif layihələrin özəllikləri.

Birinci istiqamət Qafqaz-Mərkəzi Asiya kontekstində Azərbaycanın regional lider kimi xarici siyasətinin uğurları ilə bağlıdır. Çox maraqlı və əhəmiyyətlidir ki, məhz Azərbaycanın xarici siyasəti böyük güclərin C6 məkanında formalaşdırmaq istədikləri "regionallaşmış iyerarxiya"ya ciddi təsir edir - rəsmi Bakının maraqları nəzərə alınmadan burada heç bir əməli addım atmaq mümkün deyil. Bu, Azərbaycanın geniş bir coğrafiyada sistemyaradıcı rolunun təməl şərtlərindən biridir. Onun üzərində bir qədər geniş dayanmaq lazımdır.

Mütəxəssislər əmindirlər ki, artıq Mərkəzi Asiya Çin, Rusiya, ABŞ və Avropa İttifaqı (Aİ) arasında rəqabətli mübarizə meydanı kimi tam formalaşmışdır. Bu o deməkdir ki, Mərkəzi Asiya dünyanın böyük geosiyasi gücləri üçün konkret geosiyasi obraza və statusa malikdir. Onlar bu region uğrunda mübarizələrini davamlı olaraq aparmaq niyyətindədirlər. Məqsəd isə aydındır - hər güc öz maraqlarına uyğun nizam formalaşdırmağa çalışacaq. Digər tərəfdən, Mərkəzi Asiyanın başqa regionlarla münasibəti də diqqət mərkəzinə gəlir. Bu baxımdan, böyük aktorlar üçün Qafqazın yeri və rolu ayrıcadır. Deməli, Qafqaz-Mərkəzi Asiya coğrafiyası bir neçə aspektdə dünyanın böyük geosiyasi güclərinin planlarının toqquşduğu məkana çevrilmişdir!

Bu yeniliyin əsas əlamətlərindən biri kimi Rusiyanın Qafqaz və Mərkəzi Asiyada əvvəlki təsir imkanlarını artıq itirməsi, bunun fonunda isə ABŞ-nin nüfuzunun artması qeyd olunur. "Eurasia Review" jurnalında Mərkəzi Asiyanın hazırda "qlobal qeyri-sabitliyin mərkəzində qaldığı" vurğulanır. Belə vəziyyətdə region dövlətlərinin məharətli balanslaşdırma siyasəti yeritməyə çalışdıqları hiss olunur. Həm də Rusiya və Çinin hər birinin özünəməxsus ziddiyyətlər əmələ gətirdikləri görünür.

Maraqlıdır ki, ekspertlər son illərdə Çinlə birlikdə Mərkəzi Asiya və Qafqazın "dünya resurs gücünün yeni oxu" halına gəldiyi müddəasını irəli sürür, bunu obrazlı şəkildə "nadir metallar uğrunda yarış" adlandırırlar. Misli görünməmiş geosiyasi gərginlik fonunda bu özəllik enerji və təbii resursların çatdırılması prosesinin arxitekturasının transformasiyasını ifadə edir. Analitiklər bu gedişatı təbii ehtiyatların istifadəsi və ekosistemin qorunmasına yanaşmaların "tədrici sistem transformasiyası" kimi xarakterizə edirlər.

Sonuncu tezis Azərbaycan-Mərkəzi Asiya münasibətlərinin inkişafı baxımından əhəmiyyətlidir. Belə ki, burada Qafqazla Mərkəzi Asiya əlaqələrinin qlobal geosiyasi kontekstinin yeni çalarları öz əksini tapmışdır. Nadir tapılan metallar uğrunda dörd böyük gücün mübarizəsinin daha da kəskinləşməsi özlüyündə geosiyasi müstəvidə qüvvələr balansına ciddi təsir göstərir. Bu məqamda Azərbaycanın C6-ya üzv olmasının bir sıra müsbət cəhətləri ön sıraya çıxır, çünki vurğulanan geosiyasi məkanda məhz Azərbaycan sistemyaradıcı rol oynayır. Həmin tezis kontekstində yuxarıda vurğulanan ikinci istiqamətin - "rəsmi Bakının C6 çərçivəsində həyata keçirdiyi təşəbbüslərin özəllikləri" məsələsinin aktuallığı aydın görünür. Ekspertlər həmin kontekstdə maraqlı bir tezis irəli sürürlər.

## Azərbaycan-Türkiyə tandemi

Azərbaycan Xəzər-Anadolu geosiyasi xəttinin əhəmiyyətli iştirakçısı kimi tədqim olunur. Bu keyfiyyətdə Azərbaycan enerji infrastrukturunun təhlükəsizliyinin və regional sabitliyin təminində mühüm güc olaraq qəbul olunur.

Təbii ki, burada nəqliyyat-logistika faktorlarını nəzərə almamaq olmaz. Deməli, C6-nın üzvü olaraq Azərbaycan Mərkəzi Asiya regionunda daha geniş geosiyasi təsir imkanlarına malik olmaqda əsas rol oynayır. Analitiklər həmin kontekstdə İranda yaşayan azərbaycanlıların da artıq ciddi geosiyasi faktora çevrildiyini və ona Azərbaycanın geosiyasi potensialı müstəvisində baxılmasının vacibliyini qeyd edirlər.

Əlbəttə, bu məqam Azərbaycanın xarici siyasətinin geosiyasi xarakteristikası baxımından prinsipial əhəmiyyət daşıyır. Son 100 ildə ilk dəfədir ki, Azərbaycanın siyasi-coğrafi hüdudlarından daha geniş geosiyasi mühitdə dövlətimizin xarici siyasətində azərbaycanlılıq konkret siyasi faktor kimi gündəmə gətirilir. Burada transsərhəd mahiyyətli layihələr başqa regional kontekstlə yanaşı, Mərkəzi Asiya ilə sıx bağlılıqda da xüsusi aktuallıq kəsb edir. Çünki uzunmüddətli sabitlik üçün problemə daha geniş aspektdə yanaşmaq zəruridir.

Bütün bunlar Azərbaycanın xarici siyasəti kontekstində analitiklərə maraqlı nəticə əldə etməyə imkan verir: Birincisi, vurğulanan özəlliklər Azərbaycan üçün praktiki nəticəsi ola biləcək "strateji imkanı" ifadə edirlər. Çünki Azərbaycanın C6-nın üzvü kimi regionlararası miqyasda sabitləşdirici və təhlükəsizliyi təmin edən sistemli fəaliyyət göstərməsi tələbatı ortaya çıxır. "Orta güc" olaraq Bakının xüsusi layihələri mütləq olmalıdır. Azərbaycan-Türkiyə tandemi məsələsini unutmaq olmaz. İki dost və qardaş ölkə geosiyasi, siyasi, hərbi və iqtisadi-enerji istiqamətlərində konkret proqramları davamlı həyata keçirməklə regionlararası miqyasda sistemyaradıcı funksiyanı yerinə yetirə bilirlər.

İkincisi, Ankara-Bakı tandemi gələcək regional arxitekturanın qurulması prinsiplərini ciddi surətdə dəyişir. Azərbaycanla Türkiyə regional arxitekturanı "dayanıqlı dövlət və infrastruktur əlaqələri" üzrə formalaşdırırlar.

Dayanıqlı infrastruktur əlaqələri Azərbaycanın Mərkəzi Asiya siyasətində başqa bir mühüm geosiyasi özəlliyi ortaya çıxarır.

## İnfrastruktur şəbəkəsi

Bu bir fakdır ki, Azərbaycanın infrastruktur şəbəkə yaratmaq qabiliyyəti bütün dünya tərəfindən etiraf olunur. Çünki rəsmi Bakı davamlı olaraq Cənubi Qafqaz, Mərkəzi Asiya, Türkiyə, Avropa istiqamətlərində bir-biri ilə sıx bağlı olan çoxsaylı proqramları uğurla həyata keçirir. Bu proses həm sistemli, həm də vahid şəbəkəyaradıcı xarakter daşıyır. Burada vahid şəbəkəyaradıcılığı sistemyaradıcı funksiyaya xidmət edir. Müasir mərhələ üçün infrastruktur şəbəkəsi son dərəcə aktualdır.

Məsələ onunla bağlıdır ki, infrastruktur şəbəkəsi iqtisadi inteqrasiya və ərazilərin bir-birinə bağlanması baxımından prinsipial rol oynayır. Geosiyasət elmində "infrastruktur şəbəkəsi" anlayışına da məhz bu kontekstdə yanaşılır. İnfrastruktur şəbəkəsi nəqliyyat, enerji və rəqəmsal kommunikasiyaları birləşdirir, bununla güc, iqtisadi inteqrasiya və ərazilərin bir-birinə bağlanmasını təmin edir, onları vahid şəbəkə halında geosiyasi aspektdə proyeksiyalayır.

Güc, iqtisadi inteqrasiya və ərazilərin bir-birinə bağlanması məsələsi müasir mərhələdə sərhədyanı ərazilərin infrastruktur təşkili, bağlılıq, nüfuzetmə və dərinlik istiqamətlərində yeni aktuallıq kəsb edir. İnfrastrukturun inkişaf dərəcəsi geostrateji nəzarət baxımından "təşkiledilmiş xaos strategiyası"nın gündəmə gəlməsi ilə daha da aktuallaşmışdır.

Beləliklə, müasir mərhələdə geosiyasətdə infrastrukturun əsas aspektləri nəqliyyat dəhlizlərini, enerji təhlükəsizliyini, rəqəmsal infrastrukturu və geosiyasi nəzarəti əhatə edir. Azərbaycanın Mərkəzi Asiya istiqamətində yeritdiyi siyasətdə infrastruktur şəbəkəsinin hansı səbəblərdən prinsipial yer tutduğu yuxarıda vurğulanan məqamlardan aydın görünür.

Ümumilikdə infrastruktur diplomatiyası nəqliyyat dəhlizləri, enerji şəbəkələri və limanların xarici siyasətin alətləri kimi əməkdaşlıq, nüfuz və geosiyasi mövqe müəyyənləşdirməkdə istifadə edilməsini nəzərdə tutur. Bunun mühüm şərtlərindən biri də "infrastruktura kollektiv sərmayələrin qoyulması"dır.

Statistik məlumatlara görə, 2025-ci ildə Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 1,8 milyard ABŞ dolları həcmində olmuşdur. 2025-ci ilin yanvar-sentyabr aylarında isə Mərkəzi Asiya ölkələrindən Azərbaycana birbaşa sərmayə qoyuluşu artmışdır. Həmin müddətdə Azərbaycanın region ölkələrinə sərmayə yatırımı 41,7 milyon ABŞ dolları həcmində olmuşdur. Deməli, qarşılıqlı sərmayə qoyuluşu getdikcə artır.

Bütün bunları ümumiləşdirsək, Azərbaycanla Mərkəzi Asiya ölkələrinin infrastruktur diplomatiyasından geniş istifadə etdiyi qənaətinə gələ bilərik. Bu keyfiyyət C6 çərçivəsində getdikcə daha geniş yer tutmağa başlayır. Azərbaycanın infrastruktur diplomatiyasını "yumşaq güc" adlandırmaq olar. Digər faktor kimi isə Orta dəhliz məsələsini vurğulaya bilərik.

## Orta dəhliz infrastruktur şəbəkəsinin mühüm elementi kimi

Orta dəhliz məsələsi, faktiki olaraq, Azərbaycanın xarici siyasətində "yumşaq güc" funksiyasını yerinə yetirməyə başlamışdır. Bu layihə Çinə aiddir. Ancaq Azərbaycan davamlı olaraq onun reallaşmasında və regionlararası məkanda birləşdirici rol oynamasında xüsusi yer tutmuşdur. Hazırda Azərbaycanın təşəbbüsləri sayəsində Orta dəhliz Uzaq Şərq, Mərkəzi Asiya, Qafqaz, Türkiyə, Yaxın Şərq və Avropa kimi geniş bir coğrafiyada kommunikativ aspektdə "yumşaq güc" rolunu oynayır. Bu "güc" faktoru həmin coğrafiyada yerləşən ölkələri geosiyasi, iqtisadi, enerji, nəqliyyat, informasiya, rəqəmsallıq və başqa sferalar üzrə bir-birinə bağlayır.

Bu kontekstdə Zəngəzur dəhlizi daha aktual geosiyasi mövqeyə yüksəlmişdir. "Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu" (TRIPP) adlandırılan həmin layihə Mərkəzi Asiyanı, Qafqazı, Türkiyəni Avropaya quru yolla birləşdirir. Bu bağlılığın strateji əhəmiyyəti dəfələrlə vurğulanmışdır. Lakin son dövrlərdə müşahidə olunan geosiyasi proseslər Zəngəzur dəhlizi də daxil olmaqla, Orta dəhliz üçün təhdidlərin meydana gəldiyini göstərir. Bu risklər xüsusilə ABŞ-İsrail-İran müharibəsi fonunda daha qabarıq görünür.

Buradan çıxan nəticə ondan ibarətdir ki, həmin müharibə Orta dəhlizin geosiyasi əhəmiyyətini azaltmamış, əksinə, daha da artırmışdır. İndi daha aydın görünür ki, Azərbaycanın geniş geosiyasi məkanda birləşdirici rol oynama potensialı xüsusi aktuallıq kəsb edir. Çünki Azərbaycan, faktiki olaraq, C6 çərçivəsində əsas birləşdirici faktor rolunu oynayır. Bu, Bakının iqtisadi, siyasi, enerji, nəqliyyat, logistika və təhlükəsizlik sahələrindəki fəaliyyəti ilə təsdiqlənir.

## İki xəttin sintezi

Aparılan təhlil göstərir ki, Azərbaycanın Mərkəzi Asiya siyasəti geosiyasi kontekstdə mahiyyət etibarilə iki əsas xüsusiyyətə malikdir. Onlardan biri geosiyasi, siyasi, iqtisadi, enerji, informasiya, idarəetmə və kommunikasiya istiqamətlərinin sintezi sayəsində TDT və C6 çərçivəsində əməkdaşlıq platformasına üstünlük verilməsidir. Bunun nəticəsi Cənubi Qafqaz və Mərkəzi Asiya regionları miqyasında ölkələrin bağlantılarına nail olmaqdır.

Digər xüsusiyyət Azərbaycan-Mərkəzi Asiya vahid sisteminin regionlararası və qlobal miqyasda praktiki təsiri getdikcə güclənən geosiyasi konfiqurasiyanın formalaşmasıdır. Bu səviyyədə Azərbaycanın xarici siyasətinin Mərkəzi Asiya istiqaməti ilə Avropa və Yaxın Şərq istiqaməti arasında uyğunluq xüsusi yer tutur. Bu, Azərbaycanın irəli sürdüyü müxtəlif əməkdaşlıq və təhlükəsizlik layihələrində öz əksini tapır. Vurğulanan kontekstdə Azərbaycanın Mərkəzi Asiya siyasətində Orta dəhliz çərçivəsində enerji və nadir tapılan təbii resursların əhəmiyyəti getdikcə daha da artır. Rəsmi Bakı hər iki sfera üzrə substantiv (konkret predmet istiqamətli) və funksional (kommunikasiya kanallarının açılması və ən yeni texnologiyaların tətbiqi) faktorların bir-birini tamamlamasına nail olmuşdur. Bu, Azərbaycanın TDT və C6 çərçivəsində yerini möhkəmləndirməklə yanaşı, Qafqaz-Mərkəzi Asiya geosiyasi və coğrafi-iqtisadi məkanının qlobal gücə çevrilməsində mühüm rol oynamaq imkanını genişləndirir.

Azərbaycan Prezidenti İlham Əliyevin XIII Qlobal Bakı Forumunda səsləndirdiyi fikirlər bu kontekstdə olduqca əhəmiyyətlidir və rəsmi Bakının mövqeyini dəqiq əks etdirir. Dövlət başçısı demişdir: "Mövcud çağırışlar kontekstində bu gün əhatə etmək istədiyim üçüncü mövzu isə bağlılıqdır... Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşlıq və əslində, həm Orta dəhlizdə, həm də "Şimal-Qərb" dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır".

Azərbaycan Prezidentinin bu ədalətli və eyni dərəcədə realpolitik məzmunlu təhlilinin doğruluğunu bütün dünya Hörmüz boğazı ətrafında yaranmış gərginlik fonunda aydın dərk etməlidir. Hörmüz problemi məhz dünya miqyasında bağlılıq və nəqliyyat marşrutlarını pozur. Nəticədə, bütün dünya dövlətləri həyəcan təbili çalır, enerji qıtlığının sabitliyə və sülhə təhlükə yaratması ilə bağlı fikirlər səsləndirirlər. Onların narahatlıqları tam başadüşüləndir. Lakin burada mühüm bir konseptual məqam da mövcuddur.

Regionlararası əlaqələrin qlobal miqyasa uğurlu transformasiyası baxımından Azərbaycan modeli bütün dünya üçün faydalıdır. Prezident İlham Əliyevin yaratdığı faydalı bağlantılar və kommunikasiya əlçatanlığı modeli müasir dünya üçün həm nəzəri, həm də praktiki baxımdan nümunəvi yanaşma kimi çıxış edə bilər! Sadəcə, özlərini "dünyanın ağası" sayan dövlətlərin liderləri məsələyə sağlam, ədalətli, obyektiv və dünyanın müsbət gələcəyi naminə yanaşmalıdırlar.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Etibarlı və əlverişli investisiya məkanı




**Dünyanın hər yerində sərmayədarları ilk növbədə cəlb edən sabitlik, təhlükəsizlik və əlverişli biznes mühitidir. Azərbaycan da təhlükəsizlik və biznes imkanlarına görə xüsusilə fərqlənən ölkədir. Xarici sərmayədarlar üçün ölkəmiz əlverişli investisiya məkanıdır.**

**Bu cəlbediciliyin nəticəsidir ki, son iyirmi il ərzində Azərbaycan iqtisadiyyatına 350 milyard ABŞ dollarından çox investisiya qoyulub. Bunun da təqribən 170 milyard dolları xarici mənbələrdən gələn investisiyalardır. Statistika da göstərir ki, Azərbaycan yerli investorlarla bərabər, xarici sərmayədarları da özünə cəlb edir.**

**"Rayonlarda biznes imkanları var. Əlbəttə ki, onlar paytaxtda olan biznes imkanlarından fərqlidir. Buna görə də kənd təsərrüfatı, turizm, su ehtiyatlarının idarəedilməsi - bütün bu sahələrdə dövlət və özəl şirkətlər Azərbaycanda layihələr həyata keçirirlər. Hesab edirəm ki, Latviya investorları üçün bu fürsətləri nəzərdən keçirmək də maraqlı olardı". Prezident İlham Əliyevin Azərbaycan-Latviya biznes-forumunda səsləndirdiyi bu fikirlər də respublikamızın müxtəlif bölgələrində, müxtəlif sahələrdə sərmayə imkanlarının olmasından xəbər verir.**

## Sabitlik və gəlir potensialı baxımından seçilən ölkə

Mövzu ilə əlaqədar Milli Məclisin deputatı Müşfiq Cəfərov qəzetimizə açıqlamasında deyib ki, hər bir ölkənin iqtisadi inkişafının təmini üçün ən vacib faktorlardan biri investisiya axınlarıdır. Onun sözlərinə görə, Azərbaycanda da son dövrlər biznes mühitinin yaxşılaşdırılması, investisiya cəlb edilməsi imkanlarının stimullaşdırılması dövlət səviyyəsində mövcud investisiya mühitinin daha da yaxşılaşdırılması üçün mühüm addımlar atılıb: "Prezident İlham Əliyev Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda iştirakı zamanı qeyd etdiyi kimi, ölkəmizdə investisiya üçün əlverişli mühitin yaradılması qarşıda duran hədəflərdən biri idi və buna böyük mənada nail olunub. Düşünürəm ki, sözügedən forum beynəlxalq əməkdaşlıq sahəsində yeni mərhələnin başlanğıcı olacaq".

Deputat qeyd edib ki, Azərbaycanda artıq neft sektoruna kifayət qədər xarici investisiya yatırılıb, indi isə əsas məqsəd investisiya axınını qeyri-neft sektoruna yönəltməkdir. Hazırda ölkəyə yatırılan qeyri-neft sərmayələr isə daha çox birbaşa dövlət investisiyaları və yerli sahibkarların maliyyə vəsaitləri hesabına edilən yatırımlardır.

M.Cəfərov bildirib ki, Azərbaycan regional iqtisadi xəritədə həm sabitlik, həm də gəlir potensialı baxımından seçilən ölkələrdən biridir: "Buna görə də həm yerli, həm də xarici investorlar üçün Azərbaycana investisiya qoyuluşu həm təhlükəsiz, həm də sərfəli hesab olunur. Azərbaycanda enerji resursları - neft və qaz ölkənin maliyyə dayanıqlığının əsas baza mənbəyidir. Eyni zamanda dövlətimiz bu gün Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaş kimi çıxış edir. Bunun fonunda bərpaolunan enerji layihələri üzrə irihəcmli sazişlər imzalanır və bu sahə yeni investisiya dalğası üçün imkanlar yaradır.

Sabitlik güclü enerji bazası, strateji coğrafi mövqe, azad iqtisadi zonalar və sənaye parkları, eləcə də rəsmi investisiya





təşviqi mexanizmi və vergi-gömrük güzəştləri Azərbaycana investisiya yaratmağı həm risk baxımından idarəolunan, həm də gəlir baxımından sərfəli edir".

## İnvestisiya mövqeyimiz yüksəlib

İqtisadçı Pünhan Musayev qeyd edib ki, iyirmi il ərzində 20 milyard dollardan 76 milyard dollara qədər böyüyən iqtisadiyyat üçün xaricdən cəlb olunan 170 milyard dollar xarici sərmayə olduqca xüsusi göstərici kimi çıxış edir. Bu, həm də orta hesabla hər il 8-10 milyard dollar həcmində xarici investisiya axını deməkdir. Bu illərin heç də hər birində qlobal konyunktur və investisiya şərtlərinin eyni olmadığını nəzərə alsaq, bu məqamın özü Prezident İlham Əliyevin də vurğuladığı kimi, həyata keçirilən iqtisadi siyasətin əhatə və sistemliyini ifadə etməyə imkan yaradır. "Cəlb olunan xarici sərmayənin strukturuna diqqət yetirdikdə görünür ki, xaricdən gələn investisiyaların mühüm hissəsi iqtisadiyyatın neft sektoruna istiqamətlənib. Bu sahə müstəqillik illərində iqtisadiyyatın aparıcı sahəsi olduğundan, ilk baxışdan belə bir təsəvvür yarana bilər ki, xarici investisiyaların gəlmə səbəbi sırf bu sektorun mövcudluğu ilə bağlı olub. Reallıqda isə təsvir bundan daha genişdir. Çünki neft ehtiyatları ilə zəngin olan bir çox ölkənin təcrübəsi göstərib ki, sabit ictimai-siyasi, habelə investisiya mühiti və etibarlı tərəfdaşlıq münasibətləri formalaşmadığı təqdirdə, resurs potensialı özlüyündə həlledici amilə çevrilə bilmir", - deyə o əlavə edib.

İqtisadçı vurğulayıb ki, bilavasitə dövlət başçısının rəhbərliyi ilə müxtəlif forum, beynəlxalq tədbirlər çərçivəsində bərpaolunan enerji, nəqliyyat infrastrukturu, turizm, kənd təsərrüfatı, su idarəçiliyi kimi iqtisadiyyatın müxtəlif sahələrinə xarici investisiyaların cəlb olunması üzrə əcnəbi investorlarla birbaşa əməkdaşlıq platformalarının təşviqi və iqtisadi modernləşmə kursunun ardıcıl davam etdirilməsi investisiya məsələlərinin dövlət siyasətinin prioritet istiqaməti olaraq gündəmdə saxlanmasına xidmət göstərir: "Bunun nəticəsidir ki, son illərdə dünyanın üç aparıcı beynəlxalq reytinq agentliyindən ikisi - "Fitch Ratings" və "Moody's Ratings" tərəfindən Azərbaycanın investisiya mövqeyi yüksəldilib, hətta xarici investisiya cəlb edən ölkədən xarici ölkələrin enerji aktivlərinə investisiya qoyan ölkəyə çevrilib. Bütün bunlar işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasını da əhatə edən yeni inkişaf mərhələsində ölkənin iqtisadi potensialından faydalanmaq və biznes imkanlarını yaxşılaşdırmaqla, nəticə etibarilə maliyyə sabitliyinə, ərzaq və enerji təhlükəsizliyinin davamlılığına, həmçinin yoxsulluq və işsizlik kimi sosial rifah məsələlərinin nəzarətdə saxlanmasına, beləliklə, müstəqil iqtisadi kursun uğur qazanmasına mühüm töhfə verir".

Beləliklə, Azərbaycanda investisiya mühiti həyata keçirilən islahatlar və iqtisadi sabitlik fonunda son illərdə daha da cəlbedici xarakter daşıyır. Bununla belə, dayanıqlı və sağlam biznes mühitinin daha da inkişafı üçün ardıcıl tədbirlər davam edir. Bu tendensiya isə, həmçinin qeyri-neft sektorunun inkişafına təkan verməklə, iqtisadi potensialı yüksəldəcək və Azərbaycanı xarici investorlar üçün daha etibarlı investisiya məkanına çevirəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2026-cı ilin may ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | Əhmədov Əli Cavad oğlu | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 25 (Bakı şəhəri) | Mais Günəşov +99451 277 0025<br>25sayli_sd@meclis.gov.az |
| 2. | Əsgərov Ziyafət Abbas oğlu | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13 (Naxçıvan MR, Şərur rayonu)<br>23 (Naxçıvan MR, Sədərək rayonu) | Günay Orucova +99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | Qasımlı Musa Cəfər oğlu | 08 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13 (Yardımlı rayonu) 27 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | Hüseynov Rafael Baba oğlu | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07 (Hacıqabul rayonu) 21 (Kürdəmir rayonu) | Ceyhun Ağayev +99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | Abbasov Aqil Məhəmməd oğlu | 05, 06 (Füzuli rayonu)<br>16, 17 (Ağcabədi rayonu) | Fərhad Əliyev +99451 230 3237<br>85sayli_sd@meclis.gov.az |
| 6. | Ağamalı Günay Fəzail qızı | 02 (Salyan rayonu)<br>09 (Biləsuvar və Neftçala rayonları) | Emin Xudiyev +99450 451 2676<br>65sayli_sd@meclis.gov.az |
| 7. | Ağayeva Ülviyyə Cavanşir qızı | 06, 24 (Tovuz rayonu)<br>07, 25 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | Ağazadə Əminə Həmid qızı | 16, 23 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | Akimova Elnarə Seydulla qızı | 14, 26 (Sumqayıt şəhəri) | Soltanov İltifat +99470 860 8644<br>46sayli_sd@meclis.gov.az |
| 10. | Alıyev Sahib Eyvaz oğlu | 04, 25 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99451 277 3003<br>93sayli_sd@meclis.gov.az |
| 11. | Allahverənov Azər Kərim oğlu | 13, 20 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | Aran Səyyad Adil oğlu | 16 (İmişli rayonu) 23 (Saatlı rayonu) | Pərvin Mahmudov +99450 255 1388<br>Ağa Abışov +99450 775 7477<br>82sayli_sd@meclis.gov.az |
| 13. | Arpadarai Nigar Cavid qızı | 06, 20 (Bakı şəhəri) | Nuru Əliyev +99450 341 7126<br>7sayli_sd@meclis.gov.az |
| 14. | Aslanov Novruzəli Davud oğlu | 07, 14, 21 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 15. | Badamov Azər Camal oğlu | 09, 23 (Qusar rayonu) | General Sadulov +99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 16. | Bayramov Kamran Fərhad oğlu | 16 (Göygöl rayonu)<br>23 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 17. | Bayramov Vüqar İbad oğlu | 14, 27 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 18. | Bədəlov Bədəl Şamil oğlu | 16 (Goranboy rayonu)<br>30 (Naftalan şəhəri) | Gündüz Hacıyev +99450 364 9426<br>96sayli_sd@meclis.gov.az |
| 19. | Bülbüloğlu Polad | 06, 25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Aydan Hüseynova +99450 777 6725<br>124sayli_sd@meclis.gov.az |
| 20. | Cəfərov Kamal Xaqani oğlu | 02, 13 (Sabirabad rayonu) | Nazim Çələbiyev +99451 277 6000<br>68sayli_sd@meclis.gov.az |
| 21. | Cəfərov Müşfiq Cəfər oğlu | 09 (Gəncə şəhəri)<br>23 (Samux rayonu) | Sahib Əmiraslanov +99450 627 9252<br>41sayli_sd@meclis.gov.az |
| 22. | Cəfərova Tamam Şaməmməd qızı | 07, 14 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090 Nigar Aslanova +99450 5963438<br>88sayli_sd@meclis.gov.az |
| 23. | Əfəndiyev Məzahir Cavid oğlu | 07 (Göyçay rayonu)<br>21 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 24. | Əfəndiyeva Günay Elçin qızı | 08, 20 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99450 379 0095<br>14sayli_sd@meclis.gov.az |
| 25. | Ələkbərov Əziz Yusif oğlu | 16, 30 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 26. | Əliyev Bəxtiyar Həmzə oğlu | 07, 21 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 27. | Əliyeva Jalə Fazil qızı | 06 (Kürdəmir rayonu)<br>07 (Zərdab rayonu) | Firdovsi Eyvazov +99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 28. | Əli-zadə Arzuxan Baxşəli oğlu | 09, 23 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Mövsüm Həsənli +99451 277 0067<br>27sayli_sd@meclis.gov.az |
| 29. | Əmiraslanov Azər Kamal oğlu | 15 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>06, 21 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 30. | Əmiraslanov Əhliman Tapdıq oğlu | 20 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>23, 30 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 31. | Əsədov Heydər Xanış oğlu | 20, 27 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888<br>51sayli_sd@meclis.gov.az |
| 32. | Əsgərov Asif Yunis oğlu | 01, 18 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 33. | Feyziyev Cavanşir Əyyub oğlu | 09, 23 (Şəki şəhəri) | Turan Salamov +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 34. | Fətəliyeva Sevinc Həbib qızı | 06, 25 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 35. | Fətiyev Xanlar Nuru oğlu | 08, 22 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 36. | Gəncəliyev Tural Babaşah oğlu | 06, 19 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 37. | Hacıyev Sabir Kamal oğlu | 07, 27 (Göyçay rayonu) | Orxan Rzayev +99410 110 0159<br>91sayli_sd@meclis.gov.az |
| 38. | Həmzəyev Naqif Ələşrəf oğlu | 11, 27 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 39. | Həmzəyeva Ülviyyə Tapdıq qızı | 07, 21 (Naxçıvan MR, Babək rayonu) | Araz Xudiyev +99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 40. | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 17, 24 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |
| 41. | Həsənov Malik Əvəz oğlu | 16, 23 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116<br>71sayli_sd@meclis.gov.az |
| 42. | Həsənov Nurlan Urfan oğlu | 09, 16 (Şəmkir rayonu) | Anar Quliyev +99499 299 5599<br>103sayli_sd@meclis.gov.az |
| 43. | Həsənova Afət Əbil qızı | 13, 20 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 44. | Hüseynli Əli Məhəmməd oğlu | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>16, 30 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 45. | Hüseynov Aydın Nəsir oğlu | 05, 12 (Bakı şəhəri) | Vüsal Yusifov +99450 255 1337 / +99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 46. | Hüseynova Hicran Kamran qızı | 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>06, 20 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 47. | Hüseynova Sevinc Əmirəhməd qızı | 02, 30 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 277 0749<br>104sayli_sd@meclis.gov.az |
| 48. | Xasayeva Səbinə Səməd qızı | 06, 14 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134<br>11sayli_sd@meclis.gov.az |
| 49. | İbrahimqızı Məlahət İbrahim qızı | 07, 21 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 50. | İbrahimli Fəzail Feyruz oğlu | 12, 23 (Masallı rayonu) | Faiq Ağayev +99450 201 5670/ +99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 51. | İbrahimov Eldar Rza oğlu | 20 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>23, 30 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306<br>4sayli_sd@meclis.gov.az |
| 52. | İsgəndərov Anar Camal oğlu | 21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>09, 23 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 53. | İskəndərov Vüqar Yapon oğlu | 02, 16 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 54. | İsmayılov İmamverdi İbiş oğlu | 04, 11 (Bakı şəhəri) | Məlahət Əzizova +99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 55. | İsmayılov Şahin Əmir oğlu | 26 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>09, 30 (Beyləqan rayonu) | Çingiz Səfərov +99450 277 9536<br>83sayli_sd@meclis.gov.az |
| 56. | İsmayılzadə Fariz Akif oğlu | 16, 21 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7882<br>77sayli_sd@meclis.gov.az |
| 57. | Kərimli Azər Şəmşid oğlu | 02, 16 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363<br>111sayli_sd@meclis.gov.az |
| 58. | Kərimzadə Pərvin Orxan qızı | 07, 23 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 277 0368<br>39sayli_sd@meclis.gov.az |
| 59. | Qafarov Kamaləddin Nəsrəddin oğlu | 13, 20 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 60. | Qafarov Vasif Vaqif oğlu | 02, 23 (Lerik rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 61. | Qasımlı Mircəlil Xəqani oğlu | 26 (Bakı şəhəri) 28 (Zərdab rayonu) 30 (Ağsu rayonu) | Anar Əliyev +99450 355 9484<br>123sayli_sd@meclis.gov.az |
| 62. | Qədirli Erkin Toğrul oğlu | 04, 18 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 63. | Qəhrəmanov Göydəniz İbrahim oğlu | 07, 21 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 64. | Quliyev Azay Əjdər oğlu | 06, 20 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 65. | Quliyev Eldar Allahyar oğlu | 17, 31 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899<br>28sayli_sd@meclis.gov.az |
| 66. | Quliyev Musa İsa oğlu | 14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>16, 30 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 67. | Quliyev Ülvi Zahid oğlu | 06, 20 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156<br>15sayli_sd@meclis.gov.az |
| 68. | Qurbanlı Mübariz Qəhrəman oğlu | 14 (Bakı şəhəri)<br>21 (Samux rayonu) | Elnur Tağıyev +99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 69. | Qurbanov Eyvaz Daşdəmir oğlu | 04, 21 (Oğuz şəhəri) | Səxavət Kərəmov +99470 510 6968<br>117sayli_sd@meclis.gov.az |
| 70. | Qurbanov Sadiq Haqverdi oğlu | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 23 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 71. | Mahmudov Rəşad Məmmədqulu oğlu | 16, 30 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770<br>79sayli_sd@meclis.gov.az |
| 72. | Məhəməliyev Nəsib Məhəmməd oğlu | 02, 23 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 73. | Məhərrəmov Bəhruz Abdurrəhman oğlu | 23, 31 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99450 277 0436<br>69sayli_sd@meclis.gov.az |
| 74. | Məhərrəmzadə Əlibala Səttar oğlu | 09, 30 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 75. | Məmmədli Müşfiq Fazil oğlu | 02 (Xızı rayonu)<br>23 (Siyəzən rayonu) | Nəsimi Əliyev +99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 76. | Məmmədov Anar İlyaz oğlu | 09, 10 (Tərtər rayonu)<br>23 (Goranboy rayonu) 24 (Bərdə rayonu) | Elçin Cahangirov +99450 324 2791<br>97sayli_sd@meclis.gov.az anarmammadov@meclis.gov.az |
| 77. | Məmmədov Ceyhun Valeh oğlu | 07, 16 (Cəbrayıl rayonu) | Rəşad Quliyev +99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 78. | Məmmədov Elman Camal oğlu | 05, 12 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 79. | Məmmədov Hikmət Baba oğlu | 06, 20 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov İlham Kazım oğlu | 16, 30 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 81. | Məmmədov Qaya Məmməd oğlu | 06, 20 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102<br>31sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədov Məşhur Şahbaz oğlu | 02, 16 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 83. | Məmmədov Soltan Teymur oğlu | 16, 23 (Bakı şəhəri) | Xətai Salmanov +99450 255 1446<br>12sayli_sd@meclis.gov.az |
| 84. | Məmmədova Nigar Fikrət qızı | 01, 13 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99451 277 0014<br>48sayli_sd@meclis.gov.az |
| 85. | Məsimli Əli Əhməd oğlu | 25 (Qax rayonu)<br>26 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 86. | Mikayılova Sevil Əlirazı qızı | 11, 18 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 87. | Mirkişili Tahir Famil oğlu | 13, 25 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211<br>43sayli_sd@meclis.gov.az |
| 88. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 16, 23 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 89. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 08, 22 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 90. | Mollazadə Asim Nazim oğlu | 06, 20 (Bakı şəhəri) | Samir Quliyev +99455 223 7272<br>22sayli_sd@meclis.gov.az |
| 91. | Möhbalıyev Səttar Suliddin oğlu | 06, 18 (Naxçıvan MR, Babək rayonu) | Rizvan Hüseynquliyev +99470 744 2537 / +99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 92. | Muradov Rövşən Şahbaz oğlu | 06, 20 (Bakı şəhəri) | Rauf Nəcəfli +994 55 508 6055<br>124sayli_sd@meclis.gov.az |
| 93. | Musabəyov Rasim Nəsrəddin oğlu | 05, 19 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 94. | Musayev Elşad Nəbi oğlu | 16, 23 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 774 9919<br>10sayli_sd@meclis.gov.az |
| 95. | Musayev Elşən Məmmədhənifə oğlu | 09, 21 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 96. | Mustafa Fazil Qəzənfər oğlu | 22 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 11, 18 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 97. | Nağıyev Arzu Nəsib oğlu | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>09 (Tovuz rayonu) 23 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 98. | Namazov Ramid Zakir oğlu | 04, 25 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986<br>50sayli_sd@meclis.gov.az |
| 99. | Nəbiyev Rizvan Novruz oğlu | 13, 29 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868<br>49sayli_sd@meclis.gov.az |
| 100. | Nəsirov Elman Xudam oğlu | 13, 25 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425<br>72sayli_sd@meclis.gov.az |
| 101. | Novruzov Siyavuş Dünyamalı oğlu | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 23 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |
| 102. | Nurullayev Razi Qulaməli oğlu | 07, 21 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 103. | Nurullayeva Könül Oruc qızı | 07, 21 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 / +99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 104. | Oruc Zahid Məhərrəm oğlu | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 22 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 105. | Paşayeva Gülşən Məmmədəli qızı | 14, 23 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607<br>13sayli_sd@meclis.gov.az |
| 106. | Paşazadə Cavanşir Hümmət oğlu | 09, 17 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 107. | Rafailov Anatoliy Xaimoviç | 16, 30 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 / +99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 15 (Naxçıvan MR, Ordubad rayonu)<br>25 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 07, 27 (Neftçala rayonu) | Fərman Hüseynov +99450 339 7415<br>70sayli_sd@meclis.gov.az |
| 110. | Rzayev Tahir Musa oğlu | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 14, 27, 28 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | Salmanova Səbinə Qədir qızı | 06, 27 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 112. | Seyidov Səməd İsmayıl oğlu | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 05, 25, 26 (Qazax rayonu) | Qədir Mehtixanlı +99470 502 3932 / +99455 678 4859<br>109sayli_sd@meclis.gov.az |
| 113. | Seyidzadə Şahin Kamil oğlu | 07 (Qobustan rayonu)<br>21 (Şamaxı və İsmayıllı rayonları) | Elman Mikayılov +99450 600 25 50<br>87sayli_sd@meclis.gov.az |
| 114. | Səfərov Nizami Abdulla oğlu | 10, 25 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767<br>106sayli_sd@meclis.gov.az |
| 115. | Səmədzadə Ziyad Əliabbas oğlu | 07, 21 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 116. | Süleymanlı Mahir Tahir oğlu | 14, 23 (Şabran rayonu) | Orxan Süleymanov +99455 319 1717<br>56sayli_sd@meclis.gov.az |
| 117. | Şükürov Zaur Ramiz oğlu | 18 (Abşeron rayonu)<br>25 (Sumqayıt şəhəri) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 118. | Vəliyev Ağalar İsrəfil oğlu | 07, 21 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111<br>57sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Samir Əhməd oğlu | 06, 15 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyeva Mehriban Hidayət qızı | 06, 22 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434<br>44sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Pərvanə Bulut qızı | 07, 25 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 122. | Yıldırım Fatma Vidadi qızı | 07, 16 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 123. | Zabelin Mixail Yuryeviç | 16, 30 (Bakı şəhəri) | Səfi Qasımov +99455 941 9898<br>34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.





Ədəbiyyat





**Görkəmli yazıçı, tanınmış ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Mir Cəlal Paşayev çoxumuzun müəllimi olub. Amma onun müəllimliyi yalnız universitet auditoriyalarında dərs dediyi tələbələrlə məhdudlaşmırdı. O, eyni zamanda əsərləri vasitəsilə milyonların düşüncə tərzinə təsir edən bir həyat müəllimi idi. Onun qələmindən çıxan hər əsər insanın mənəvi paklığına, ictimai davranış mədəniyyətinə, cəmiyyət üçün faydalı və məsuliyyətli şəxsiyyət kimi formalaşmasına xidmət edirdi.**



# Sözün gücü ilə insanlığa xidmət göstərən ədib

Yazıçı dövrün sosial-mənəvi problemlərini incə bədii vasitələrlə üzə çıxarıb oxucunun diqqətinə çatdırır, həll yolları üzərində düşünməyə sövq edirdi. Bu cür dərin və çoxşaxəli yaradıcılığın arxasında isə zəngin həyat təcrübəsi dururdu. Mir Cəlal Paşayev həm alim, həm də yazıçı kimi formalaşmaq üçün gərəkli olan bütün mərhələlərdən keçmişdi və ədəbiyyat tarixində zirvəyə yüksəlmişdi.

## Zamanın axarında

Mir Cəlalın yeniyetməlik və gənclik illəri tarixin ən təlatümlü mərhələlərindən keçmişdi. Cəmiyyət köklü dəyişikliklər yaşayırdı, yeni ictimai-siyasi reallıqlar formalaşırdı. Bu dəyişikliklər onun taleyində də mühüm rol oynayırdı. Gəncə Türk Pedaqoji Texnikumunu başa vurduqdan sonra Mir Cəlal Paşayev üçün həyatın yeni mərhələsi başlandı. O, müəllim kimi ilk dərslərini keçdi, əvvəlcə Gəncə şəhərində çalışan gənc pedaqoq daha sonra Gədəbəy rayonundakı yeddiillik məktəbə rəhbər vəzifəyə göndərildi. Qısa müddət ərzində qazandığı təcrübə və etimad nəticəsində 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbinin direktoru təyin olundu. Bu illərdə o, təkcə müəllim kimi deyil, ədəbi mühitdə ilk qələm təcrübələri görünən gənc yazıçı və tərcüməçi kimi də diqqət çəkməyə başlamışdı.

Mir Cəlalın qələmindən çıxan yazılar və tərcümələr dövri mətbuatda mütəmadi dərc olunurdu. 1926-1930-cu illər ərzində "Yeni fikir" qəzeti, "Qızıl Gəncə", "İlk addımlar", "Hücum" kimi nəşrlərdə onun həm tərcümə etdiyi şeirlər və hekayələr, həm də ilk bədii nümunələri oxuculara təqdim edilirdi.

Müəllim kimi fəaliyyəti dərinləşdikcə təhsilin insan və cəmiyyət üçün həlledici rolunu daha aydın dərk edən Mir Cəlal Paşayev 1930-cu ildə Kazan Şərq Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsinə qəbul olunur. İki il sonra institutu uğurla bitirərək 1932-1935-ci illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasında oxuyur. Bu dövrdə o, həm də "Kommunist" qəzetində şöbə müdiri, "Gənc işçi" qəzetində isə məsul katib kimi çalışaraq jurnalistika sahəsində də təcrübəsini genişləndirirdi.

Elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, Mir Cəlal bədii yaradıcılığa da ara vermirdi. Qəzet və jurnallarda mütəmadi olaraq bədii-publisistik yazıları dərc olunurdu. 1932-ci ildə ədibin "Sağlam yollarda" adlı oçerklər kitabı çapdan çıxır. 1933-cü ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında İctimai elmlər bölməsində kiçik elmi işçi kimi fəaliyyətə başlayır, eyni zamanda EA-nın Ədəbiyyat İnstitutunun yaradılmasında fəallıq göstərir, sonradan isə bu qurumun XX əsr Azərbaycan ədəbiyyatı şöbəsinə rəhbərlik edir.

1936-1941-ci illər ərzində Mir Cəlal Paşayev elmi fəaliyyətini davam etdirməklə yanaşı, həm Azərbaycan Pedaqoji İnstitutunda, həm də Azərbaycan Dövlət Universitetində mühazirələr oxuyur. 1940-cı ildə o, "Füzulinin poetik xüsusiyyətləri" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək filologiya elmləri namizədi dərəcəsi alır. Filologiya elmləri doktoru Vaqif Yusifli yazır ki, füzulişünaslıqda yeni mərhələ 1939-1940-cı illərdən başlayır, böyük şair haqqında, onun yaradıcılığı barədə məqalələri ilk elmi monoqrafiyalar əvəz edir: "Burada Həmid Araslının "Füzuli" və Mir Cəlalın "Füzulinin poetik xüsusiyyətləri" (sonrakı təkmilləşdirilmiş adı "Füzuli sənətkarlığı") kitablarının adlarını çəkə bilərik. Deməli, bu iki alim Azərbaycan füzulişünaslığında yeni bir mərhələnin əsasını qoymuşdur".

Mir Cəlal füzulişünaslıqda ilk dəfə olaraq dahi şairin yaradıcılığını müəyyən mövzular üzrə qruplaşdırır və o, sanki gələcək tədqiqatçılar üçün sistemli bir kompozisiya yaradır. Müəllif bu tədqiqatla Füzulini sadəcə bir orta əsr şairi kimi deyil, dünya səviyyəli mütəfəkkir kimi elmi dövriyyəyə daxil edir. Alim Füzulini "qəm şairi" olmaqla yanaşı, həm də insan mənəviyyatının ən incə məqamlarını tərənnüm edən böyük humanist sənətkar kumi təqdim edir. Əsərdə şairin qəzəllərinin strukturu, rədif və qafiyə sisteminin mükəmməlliyi, eləcə də Azərbaycan dilinin inkişafındakı rolu geniş şəkildə araşdırılır. Tədqiqatçı Füzuli poeziyasına Şərq ədəbiyyatı kontekstində yanaşaraq onun özünəməxsusluğunu və digər klassiklərdən fərqlənən cəhətlərini üzə çıxarır. Mir Cəlal bu əsərində onu da sübut edir ki, Füzuli ərəb və fars sözlərindən istifadə etsə də, şeirinin ruhu, ifadə tərzi və sintaksisi doğma Azərbaycan dili üzərində qurulub.

## Həyatdan doğan əsərlər

Mir Cəlal Paşayevin bədii yaradıcılığının ən məhsuldar, dinamik dövrü 1935-1939-cu illəri əhatə edir. Onun "Boy" novellalar silsiləsi, "Bostan oğrusu" hekayələr toplusu, "Gözün aydın" adlı hekayə və oçerkləri, həmçinin "Dirilən adam" romanı geniş tirajlarla nəşr olunaraq böyük oxucu marağı ilə qarşılanır. Bu əsərlər sayəsində Mir Cəlal artıq təkcə ədəbi çevrələrdə deyil, bütün ölkə miqyasında yetkin və sevilən bir yazıçı kimi qəbul edilir.

İkinci Dünya müharibəsi illəri isə onun yaradıcılığında xüsusi bir istiqamət formalaşdırır. Onun nəsrində yeni bir keyfiyyət - publisistik çalarlar diqqəti cəlb edir. 1941-ci ilin dekabrında bir qrup Azərbaycan yazıçı və şairi ilə birlikdə o, Novorossiysk cəbhəsində olur. 1942-ci ildə Uzaq Şərqdəki döyüşçülərlə mütəmadi görüşlər keçirir, onların həyatı haqqında bol təəssüratlar toplayır. Bu təəssüratlar ədibin əsərlərində öz əksini tapır. 1941-ci ildə nəşr olunan "Xalqın ürək sözü", 1942-ci ildə çapdan çıxan "Vətən hekayələri", "İlyas", "İsrafil", 1943-cü ildə işıq üzü görmüş "Vətən yaraları" və 1944-cü ildə nəşr edilən "Vətən" kitablarında, eləcə də dövrün mətbuatında yayımlanan hekayələrində xalqın həm ön cəbhədə, həm də arxa cəbhədə faşizmə qarşı apardığı mübarizə təsirli şəkildə təsvir olunurdu. Ədibin müharibə illərində yazdığı "Həzi Aslanov" adlı silsilə oçerklər janrına görə oçerk sayılsa da, yazıçı Həzi Aslanovun keçdiyi şanlı həyat və mübarizə yolunu bədii lövhələrlə elə təqdim edir ki, bunların hekayə, yaxud oçerk olduğunun fərqinə varmırsan.

Müharibə mövzusu sonrakı illərdə də Mir Cəlal yaradıcılığının aparıcı xətti kimi davam etmişdi. Zaman keçdikcə bu mövzu yeni məzmun və çalarlar qazanırdı. 1945-ci ildə işıq üzü görmüş "Od içindən çıxanlar" hekayələr toplusu cəbhədən qayıdan insanların sülh şəraitində quruculuq arzularını və onların yeni həyata uyğunlaşması prosesini əks etdirirdi. Sonrakı illərdə qələmə aldığı "Çin qızı" (1950), "Sülh istəyənlərə" (1951), "Badam ağacları" (1953), "Ərəb qızı" (1962) kimi əsərlərdə isə yazıçı insanlığın ən böyük arzusunu - sabitlik, əmin-amanlıq, humanizm və dinc həyat ideyasını bədii şəkildə dilə gətirirdi.

Mir Cəlal Paşayev yaradıcılığı yalnız hekayə janrı ilə məhdudlaşmır, o, Azərbaycan ədəbiyyatında roman məktəbinin ən parlaq nümayəndələrindən biri kimi qəbul edilir. Ümumiyyətlə, dünya ədəbiyyatı tarixində roman yazmaq həmişə böyük yaradıcılıq cəsarəti tələb edən addım kimi qiymətləndirilir. Bu mənada, Mir Cəlal Paşayev öz qətiyyəti və geniş yaradıcı təfəkkürü ilə milli ədəbiyyatımıza bir-birindən dəyərli əsərlər bəxş edir və onun ədəbi irsində roman janrı xüsusi çəkisi ilə seçilir. O, Azərbaycan sovet romanının yaradıcılarından biridir. Mir Cəlal həm də mükəmməl xarakterlər ustası idi. Onun ustalığı xüsusilə romanlarında daha güclü şəkildə əks olunur.

Yazıçının bu janrda ilk mühüm addımı 1934-1935-ci illərdə qələmə aldığı "Dirilən adam" əsəridir. Əsər XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələri, xalq azadlıq hərəkatını və o dövrün məişətini realist boyalarla əks etdirir. Romanda Qədirin başına gələn faciə bütöv məmləkətdə hökm sürən acınacaqlı vəziyyəti göstərir. Öz haqqını tələb etmək məqsədilə şəhər və kəndləri dolaşan Qədirə deyirlər ki, "sən ölmüsən. Özünün də dirilməyin məqsədəuyğun deyildir". Çünki varlı və sözükeçən adamlara onun diriliyi yox, məhz ölülüyü lazımdır. Nəticədə Qədir diriliyini sübut edə bilmir. Bunun ardınca gələn "Bir gəncin manifesti" (1939), "Açıq kitab" (1941-1944), "Yaşıdlarım" (1946-1952), "Təzə şəhər" (1948-1950), "Yolumuz hayanadır?" (1952-1957) romanları müəllifə böyük oxucu sevgisi qazandırır.

"Bir gəncin manifesti" romanında yazıçı mübarizə ruhunun, insanlıq ideallarının və vətən sevgisinin ən saf şəkildə təcəssümünü göstərmişdir. Bu əsər hansı mövzuda yazılmasından, hansı idealları təbliğ etməsindən asılı olmayaraq, neçə-neçə nəslin mənəvi tərbiyəsində mühüm rol oynamışdır.

Mir Cəlalın "Yolumuz hayanadır?" romanı böyük şairimiz Mirzə Ələkbər Sabirin keşməkeşli ömür yoluna həsr olunmuşdur. Sabir yaradıcılığını böyük məhəbbətlə öz elmi əsərlərində tədqiq hədəfinə çevirən, onu mənəvi ustadı sanan Mir Cəlal romanda şairin mükəmməl bədii obrazını yaratmışdır.

"Yaşıdlarım" romanı isə hərbi vətənpərvərlik mövzusunda qələmə alınmışdır. Romanda üç dövr - müharibədən əvvəlki, müharibə dövrü və müharibədən sonrakı dövrlər təsvir olunmuşdur. Bir sözlə, bu əsərlərdəki geniş epik panoram, canlı obrazlar, zamanın sosial mənzərəsi oxucuların yaddaşında dərin iz buraxır.

## Mir Cəlal elmi məktəbi

Mir Cəlalın yazıçı kimi güclü cəhətlərindən biri onun yüksək elmi hazırlığı idi. Ədəbiyyat nəzəriyyəsinə dərindən bələd olması, ali məktəblərdə tələbələrə bu sahənin incəliklərini öyrətməsi onun bədii yaradıcılığına da birbaşa təsir göstərirdi.

Ayrı-ayrılıqda bədii yaradıcılıq sahəsində, yaxud elmi fəaliyyətdə uğur qazanan şəxsiyyətlər tarix boyu çox olub. Mir Cəlal Paşayev isə bu iki istiqaməti öz həyat və yaradıcılığında birləşdirərək irəli aparan çox nadir simalardan idi. Onun fəaliyyətinə nəzər saldıqda yazıçı və alim tərəflərindən hansının üstün olduğunu müəyyənləşdirmək xeyli çətin gəlir. Çünki Mir Cəlal həm ədəbiyyatımızın bədii xəzinəsini zənginləşdirmiş, həm də tədqiqatları ilə ədəbiyyatşünaslıq elmimizə mühüm töhfələr vermişdir.

Mir Cəlal Paşayevin namizədlik dissertasiyası ilə doktorluq dissertasiyası arasında yeddiillik zaman məsafəsi var. Onun 1947-ci ildə müdafiə etdiyi "Azərbaycanda ədəbi məktəblər" mövzusunda doktorluq dissertasiyası bu gün də aktual elmi mənbə kimi dəyərini qoruyur. Klassik irsimizin yorulmaz araşdırıcısı olan Mir Cəlal Nizami Gəncəvi, Məhəmməd Füzuli, Əbülqasım Nəbati, Mirzə Fətəli Axundzadə, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir kimi dahilərin yaradıcılığını dərindən təhlil etmiş, Azərbaycan ədəbiyyatı tarixinin sistemli şəkildə öyrənilməsində müstəsna xidmətlər göstərmişdir.

Görkəmli yazıçı 1944-1960-cı illərdə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Ədəbiyyat və Dil İnstitutunda sovet ədəbiyyatı şöbəsinə rəhbərlik etmiş, eyni zamanda Azərbaycan Dövlət Universitetində (indi BDU) Azərbaycan ədəbiyyatı kafedrasında dosent kimi fəaliyyət göstərmişdir. 1948-ci ildə professor adına layiq görülən alim 1961-ci ildən etibarən həmin universitetdə Azərbaycan Ədəbiyyatı kafedrasına rəhbərlik etmişdir.

Universitet auditoriyalarında o, əsasən, estetikanın nəzəri problemləri və poetika məsələləri üzərində dayanır, ədəbiyyat nəzəriyyəsi üzrə mühazirələri ilə tələbələrə dərin biliklər aşılayırdı. Bununla yanaşı, elmi-pedaqoji kadrların hazırlanmasına xüsusi önəm verir, gənc tədqiqatçıların formalaşmasına yaxından dəstək olurdu. Məhz bu fəaliyyətinin nəticəsi kimi Mir Cəlal Paşayev öz elmi ənənələrini, məktəbini yaradan görkəmli ədəbiyyatşünas kimi tarixdə iz qoymuşdur.

## Əbədiyaşarlıq

Mir Cəlal Paşayev həm bədii, həm də elmi yaradıcılığı ilə daim layiq olduğu dəyəri qazanmış sənətkar idi. Onun ədəbiyyat tariximizdə yeni mərhələ kimi qəbul edilən "Bir gəncin manifesti" əsərinin 1968-ci ildə dövrün ən nüfuzlu mükafatlarından sayılan Respublika Komsomolu mükafatına layiq görülməsi, eləcə də ədibə 1969-cu ildə Əməkdar elm xadimi fəxri adının verilməsi bu qiymətin bariz ifadəsi idi. Ümumilikdə, ədibin elmi-pedaqoji və ədəbi fəaliyyəti müxtəlif orden, medal və fəxri fərmanlarla yüksək səviyyədə təqdir olunmuşdur.

Görkəmli yazıçının yubileyləri də dövlət səviyyəsində qeyd edilmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında onun 90 və 100 illik yubileyləri geniş miqyasda keçirilmiş, bu münasibətlə elmi konfranslar, yubiley tədbirləri təşkil olunmuşdur. 2007-ci il oktyabrın 16-da isə UNESCO baş konfransının 34-cü sessiyasında Mir Cəlal Paşayevin 100 illik yubileyinin beynəlxalq səviyyədə qeyd olunması barədə qərar qəbul edilmişdir. Bakıda "Ədibin evi" muzeyinin, Gəncə və Gədəbəydə xatirə muzeylərinin yaradılması, paytaxt küçələrindən birinə onun adının verilməsi də bu böyük şəxsiyyətə göstərilən ehtiramın ifadəsidir.

1978-ci il sentyabrın 28-də vəfat edən Mir Cəlal Paşayev yalnız zəngin ədəbi və elmi irsi ilə deyil, yetirdiyi davamçıları, ailə ocağında tərbiyələndirdiyi dəyərli şəxsiyyətlərlə də əbədiyyət qazandı. Onun əsərlərinin formalaşdırdığı mənəvi mühitdə yetişən oxucuların sayı yüz minlərlədir. İnsan yetişdirmək, cəmiyyət üçün kamil şəxsiyyət formalaşdırmaq ideyası görkəmli yazıçının yaradıcılığının ana xəttini təşkil edirdi. Kiçik hekayələrindən tutmuş irihəcmli romanlarına qədər bütün əsərlərində bu məqsəd açıq şəkildə hiss olunur. İndi onun Azərbaycan ədəbiyyatındakı mövqeyi və oxucu sevgisi göstərir ki, Mir Cəlal Paşayev öz ideyasını - insan tərbiyəsi missiyasını uğurla həyata keçirə bilmiş nadir sənətkarlardandır.

Bu gün Mir Cəlal Paşayevin adı təkcə ədəbiyyat tarixində deyil, insanların düşüncəsində və həyat baxışında yaşayır. Onun yaratdığı əsərlər və formalaşdırdığı mənəvi dəyərlər zamanın sınağından çıxaraq hazırda öz aktuallığını qoruyur. Ən əsası isə Mir Cəlalın irsi bizə bir həqiqəti xatırladır: sözün gücü ilə insanı dəyişmək, cəmiyyəti formalaşdırmaq mümkündür. Məhz buna görə də onun qələmi hələ uzun illər boyu əmin-amanlığa, maarifə və insanlığa xidmət edəcək.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ustad nasir

**Azərbaycan ədəbiyyatı tarixində elə şəxsiyyətlər var ki, onlar təkcə yazdıqları kitablarla deyil, həm də yetişdirdikləri nəsillərlə, qoyub getdikləri mənəvi irslə yaşayırlar. Bu uca zirvələrdən biri, adı çəkiləndə hər kəsin simasında doğma bir təbəssüm yaradan, "müəllimlər müəllimi" professor Mir Cəlal Paşayevdir. Ədibin irsi iki böyük sütun üzərində dayanır: ustad nasirlik və dərin alimlik.**

Yazıçı əsərlərində cəmiyyətin ən alt qatlarında yaşayan, zəhməti ilə çörək qazanan sadə insanların daxili aləmini böyük bir sevgi ilə oxucuya təqdim edir. Mir Cəlal müəllimin yaradıcılığında satira və yumor heç vaxt öldürücü, alçaldıcı olmamışdır. O, insanın qüsuruna gülərkən belə ona bir qapı saxlayırdı - islah olmaq qapısı. Onun gülüşü, əslində, cəmiyyəti mənəvi təmizliyə çağıran bir güzgü idi.

Mir Cəlal müəllimi xatırlayan hər bir tələbəsi onun Bakı Dövlət Universitetinin auditoriyasına daxil olmasını xüsusi bir ehtiramla qeyd edir. O, kürsüyə sadəcə mühazirə oxumaq üçün deyil, bir mənəviyyat dərsi keçmək üçün qalxardı. Onun səsi alçaqdan gəlsə də, auditoriyada hamı nəfəsini dərib onu dinləyərdi. Çünki, o ədəbiyyatı rəqəmlər və tarixlərlə deyil, ruhla, sevgi ilə izah edirdi.

Yazıçının xatirələrdə bu qədər dərin iz qoymasının əsas səbəbi sahib olduğu misilsiz təvazökarlıq idi. Böyük bir alim, onlarla kitabın müəllifi olmasına baxmayaraq, hər kəslə öz dilində danışmağı bacarırdı. Mir Cəlal müəllim üçün insan faktoru hər şeydən uca idi. O, tələbələrinin həm elmi rəhbəri, həm də çətin anlarında pənah apardıqları böyük dostu idi.

"Yaxşı yazıçı olmazdan əvvəl, yaxşı insan olmaq lazımdır" prinsipi onun bütün yaradıcılığının və müəllimlik fəaliyyətinin manifesti idi. Mir Cəlal Paşayevin xatirəsi həm də bir ailə başçısı kimi ucadır. Ədibin "Mənim ən böyük əsərim ailəmdir" kəlamı bu gün də dillər əzbəridir. Bu işıq onun övladlarının, nəvələrinin simasında bu gün də Azərbaycanın dövlətçilik, elm və mədəniyyət tarixində parlaq şəkildə davam edir. Onun qoyduğu tərbiyə və mənəviyyat işığı nəsilləri birləşdirən bir körpüdür.

Mir Cəlal Paşayevin pedoqoji fəaliyyəti onun həm elmi, həm də bədii yaradıcılığı qədər möhtəşəmdir. O sadəcə bir yazıçı deyil, həm də Azərbaycanın ali təhsil sistemində silinməz izlər qoymuş bir alim-pedaqoq olmuşdur.



Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatının nəhəng simalarından biri olmaqla yanaşı, onun yaradıcılıq ruhunun formalaşmasında Gəncə mühiti xüsusi və əvəzedilməz bir rol oynamışdır. O, əslən Cənubi Azərbaycandan olsa da, uşaqlıq və gənclik illərinin ən mühüm dövrü məhz bu qədim şəhərlə bağlıdır. Ədibin şəxsiyyət və ziyalı kimi yetişməsində Gəncənin akademik və mədəni ab-havası təməl daşı olmuşdur. Ədibin "Açıq kitab" və "Dirilən adam" romanlarında Gəncənin 20-30-cu illər mənzərəsi, insanların məişəti, psixologiyası və dövrün ictimai-siyasi ziddiyyətləri ustalıqla təsvir olunub. Qəhrəmanları çox vaxt Gəncə mühitinə xas olan səmimiyyəti, zarafatcıllığı, eyni zamanda mərdliyi daşıyırlar. Yazıçı sonralar Bakıda yaşayıb yaratsa da, Gəncənin ədəbi irsinə (xüsusilə Nizami Gəncəvi) münasibəti elmi səviyyədə davam etmişdir. O, Nizami yaradıcılığının tədqiqində və təbliğində fəal iştirak etmiş, Gəncənin yetişdirdiyi dühalara həmişə böyük ehtiramla yanaşmışdır. Mir Cəlal müəllim üçün Gəncə - Nizami yurdu idi və o, öz yaradıcılığında bu uca irsin mənəvi varisi olmağa çalışırdı.

Mir Cəlal Paşayevin oğlu akademik Arif Paşayev də həmişə xatirələrində atasının Gəncəyə olan bağlılığını belə ifadə edir: "Atam Gəncəni çox sevirdi. Onun üçün bu şəhər təkcə gənclik illərinin xatirəsi deyil, həm də mənəvi saflıq və ilham mənbəyi idi".

Ədib yazdığı "Bir gəncin manifesti" romanında da hər nə qədər Bakıdakı inqilabi proseslərdən və sosial ədalətsizlikdən bəhs etsə də, əsərin ruhunda və personajların xarakterologiyasında Gəncə mühitinin silinməz izlərini əks etdirmişdir. Yazıçı yaratdığı Bahar obrazında da Azərbaycan gəncinin mərdliyi, sözü bütövlüyü və haqsızlığa qarşı barışmazlığını əks etdirmişdir. Bu romanda sübut edir ki, insan harada yaşayırsa yaşasın, onun "manifesti" (yəni həyat amalı) uşaqlıq və gənclik illərində nəfəs aldığı mühit tərəfindən yazılır. "Bir gəncin manifesti" Mir Cəlalın Bakıdakı qələmi ilə Gəncədəki qəlbinin ortaq məhsuludur. Əsərdəki saflıq, əslində, ədibin öz ömrünün manifesti idi.

Bu gün Mir Cəlal müəllim fiziki olaraq aramızda olmasa da, onun ruhu yazdığı əsərlərdə, araşdırdığı Füzuli qəzəllərində və Azərbaycan elmini idarə edən şagirdlərin yaddaşlarında yaşayır. O, Azərbaycan ədəbi-elmi mühitində təkcə böyük yazıçı və alim kimi deyil, həm də əfsanəvi "Mir Cəlal müəllim" kimi qalıb.

Xatirələrin işığında baxanda görürük ki, o sadəcə bir yazıçı və ya alim deyilmiş, Azərbaycanın mənəvi simasını formalaşdıran nadir şəxsiyyətlərdən biri imiş. Unudulmaz Mir Cəlal müəllim hər zaman ehtiramla anılacaq bir insanlıq dərsi qoyub getdi. Onun işığı hələ çox nəsillərin yolunu aydınlaşdıracaq.

*Ellada TAĞIYEVA,*
*Gəncədəki Mir Cəlal Paşayev Ev-Muzeyinin elmi işçisi*

## 26 Aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür

# Əqli mülkiyyət: zənginlik və inkişaf institutu

**2001-ci ildən başlayaraq, ölkəmizdə hər il qeyd edilən Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə Əqli Mülkiyyət Agentliyi tərəfindən "İnnovativ potensial: Əqli Mülkiyyət + Süni İntellekt" mövzusunda "dəyirmi masa" keçirilmişdir.**

**"Dəyirmi masa"da agentliyin idarə heyətinin sədri Kamran İmanov yeni ekosistemin qurulmasında əqli mülkiyyətin rolunu vurğulamış, onun iqtisadiyyat, mədəniyyət, elm, texnologiya və innovasiyaların inkişafına verdiyi töhfələrdən danışmış, habelə müasir dövrdə əqli mülkiyyət institutunun qarşısında duran hədəfləri diqqətə çatdırmışdır.**



Milli əqli mülkiyyət institutunun fəaliyyət istiqamətlərindən irəli gələn vəzifələri təhlil edərək bir neçə mühüm məqama diqqət yetirilməsini vacib sayırıq: əvvəla qeyd etməliyik ki, Azərbaycanın milli əqli mülkiyyət sistemi zəngin tarixə malikdir və unikal idarəetmə strukturu ilə seçilir. Əqli Mülkiyyət Agentliyi 2018-ci ildə Prezident İlham Əliyevin uzaqgörən və müdrik strateji siyasətindən irəli gələn institusional islahatlar çərçivəsində əqli mülkiyyətin daim yeniləşən mahiyyətinə uyğun olaraq şəffaflığı, səmərəliyi və hesabatlığı təmin etmək məqsədilə çevik, daha kompakt və daha məqsədyönlü unikal idarəetmə qurumu kimi təsis edilmişdir. Bununla da əqli mülkiyyətin hər iki qolu (müəllif-hüquq sahəsi və sənaye mülkiyyəti) bir "çətir" altında birləşərək onların bir-birindən faydalanmasına şərait yaradılmışdır.

İkincisi, Azərbaycanda "əqli mülkiyyət yalnız hüquqlar deyil, hüquqlar ilə təmin edilmiş əqli mülkiyyət obyektləridir" prinsipi əsas yanaşma kimi götürülür. Bu xətt artıq beynəlxalq əqli mülkiyyət sistemində də "vətəndaşlıq hüququ" qazanmışdır. Odur ki, sahə üzrə tətbiq olunan informasiya-kommunikasiya texnologiyaları modelləri və strukturu məhz bu yanaşma nəzərə alınmaqla qurulur və inkişaf etdirilir.

Üçüncüsü, Əqli Mülkiyyət Agentliyi yalnız əqli mülkiyyət obyektlərinin qeydiyyatını həyata keçirən, yəni hüquqları rəsmiləşdirən qurum kimi deyil, eyni zamanda əqli mülkiyyətin təsirini ölçən və sosial-mədəni nəticələrini müəyyən edən bir institut kimi fəaliyyət göstərir. Onun strukturu formalaşdırılarkən minimum transaksiya xərcləri əsas götürülür.

Beləliklə, Azərbaycanda əqli mülkiyyətin idarəçilik sistemi digər ölkələrdə, o cümlədən MDB məkanında ən optimal və çevik idarəetmə strukturu kimi qəbul olunur. 2025-ci ilin noyabr ayında Moskvada Rusiya Federasiyasının Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət İdarəçiliyi Akademiyasında keçirilmiş II Beynəlxalq konfransda da Azərbaycanın əqli mülkiyyət sahəsində idarəçilik forması nümunə kimi göstərilib və digər ölkələrin əqli mülkiyyət ofislərinə Azərbaycan təcrübəsindən yararlanmaq tövsiyə olunub. Təsadüfi deyil ki, Azərbaycanın Əqli Mülkiyyət Agentliyinin strukturu və fəaliyyəti dünyanın 204 əqli mülkiyyət təşkilatları siyahısında seçilmiş 15-lərin sırasındadır. Bu mövqe ÜƏMT tərəfindən 2025-ci ildə nəşr olunmuş "Vizioner - gələcəyə baxan innovativ liderlərin Hesabatı"nda öz əksini tapıb.

ÜƏMT-nin hesabatında Cənubi Qafqaz və MDB regionlarından yalnız Azərbaycan nümayəndəsi təmsil olunmuşdur. Hesabatın "Hüquqi amillər" bölməsində Azərbaycan Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanovun əqli mülkiyyətə və informasiya texnologiyalarına dair "Texnologiya və əqli mülkiyyət hüququ daim bir-birini stimullaşdırır, onlar zamanla bir-birinin istiqamətini və inkişafını qarşılıqlı şəkildə formalaşdırır" fikri sitat kimi verilərək, bu yanaşma hüquqi çərçivələrin yeni texnologiyalara uyğunlaşdırılmasının vacibliyini göstərən əsas tezislər sırasında təqdim olunmuşdur. Bunu da xüsusi olaraq vurğulamalıyıq ki, Azərbaycan MDB məkanında əsərlərin könüllü qeydiyyat sisteminin tətbiq edildiyi ilk ölkədir. Şərqi Avropa və MDB dövlətləri arasında folklorun və ənənəvi-mədəni nümunələrin hüquqi qorunması ilə bağlı ilk qanun da Azərbaycanda qəbil edilmişdir.

Ölkəmiz ÜƏMT üzv dövlətlərinin Assambleyalarının 66-cı iclasında Bern İttifaqı İcraiyyə Komitəsinin daimi üzvü seçilmiş 40 ölkə sırasında yer almışdır. Azərbaycan həmçinin 2027-ci ildə keçiriləcək Baş Assambleyanın növbəti sessiyasının bağlanışınadək olan dövr üçün ÜƏMT-nin ən vacib rəhbər orqanlarından olan Koordinasiya Komitəsinə 194 ölkə arasından daimi üzv seçilmiş 83 dövlətdən biridir. Həmin dövrədək Azərbaycan Proqram və Büdcə Komitəsində təmsil olunacaq 53 dövlət sırasında da yer almışdır. ÜƏMT-nin assambleyalarının vəzifəli şəxslərinin seçkilərində isə Azərbaycanın Əqli Mülkiyyət Agentliyinin rəhbəri 118 üzv dövlətin təmsil olunduğu ÜƏMT-nin Müəllif hüquqları Müqaviləsi Assambleyasının sədri seçilib.

Göründüyü kimi, Azərbaycan BMT-nin ən böyük qurumlarından biri olan ÜƏMT-nin 3 böyük komitəsində təmsil olunur və onun ən vacib assambleyasından birinə rəhbərlik edir.

Əqli Mülkiyyət Agentliyi ilbəil müasirləşir və peşəkar qurum olaraq beynəlxalq əqli mülkiyyət ofisləri arasında mövqeyini daha da gücləndirir. Bir neçə ildir ki, həm sənaye mülkiyyəti obyektlərinin (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici) patentləşdirilməsi və qeydiyyatı ilə bağlı iddia sənədlərinin, həm də Əqli mülkiyyət mübahisələri üzrə Apellyasiya Şurasına müraciətlərin qəbulu 24/7 rejimində fəaliyyət göstərən və Elektron Hökumət İnformasiya ssisteminə inteqrasiya olunmuş "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi vasitəsilə həyata keçirilir.

PƏNAH elektron sisteminin köməyi ilə tətbiq edilən "vahid pəncərə" və "istənilən yerdən xidmətə əlçatanlıq" prinsipi açıqlığı, operativliyi və şəffaflığı təmin edir, əqli mülkiyyət sahəsində göstərilən dövlət xidmətlərinin səmərəsini və səviyyəsini əhəmiyyətli dərəcədə artırır. Bu sistem mobil platformalarda da əlçatandır, həmçinin MDB məkanında ilk olaraq ixtira, faydalı model və sənaye nümunələri üzrə iddia sənədlərinin 3D formatda qəbul olunması kimi innovativ funksiyanı dəstəkləyir. Həyata keçirilən rəqəmsallaşma isə yalnız sənaye obyektləri ilə məhdudlaşmır, bu proses həm də müəllif hüquqlarının qorunmasını əhatə edir. MyGov kimi rəqəmsal platformalarla inteqrasiya və SİMA bulud elektron imzasının tətbiqi ilə Əqli Mülkiyyət Agentliyi tərəfindən məlumatların təhlükəsizliyi təmin edilmişdir. Bundan əlavə, 52300-dən çox patentləşdirilən və qeydiyyata alınan sənaye mülkiyyəti obyektlərinə dair məlumatlara əlçatanlığı təmin edən Sənaye Mülkiyyəti Obyektlərinin Reyestri ("Açıq reyestrlər") yaradılmışdır.

İnformasiya ehtiyatlarından istifadəni daha da asanlaşdırmaq məqsədilə agentliyin internet saytına xüsusi müyəssərlik (əlçatanlıq) "menyusu" inteqrasiya olunub. "Menyu" vasitəsilə istifadəçilər müxtəlif vizual və funksional tənzimləmələrdən sərbəst istifadə edə bilirlər. Bu imkan xüsusilə görmə qabiliyyəti zəif olan istifadəçilərin sayta daha rahat çıxış əldə etməsi baxımından əlverişlidir. Belə ki, "menyu" şriftlərin ölçüsünün böyüdülməsini, kontrast rejiminin dəyişdirilməsini, rəng və vizual görünüşün yaxşılaşdırılmasını və mətnlərin oxunaqlığının vizual tənzimlənməsini təmin edir. Bu yeni modul agentliyin daxili resursları hesabına hazırlanıb.

Əqli mülkiyyət sahəsində Azərbaycan MDB məkanında daha bir ilkə də imza atmışdır: Azərbaycanda yaşayan və fəaliyyət göstərən iddiaçılar Avrasiya patentinin alınması üçün iddia sənədlərini Əqli Mülkiyyət Agentliyinin PƏNAH milli elektron sistemi vasitəsilə birbaşa Avrasiya Patent İdarəsinə (APİ) göndərə bilirlər. Yeni yaradılan elektron xidmət vasitəsilə APİ bu il martın 5-də Azərbaycandan milli prioritetə malik ixtiraya dair ilk iddia sənədini qəbul edib.




Agentlik və APİ-nin informasiya sistemləri arasında onlayn əlaqənin yaradılması nəticəsində operatorun nəzarəti altında məlumat və elektron sənədlərin mübadiləsi təmin olunur, iddia sənədlərinin materiallarının ötürülməsinə tələb olunan vaxt minimuma enir və prosesin icrası zamanı yarana biləcək texniki səhvlərin qarşısı dərhal alınır.

Müraciətlərə daha operativ şəkildə baxılması, əqli mülkiyyət sahəsində göstərilən dövlət xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə agentlikdə süni intellekt əsasında məlumatlandırma imkanlarını təqdim edən "süni intellekt bot"un yaradılması üzərində iş aparılır. Tezliklə istifadəyə veriləcək "süni intellekt bot"u əqli mülkiyyət sahəsində sualları cavablandıran "məsləhətçi" rolunda çıxış edəcəkdir.

APİ ilə əməkdaşlıq çərçivəsində, patentləşdirmə proseslərinin avtomatlaşdırılması və intellektual dəstəklənməsi üçün süni intellekt həllərinin hazırlanması işlərinə də başlanılıb. Bu həllər agentliyin daxili informasiya sistemlərinə inteqrasiya nəzərə alınmaqla qurulur.

Agentlikdə yeni rəqəmsal modellərin formalaşdırılması ilə əlaqədar qeyd edilməlidir ki, süni intellekt texnologiyalarına əsaslanan bir sıra xidmətlərdən istifadə etməyə imkan verən vahid platformaya çıxış təmin olunmuşdur. Yeni platforma WIPO Translate xidməti və PROMT sistemi vasitəsilə maşın tərcüməsi, dərc məqsədləri üçün üçölçülü rəqəmsal modellərin (3D-modellərin) çevrilməsi, sənaye nümunələrinin təsvirləri üzrə axtarışın həyata keçirilməsi, sənaye mülkiyyəti hüququ obyektlərinin ümumi reyestrinə çıxış, patent sənədlərinin Beynəlxalq Patent Təsnifatına (BPT) uyğun təsnifləşdirilməsi, milli patentlər haqqında məlumatların Avrasiya əczaçılıq reyestrinə daxil edilməsi və patent sənədlərinin mətni əsasında patent axtarışının aparılması ilə bağlı geniş imkanlar yaradır.

İddiaçılar arasında "yaşıl patent"lərin alınmasına, bu sahədə ixtira və faydalı modellərin yaradılmasına maraq əvvəlki illərlə müqayisədə xeyli artmışdır. "Yaşıl" texnologiyaların ixtira və faydalı model kimi patentləşdirilməsi prosedurları sadələşdirilmiş və sürətləndirilmişdir. Bunun nəticəsidir ki, ötən il "yaşıl patent"lərin alınması ilə bağlı Əqli Mülkiyyət Agentliyinə ixtiraya aid 6 və faydalı modelə aid 2 iddia sənədi daxil olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstəriciyə dair iddia sənədlərinin ekspertizasının müddəti orta hesabla 30-50 faiz azaldılmışdır.

Beynəlxalq reytinqlərdə ölkəmizin əqli mülkiyyət sahəsində göstəriciləri ilbəil yaxşılaşır. 139 ölkənin iqtisadiyyatını əhatə edən və innovasiya fəaliyyətinin potensialı, səmərəliyi və çərçivə şərtlərinə dair təxminən 80 indikator-göstərici əsasında tərtib olunmuş "Qlobal İnnovasiya İndeksi - 2025"-də "mənşəyinə görə patent müraciətləri" indikator-göstəricisi üzrə Azərbaycan 57-ci yeri tutaraq Moldovanı (64-cü yer), Tacikistanı (77-ci yer) və Ermənistanı (79-cu yer) qabaqlamışdır. "Mənşəyinə görə faydalı modellər" və ya "kiçik patentlər" indikator-göstəricisi üzrə isə ölkəmiz 38-ci pillədədir.

Sənaye mülkiyyəti sahəsində göstərilən dövlət xidmətlərinin keyfiyyəti əhəmiyyətli dərəcədə yaxşılaşmışdır və patentlərin alınması ilə bağlı iddia sənədlərinin sayı ilbəil artır. 2025-ci ildə ixtira, faydalı model və sənaye nümunəsinin patentləşdirilməsinə dair agentliyə 481 iddia sənədi, o cümlədən ixtiraya aid 282, faydalı modelə aid 77, sənaye nümunəsinə aid 65 və Avrasiya patentinin alınması üçün 57 iddia sənədi daxil olmuşdur. Patentlərin sayında da əhəmiyyətli artım müşahidə olunur: 2025-ci ildə 214 patent verilmişdir. Beləliklə, 2025-ci ildə ixtira fəallığı 2024-cü illə müqayisədə 37,8 faiz, patent fəallığı isə 15,7 faiz artmışdır. Bundan əlavə, PCT beynəlxalq sistemi vasitəsilə patent alınması üçün ÜƏMT-nin Beynəlxalq Bürosuna ixtiraya və faydalı modelə aid 20 (2024-cü ildə 8) iddia sənədi göndərilmişdir.

İxtira fəallığı 2026-cı ilin birinci rübündə də yüksək olmuşdur: 3 ayda yalnız ixtiralara dair agentliyə 109 iddia sənədi daxil olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə iki dəfə çoxdur. Ümumilikdə isə ixtira, faydalı model və sənaye nümunəsinə dair iddia sənədlərinin sayı 149-dur (PCT və Avrasiya patentlərinin alınması ilə bağlı iddia sənədləri daxil olmaqla). Bu dövrdə patent fəallığı da yüksək olmuşdur: ixtira, faydalı model və sənaye nümunələrinə 53 patent verilmişdir. Halbuki 2025-ci ilin müvafiq dövründə verilən patentlərin sayı 38 olmuşdur.

Keçən il Əmtəə nişanlarının Dövlət reyestrində 3100 nişan qeydiyyata alınmışdır ki, bu da 2024-cü illə müqayisədə 256 ədəd çoxdur. Bu ilin birinci rübündə isə 539 əmtəə nişanı qeydiyyta alınıb (2025-ci ilin müvafiq dövründə 464 nişan qeydiyyatdan keçirilib). Əmtəə nişanlarının qeydiyyatı ilə bağlı cari ilin birnci rübündə PƏNAH elektron sistemi vasitəsilə agentliyə 1012 iddia sənədi (2025-ci ilin müvafiq dövründə 894 iddia sənədi) daxil olub. Ötən il 512 müəllif-hüquq sahibinə məxsus 900 əsər və əlaqəli hüquqların obyekti olan ifa qeydiyyatdan keçirilib. 2026-cı ilin birinci rübündə 115 müəllifə (hüquq sahibinə) məxsus 210 əsər (2025-ci ilin müvafiq dövründə 167 əsər) qeydiyyata alınıb.

Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2026-cı il aprel ayının 1-i tarixinədək agentlik tərəfindən 17300-dən çox əsər və əlaqəli hüquqların obyektləri qeydiyyata alınmışdır ki, bunların 2800-dən çoxu elektron qaydada qeydiyyatdan keçirilib.

Texnologiyaların kommersiyalaşdırılmasına və transferinə xüsusi diqqət yetirilir. Bu istiqamətdə aparılan işlər çərçivəsində kommersiyalaşma potensialı olan 500 ixtira, 173 faydalı model, 130 sənaye nümunəsi və 501 startap layihəsi barədə məlumatlar sistemləşdirilərək agentliyin vahid məlumat bazasına daxil edilib. Sənaye və aidiyyəti dövlət qurumları, tədqiqat mərkəzləri, biznes inkubatorları ilə əməkdaşlığın real nəticələr verməsi məqsədilə altı qurumda görüşlər keçirilib və dəyərləndirilməsi üçün onlara təkliflər verilib, 6 kommersiya yüklü patentlərin pasportları hazırlanıb.

Əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması digər ölkələrdə olduğu kimi, Azərbaycanda da bir sıra hallarda problemlərlə "müşayiət" olunur. Bunun səbəblərindən biri peşəkar kadrlara olan ehtiyacdan irəli gəlir. Bu sahədə boşluqların aradan qaldırılması üçün 2019-cu ildə Bakı Dövlət Universitetində Əqli mülkiyyət hüququ, 2023-cü ildə isə Azərbaycan Memarlıq və İnşaat Universitetində Əqli Mülkiyyət kafedraları yaradılıb. Hər iki kafedranın Əqli Mülkiyyət Agentliyində filialları fəaliyyət göstərir. Bu addımlar ölkədə innovasiya mühitinin gücləndirilməsi, elmi-tədqiqat fəaliyyətinin inkişafı və yaradıcı potensialın qorunmasına dəstək verməklə yanaşı, əqli mülkiyyət sahəsində ixtisaslı kadrların, o cümlədən əqli mülkiyyət üzrə hüquqşünasların hazırlanmasında əhəmiyyətli rol oynayır.

Yeni yaradılan kafedralarda müəllif hüquqları, patent hüququ, əmtəə nişanları və əqli mülkiyyətin digər növlərinə olan hüquqlara dair fənlər tədris olunur. Tədris planına insan hüquqları, antiinhisar hüququ, əlaqəli hüquqlar, dizayn hüququna aid fənlər də daxil edilmişdir.

Əqli mülkiyyət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi agentliyin diqqət yetirdiyi prioritet məsələlər sırasındadır. Bu sahədə həyata keçirilən tədbirlər çərçivəsində iddia sənədlərinin ekspertizasının sürətli və keyfiyyətli aparılmasını, ixtira, faydalı model və sənaye nümunəsi yaradan müəllifin ədalətli qonorar almaq hüququnu təmin etmək məqsədilə Əqli Mülkiyyət Agentliyinin təklifləri əsasında "Patent haqqında" Azərbaycan Respublikasının Qanununa bir sıra fundamental dəyişiklik edilmişdir. Dəyişikliklər əsasında ixtira və patent fəallığının artacağı proqnozlaşdırılır. Patent alınması ilə bağlı iddia sənədlərinin ekspertiza müddəti əhəmiyyətli dərəcədə azalacaq.

Qanuna edilmiş dəyişiklik nəticəsində indiyədək pərakəndə şəkildə tənzimlənən, bir sıra hallarda isə, ümumiyyətlə, tənzimlənməsi böyük problem olan bir məsələnin də həlli təmin olunacaq: xidməti tapşırıq əsasında yaradılan ixtiranın müəllifi patentin alınmasına və onun qüvvədə saxlanılmasına görə patentdən gəlirin əldə edildiyi tarixədək işəgötürənin çəkdiyi xərclər çıxıldıqdan sonra qalan vəsaitin azı 50 faizini qonorar kimi ala biləcək.

İxtira, faydalı model və sənaye nümunəsinə patent almaq istəyən xarici iddiaçılar isə bir sıra prosedurları birbaşa Azərbaycanın Əqli Mülkiyyət Agentliyinə müraciət etməklə həyata keçirə biləcəklər. Halbuki əvvəlllər Azərbaycan patenti almaq istəyən xarici hüquqi və fiziki şəxs iddia sənədlərinin verilməsindən patentin alınmasınadək olan mərhələdə bütün hüquqi hərəkətləri, yazışmaları və digər prosedurları yalnız patent müvəkkilləri vasitəsilə həyata keçirə bilərdi. Bu da əlavə vaxt və vəsait itkisinə səbəb olurdu.

Əqli mülkiyyət sahəsində qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı görülən işlər çərçivəsində "Əqli mülkiyyət hüquqlarının təminatı və piraçılığa qarşı mübarizə haqqında" qanuna dəyişiklik edilməsi barədə agentliyin təklifləri isə aidiyyəti orqanlarla razılaşdırılır. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" qanuna dəyişiklik edilməsi barədə də qanun layihəsi üzərində iş başa çatdırılıb və hazırda bəzi texniki dəqiqləşdirmələr aparılır.

2025-ci ildə və cari ilin ötən dövründə agentlik tərəfindən K.İmanovun müəllifliyi ilə Azərbaycan, ingilis və rus dillərində 30 adda kitab və broşür nəşr olunaraq ixtiraçılar, patent sahibləri, müəlliflər, hüquqşünaslar, tədqiqaçılar, tələbələr və əqli mülkiyyətlə maraqlanan digər şəxslər arasında pulsuz paylanılmışdır. Əqli mülkiyyətə dair yeni kitabların, broşürların və əvvəllər çap olunmuş bir sıra kitabların təkrar nəşri davam etdirilir.

Xüsusi olaraq onu da vurğulamalıyıq ki, Azərbaycanda 26-cı dəfə qeyd edilən Beynəlxalq Əqli Mülkiyyət Gününə həsr edilən tədbirlər mövzularından asılı olmayaraq, həm milli əqli mülkiyyət sisteminin uğurlarının təşviqi, həm də sahənin üzləşdiyi çətinliklər barədə geniş müzakirələrin və maraqlı fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətli platforma rolunu oynayır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***




# ARDNF ilk rübün hesabatını açıqlayıb

## 73,5 milyard dollar aktivlərə malik fondun 3 ayda ümumi gəlirləri 3,2 milyard manat olub

**Cari ilin birinci rübü Dövlət Neft Fondu (ARDNF) üçün həm sabitliyin qorunduğu, həm də qlobal risklərin təsirinin hiss olunduğu dövr kimi yadda qaldı. Qurum tərəfindən açıqlanan rəsmi məlumatlar göstərir ki, fond ilin ilk rübündə gəlir və xərclər arasında balansı qoruya bilib.**

Hesabata əsasən, ARDNF-nin aktivləri 2026-cı ilin əvvəlinə 73,54 milyard, mart ayının sonuna 73,51 milyard dollar (125 milyard manat) olub. Bu dinamika maliyyə bazarlarında baş verən dalğalanmalara baxmayaraq, fondun aktivlərinin ümumilikdə sabit saxlanıldığını göstərir.

Cari ilin yanvar-mart aylarında ARDNF-nin ümumi gəlirləri 3,18 milyard, xərcləri 3,22 milyard manat təşkil edib. Gəlirlərin 1,8 milyard manatı neft-qaz sektorundan formalaşıb. Hesabat dövründə "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağı 1,4 milyard, "Şahdəniz" yatağı 359,6 milyon manat gəlir gətirib. Fondun gəlirlərində ikinci böyük mənbə vəsaitlərin idarə olunmasından əldə olunan qazancdır. Ötən dövr ərzində bu sahədən 1,37 milyard manat gəlir əldə edilib.

Xərclərə gəldikdə, hesabat dövründə fonddan dövlət büdcəsinə 3,21 milyard manat vəsait köçürülüb. Eyni zamanda sosial və insan kapitalına yönəlmiş xərclər də az olmayıb. Xaricdə təhsil proqramları və ali təhsilin rəqabətliyinin artırılması layihələrinə ümumilikdə 7,1 milyon manat vəsait ayrılıb. İdarəetmə xərcləri isə cəmi 6,4 milyon manat olmaqla ümumi büdcə fonunda minimal paya malik olub.



2026-cı ilin ilk rübü qlobal maliyyə bazarları üçün asan keçməyib. Artan geosiyasi gərginliklər, Yaxın Şərqdə baş verən hadisələr və inflyasiya gözləntilərinin güclənməsi investor davranışına ciddi təsir edib, xüsusilə mart ayında istiqraz gəlirlərinin artması qiymətlərə mənfi təsir göstərib. Həmin proseslər ARDNF-nin investisiya portfelində də hiss olunub. Bununla belə, fondun diversifikasiya olunmuş portfeli - özəl səhmlər, daşınmaz əmlak və infrastruktur investisiyaları ümumi gəlirliyin qorunmasına kömək edib. Ümumiyyətlə, ARDNF-nin bu ilin ilk rübü üzrə nəticələri göstərir ki, fond qısa müddətli bazar dalğalanmalarına baxmayaraq, maliyyə sabitliyini qoruyub. Bunu gəlir və xərclərin balanslaşdırılması, aktivlərin sabit qalması və investisiya portfelinin çevikliyi də təsdiqləyir.

*Rüstəm KAMAL, "Azərbaycan"*

# "Şəfəq"in ilk günəş panelləri quraşdırılıb

## Bununla stansiyanın tikintisi növbəti mərhələyə qədəm qoyub



**Cəbrayıl rayonunda inşa edilən "Şəfəq" Çünəş Elektrik Stansiyasında günəş panellərinin quraşdırılmasına başlanmaqla layihə növbəti mərhələyə qədəm qoyub. Bu barədə layihənin investorları olan BP, SOCAR Green, Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) və MVM məlumat verib.**

İlk günəş paneli cari ayın əvvəlində quraşdırılıb və bu da göstərir ki, layihə üzrə tikinti işləri plana uyğun irəliləyir. BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üçün maliyyə məsələləri üzrə vitse-prezidenti Nadir İmanov bununla bağlı deyib: "Layihə üzrə aparılan tikinti işlərində bu mühüm mərhələnin başlanmasından çox məmnunuq. Tərəfdaşlarımızla birlikdə əsas diqqətimizi layihənin təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsinə yönəltməklə tikinti işlərini əminliklə irəli aparırıq. İnanırıq ki, bu mühüm layihə bərpaolunan elektrik enerjisinin istehsalı sahəsini və regiondakı əməliyyatlarımızın karbonsuzlaşdırılmasını dəstəkləməklə Azərbaycanın enerji keçidi səylərinə töhfə verəcək".

Xatırladaq ki, keçən ilin iyun ayında təsdiqlənmiş 200 milyon dollar dəyərində "Şəfəq" layihəsi çərçivəsində işğaldan azad olunmuş Cəbrayıl rayonunda yeni 240 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Stansiyanın təməli 2024-cü ilin noyabrında COP29-un davam etdiyi günlərdə qoyulub. Layihə 2021-ci ilin iyununda Energetika Nazirliyi ilə BP arasında imzalanmış İcra Müqaviləsi əsasında həyata keçirilir.

"Şəfəq" layihəsi Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsi ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, Səngəçal terminalı "AzərEnerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulacaq. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən 220/110 kV-luq elektrik yarımstansiyası inşa edilir.

Gözlənilir ki, "Şəfəq" və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların yarıya qədər azaldılmasına imkan yaradacaq.

Hazırda terminal öz enerji ehtiyacını qarşılamaq üçün yeddi qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə sökülərək və bu da istifadə olunmayan yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan verəcək.

STEL layihəsi də irəliləyir. 2028-ci ilin sonunadək terminalın tam elektrikləşdirilməsini təmin etmək üçün indiyədək layihə üzrə bir neçə əsas müqavilə imzalanıb.

Bunlardan biri Mühəndis-layihələndirmə, təchizat və tikinti (EPC) müqaviləsidir. Təxminən 43 milyon dollar dəyərində olan bu müqavilə "AzərEnerji"yə verilib. Müqavilənin iş həcminə üç əsas fəaliyyət istiqaməti daxildir: yeni yarımstansiyanın tikintisi, yeraltı kabellərin quraşdırılması və hava elektrik ötürücü xətlərinin çəkilməsi və quraşdırılması. Tikinti və quraşdırma müqaviləsinin dəyəri isə 19 milyon dollardır. Bu müqavilə "Azfen" MMC-yə verilib. Müqavilə üzrə iş həcmi transformatorların, sinxron kompensatorların, cərəyan məhdudlaşdırıcı reaktorların və yeni 110 kV-luq açıq paylayıcı qurğunun quraşdırılması da daxil olmaqla, Səngəçal terminalında əsas elektrik infrastruktur işlərini əhatə edir. Müqavilə çərçivəsində terminalda tikinti işləri keçən ilin avqust ayında başlanıb və əsas avadanlıqların quraşdırılması üçün bünövrə işləri daxil olmaqla bir neçə istiqamət üzrə irəliləməkdədir.

7 milyon funt sterlinq dəyərində olan Mühəndis-layihələndirmə və təchizat müqaviləsi SOCAR KBR-ə verilib. Bu şirkət müqavilə üzrə müfəssəl layihələndirmə, avadanlıqların tədarükü və təchizat prosesinin idarə edilməsi xidmətləri göstərir. İş həcminə həmçinin tikinti, istismar sınaqları və əməliyyatlara hazırlıq fəaliyyətlərinin planlaşdırılması üzrə dəstək də daxildir.

"Şəfəq"in tikinti işləri ötən il yekun investisiya qərarının qəbul edildiyi vaxtdan əhəmiyyətli dərəcədə irəliləyib. Fotovoltaik modullar, payalar və struktur komponentləri daxil olmaqla əsas avadanlıqların təchizatı və çatdırılması uğurla tamamlanıb. Payaların və izləyici sistemlərin quraşdırılması üzrə işlərdə də ciddi irəliləyiş əldə olunub və bu avadanlıqların təxminən 30 faizi artıq quraşdırılıb.

Qeyd edək ki, "Şəfəq" layihəsi üzrə SJSL - Shafag (Jebrayil) Solar Limited birgə müəssisəsi yaradılıb. SJSL şirkətindəki iştirak payları belədir: BP 40,01faiz, SOCAR Green 39,99 faiz, ABİF 10 faiz və MVM 10 faiz.

Layihə üzrə aparılan tikinti işlərində yerli resurslardan maksimum istifadə etmək əsas öhdəliklərdən biridir. Burada işlərin pik dövründə 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir. Hazırda layihəyə təxminən 350 nəfər yerli işçi cəlb olunub ki, bunlardan 123-ü işğaldan azad edilmiş ərazilərdə məskunlaşan sakinlərdir.

Bəs stansiya nə vaxt hazır olacaq? Tikinti işlərinin 2027-ci ildə başa çatması planlaşdırılır. Stansiyanın ildə təxminən 500 QVt/saat bərpaolunan enerji istehsal edəcəyi gözlənilir.

*Flora SADIQLI, "Azərbaycan"*

# "Xəzər və Mərkəzi Asiya regionlarında neft ticarəti və logistika" məsələləri Bakıda müzakirə olundu

**Bu günlər enerji dünyasının aparıcı oyunçuları Bakıda toplaşdılar. Məqsəd aydın idi: dəyişən qlobal bazarda Xəzər və Mərkəzi Asiyanın rolunu yenidən müəyyənləşdirmək.**

"Xəzər və Mərkəzi Asiya regionlarında neft ticarəti və logistika" adlanan ikigünlük forum neft ticarəti və logistikanın ən aktual məsələlərini gündəmə gətirərək regionun strateji əhəmiyyətini bir daha ön plana çıxardı. İştirakçılar enerji marşrutlarının şaxələndirilməsi, nəqliyyat infrastrukturunun modernləşdirilməsi və bazar risklərinin idarə olunması kimi mühüm istiqamətlər üzrə fikir mübadiləsi apardılar.

Enerji və nəqliyyat bazarlarının iştirakçıları üçün əlamətdar hadisələrdən biri sayılan forum hazırkı geosiyasi reallıqlar fonunda keçirilib. Orta dəhlizin artan rolu isə ayrıca nəzərə alınıb. Bu marşrut artıq Şərqlə Qərb arasında xam neft, neft və neft-kimya məhsullarının daşınmasında böyük əhəmiyyətə malik əsas xətlərdən birinə çevrilib. Məhz bu səbəbdən tədbir sektorun aparıcı oyunçularını - iri enerji şirkətlərini, nəqliyyat qurumlarını və logistika operatorlarını eyni platformada birləşdirib.

Forumda əsas diqqət dayanıqlı logistika marşrutlarının inkişafına, Xəzər regionunda infrastrukturun genişləndirilməsinə, geosiyasi risklərin idarə olunmasına və vahid ticarət mexanizmlərinin formalaşdırılmasına yönəlib. Gündəlik isə dəyişən qlobal şəraitdə nəqliyyat və infrastruktur, maliyyə və əməliyyat məsələləri, eləcə də yeni ticarət strategiyalarını əhatə edən geniş mövzular spektrini əks etdirib.

Müzakirələrdə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin region üçün strateji əhəmiyyəti xüsusi vurğulanıb. Qeyd olunub ki, bu marşrut üzrə nəqlin genişləndirilməsi üçün əlavə həcmlərin cəlb edilməsi vacibdir. Marşrutun seçimi isə yalnız qiymət fərqləri ilə deyil, həm də çatdırılma müddəti, daşınma və sığorta xərcləri, həmçinin təhlükəsizlik amilləri ilə müəyyənləşib. Bu baxımdan, BTC xəttinin region üçün etibarlı və dəyərli ixrac istiqaməti olaraq mövqeyini qoruduğu bildirilib.

Tədbir çərçivəsində səsləndirilən fikirlərdə yaxın illərdə enerji axınlarının istiqamətində mümkün dəyişikliklərə diqqət çəkilib. Bildirilib ki, Mərkəzi Asiya və Azərbaycanın enerji imkanları tədricən yeni bazarlara, xüsusilə cənub istiqamətinə yönələ bilər. Bu isə artıq indidən müvafiq nəqliyyat dəhlizlərinə və infrastruktura investisiya qoyuluşunu aktuallaşdırır. Bununla yanaşı, enerji qiymətlərinin artmasının bəzi regionlarda istehsalın rəqabət qabiliyyətinə mənfi təsir göstərdiyi, nəticədə investisiya axınlarının daha sərfəli bazarlara yönəldiyi vurğulanıb. Qlobal neft-kimya sənayesinin isə hazırda struktur dəyişikliklər mərhələsindən keçdiyi, xüsusilə Asiya regionunda istehsal güclərinin sürətlə artdığı diqqətə çatdırılıb.

Bütün bunların fonunda forum göstərdi ki, regional neft




ticarəti və logistikası sahəsində peşəkar dialoqun genişləndirilməsi, təcrübə mübadiləsinin dərinləşdirilməsi və yeni işgüzar əlaqələrin qurulması bu günün əsas prioritetlərindəndir.

Tədbir bu sahənin aparıcı nümayəndələrini, o cümlədən Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), "Petronas", "KMG Kashagan" şirkətləri, "Pakistan Dəmir Yolları" və Qara dəniz Terminalının top-menecerlərini bir araya gətirərək, geniş müzakirə mühiti yaradıb. Bu isə mövcud problemlərin dəyərləndirilməsi, çətinliklərin aradan qaldırılması və gələcək əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Müzakirələrin mərkəzində Şərqlə Qərb arasında dayanıqlı logistika marşrutlarının inkişafı, Xəzər regionunda infrastrukturun genişləndirilməsi, geosiyasi risklərin effektiv idarə olunması və vahid ticarət əməkdaşlığı mexanizmlərinin tətbiqi dayanıb. Yaxşı hal odur ki, bu istiqamətlər üzrə aparılan fikir mübadiləsi regionun tranzit potensialının daha səmərəli reallaşdırılmasına və qlobal enerji təchizat zəncirində mövqeyinin möhkəmlənməsinə xidmət edəcək.

Tədbirdə müzakirə olunan məsələlər kifayət qədər geniş və çoxşaxəli olub. Əsas diqqət regionun strateji enerji və nəqliyyat arteriyalarının mövcud vəziyyətinə yönəlib, o cümlədən CPC, BTC, Bakı-Supsa və digər marşrutların ötürmə gücü və real yüklənmə səviyyəsi təhlil edilib. Bununla yanaşı, Orta dəhlizin gələcək inkişaf perspektivləri, xüsusilə Zəngəzur dəhlizinin mümkün açılmasından sonra regionda formalaşa biləcək yeni logistika xəritəsi də diqqət mərkəzində olub.

Müzakirələrdə tranzit müddətinin azaldılması əsas prioritetlərdən biri kimi önə çıxıb. Bu istiqamətdə rəqəmsallaşmanın genişləndirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi və uyğunlaşdırılması, dəmir yolu infrastrukturunun modernləşdirilməsi, eləcə də donanma və vaqon parkının yenilənməsi kimi addımların vacibliyi vurğulanıb. Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi prosesi və onun regionun tranzit imkanlarına verəcəyi töhfə də ətraflı şəkildə nəzərdən keçirilib.

Forum çərçivəsində liman infrastrukturunun hazırkı vəziyyəti və inkişaf perspektivləri də geniş müzakirə olunub. Xəzər və Qara dəniz hövzəsində yerləşən əsas limanların artan yük axınını qarşılamaq üçün hansı imkanlara malik olduğu, eləcə də bu istiqamətdə əlavə investisiya ehtiyacları diqqətə çatdırılıb. Ümumilikdə, regionun artan tranzit potensialına uyğun şəkildə logistika sisteminin çevik və dayanıqlı formada inkişaf etdirilməsinin vacibliyi xüsusi qeyd olunub.

Bununla yanaşı, Mərkəzi Asiyada yeni logistika mərkəzlərinin formalaşması prosesi də diqqətdən kənarda qalmayıb. Xüsusilə region ölkələrinin Çin və Cənubi Asiya bazarları ilə əlaqələrinin genişlənməsi fonunda yeni ticarət marşrutlarının əhəmiyyəti vurğulanıb. Bütün bu amillər fonunda forum bir daha göstərib ki, dəyişən qlobal iqtisadi mühitdə koordinasiyalı yanaşma və regional əməkdaşlıq həlledici rol oynayır.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# Aİ-nin ölkəmizdəki nümayəndəliyinin rəhbəri ilə görüşdə sosial sahədə gələcək əməkdaşlıqdan danışılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç ilə görüş olub.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev son illər ölkəmizdə aparılan sosial islahatları, sosial ödənişlərdəki artımları diqqətə çatdırıb. O, əmək, məşğulluq və sosial müdafiə sahələrində rəqəmsal həllərin tətbiqi, şəffaflıq və əlçatanlığın artırılması istiqamətlərində əldə olunan nailiyyətlər, DOST modelinin üstünlükləri barədə məlumat verib.

İcra olunan aktiv məşğulluq proqramları, əmək qanunvericiliyinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılan mühüm addımlar diqqətə çatdırılıb. Gender bərabərliyinin daha dolğun təminatı məqsədilə əmək qanunvericiliyində edilən son dəyişikliklər, ölkəmizin Bərabər Əməkhaqqı üzrə Beynəlxalq Koalisiyasına üzv qəbul edildiyi qeyd olunub.

Ötən dövrdə sosial müdafiə, tibbi-sosial reabilitasiya, sığorta-pensiya, məşğulluq sahələrində Aİ ilə birgə icra olunan layihələrin əhəmiyyətindən bəhs olunub. Nazirliyin Avropa Təlim Fondu ilə fəal əməkdaşlıq təcrübəsi diqqətə çatdırılıb.

Mariyana Kuyundziç ölkəmizdə aparılan sosial islahatlarla bağlı müsbət rəyini ifadə edib. Bu görüşün əməkdaşlığın davam etdirilməsi, yeni birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi baxımından önəmini qeyd edib.

Görüşdə əmək, məşğulluq və sosial müdafiə sahələrində gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

# "Bolqarıstan-Azərbaycan enerji əməkdaşlığı regional təhlükəsizliyin əsas amilidir"

**Bolqarıstan ilə Azərbaycan arasında enerji əməkdaşlığı təkcə iki ölkə deyil, həm də Balkan regionu və bütövlükdə Şərqi Avropa üçün strateji əhəmiyyətə malikdir.**

Bu barədə AZƏRTAC-ın saytında yayımlanan "Azərbaycan və dünya" proqramının son buraxılışında beynəlxalq münasibətlər üzrə bolqarıstanlı ekspert Stanislav Baçev bildirib.

Onun sözlərinə görə, Azərbaycan neft və qaz da daxil olmaqla, bütün enerji resurslarının etibarlı təchizatçısıdır və Avropaya sabit tədarükün təmin edilməsində mühüm rol oynayır. Öz növbəsində, Bolqarıstan da regionda əsas tranzit və paylama mərkəzi kimi xidmət edə bilər.

"Enerji əməkdaşlığı müxtəlif marşrutlar və təchizat mexanizmləri vasitəsilə, eləcə də hər iki ölkənin şirkətlərinin iştirakı ilə inkişaf etdirilə bilər", - deyə ekspert vurğulayıb. O əlavə edib ki, enerji tərəfdaşlığı regional sabitlik və iqtisadi dayanıqlılıq üçün ən vacib amillərdən birinə çevrilir.

# Xocalıda ekoloji iməcilik keçirilib

**Xocalı rayonunun Dağdağan kəndindəki gölün ətrafında iməcilik təşkil olunub. Ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə keçirilən iməcilikdə Qarabağ Universitetinin tələbələri və Xankəndi şəhərində fəaliyyət göstərən hotellərin əməkdaşları fəal iştirak ediblər.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iməcilik zamanı tələbələr və könüllülər tərəfindən gölün ətrafı tullantılardan təmizlənib.

Aksiyanın əsas məqsədi təbiət qoynunda istirahət zamanı ətraf mühitin çirkləndirilməsi, canlı təbiətə zərər vurulması və meşə yanğınlarının qarşısını almaq üçün maarifləndirmə və ekoloji məsuliyyət hissinin təşviq edilməsi olub. Bu cür ekoloji təşəbbüslər həm də regionda ətraf mühitin mühafizəsinə diqqətin artırılmasına, ekoloji mədəniyyətin formalaşdırılmasına və gənclərin təbiətin qorunması istiqamətində daha fəal iştirakına mühüm töhfə verir.



2026 Şəhərsalma və Memarlıq İli



# Bakının memarlıq simfoniyası

**Əl izlərinin naxışa çevrildiyi qədim binaların arası ilə keçmişə səyahət edib, İçərişəhərin dar küçələrindən, ecazkar Şirvanşahlar sarayından keçib əsrlərin yadigarı əfsanəvi Qız qalasının sehrindən çıxaraq günəş şüalarını əks etdirən şüşə fasadlı müasir memarlığın simfoniyası ilə üzləşirsən. Bunlar küləklər şəhəri Bakının əsrarəngiz məkanlarıdır. Klassikanın incə estetikası ilə modernizmin sadəliyinin harmoniyasını özündə daşıyan şəhərin memarlığı Şərqin dəbdəbəsi ilə Qərbin estetik nizamını bir araya gətirir.**



"Bakı qiymətli şəhərdir. Relyefi çox gözəldir və bu, hər şəhərə qismət olmur. Bakı amfiteatra bənzəyir, Xəzər dənizi isə onun səhnəsidir", - sözləri ilə söhbətə başlayan Elm və Təhsil Nazirliyinin Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, memarlıq üzrə fəlsəfə doktoru, dosent Rizvan Qarabağlı ilə tarixi bu günə daşıyan Bakı memarlığından danışdıq.

İlk olaraq şəhərin relyefindən söz açan Rizvan Qarabağlı qeyd edir ki, belə relyefə malik ərazidə şəhəri pilləvari salmaq lazımdır ki, hər kəs mavi Xəzərin gözəlliyini seyr edə, bol oksigenli dəniz havasını ciyərinə çəkə bilsin. "Ləpədöyəndə, dənizə yaxın hissələrdə azmərtəbəli binalar tikmək, yuxarıya qalxdıqca isə mərtəbələrin sayını artırmaq lazımdır. Amma bəzən dənizə yaxın ərazilərdə də çoxmərtəbəli binaların tikintisinə rast gəlirik. Bakı qədim şəhərdir, onun qədimliyinin hər mərhələsini saxlamaq lazımdır", - deyir memar.



Foto İlham BABAYEVİNDİR

### Müasir şəhərsalma memarlığının ən gözəl nümunəsi

"Bu baxımdan, Ağ Şəhər müasir dövrümüzün ən gözəl şəhərsalma memarlığıdır", - deyən müsahibimiz bildirir ki, burada pilləvari tikinti gözlənilir - dəniz sahilinə endikcə mərtəbələrin sayı azalır. İkincisi, bu ərazidə su kanalizasiya sistemi çox yaxşı qurulub. Yağış suları başqa kollektora axıdılır. Tullantı suları isə təmizləyici qurğularla ötürülərək Hövsan Aerasiya stansiyasına gedir. Eləcə də Qarabağda salınan bütün şəhər və kəndlərimiz "ağıllı"dır. Orada da kanalizasiya sistemi yaxşı qurulub, binalar relyefə uyğundur və bütün normativ qaydalara əməl olunur.

Həmsöhbətimiz, həmçinin dənizə yaxın ərazilərdə tikinti zamanı Xəzərdəki periodik dəyişmələrin də nəzərə alınmasının vacibliyini vurğulayır: "V yüzillikdə Xəzər o qədər çəkilmişdi ki, Bakı qalasından - indiki İçərişəhərdən Səbail qəsrinə (Bayıl qalası) dəvə karvanları ilə gedib gəlirmişlər. XIII əsrə kimi dənizin səviyyəsi o qədər qalxdı ki, Qız qalası suyun içində qaldı. Həmçinin Səbail qəsri. Xəzər sakit dəniz deyil. Dənizin geri qayıtması tikinti zamanı mütləq nəzərə alınmalı amillər sırasındadır. Bu baxımdan, qeyd etdiyimiz kimi, dəniz kənarındakı tikililər azmərtəbəli olmalıdır".

Bakı memarlığı bir neçə hissədən ibarətdir. İçərişəhər maşınsız, qala şəhərdir. Onun forştatı isə kapitalist dövrünü əhatə edir. XIX əsrin sonu XX əsrin əvvəllərində neft səltənəti zamanında eklektika, barokko, rokoko, klassik, modern, qotika - Qərb memarlıq üslublarında çöl şəhər tikilib, formalaşıb. Bu dövrə Avropa memarlığı xasdır. Növbəti mərhələdə isə sovet dövrü memarlığı üstünlük təşkil edir. "Bu dövrdə mikrorayonlar salındı. Hətta kapitalist dövrü memarlığı olan bayır şəhərdə də sovet dövrünə məxsus binalar tikildi. Bir növ burada pozuntu getdi. Müasir dövrdə memarlığımız yaxşı inkişaf edir, amma müəyyən tikinti norma qaydaları pozulur. Bu da ondan irəli gəlir ki, tikinti işləri bəzən səriştəsiz "mühəndis"lərə həvalə olunur", - deyə R.Qarabağlı bildirir.

O qeyd edir ki, binaların tikintisi 25, 50, 100 ilə hesablanır və buna əsasən də təsnifatlara bölünür: "Bina tikilməmişdən öncə onun yer səthi öyrənilməli, qatlar müəyyən olunmalıdır. Bəzən daha aşağı qatlarda duru lay ola bilər ki, bu da çökməyə səbəb olur. Bundan başqa, yarı hissəsi qayalıq, daşlıq, digər hissəsi qumluğa düşə bilər. Belə halda binaya svay, yəni onu yerin daha möhkəm qatına ötürmək üçün dirək vurulmalıdır. Ümumiyyətlə, tikinti üçün ərazi ayrılanda onun 40 faizində bina tikilə bilər, qalan 60 faiz hissəsində isə sakinlərin asudə vaxt keçirmələri üçün yaşıllıq zonası, idman, uşaqlar üçün əyləncə sahəsi salınmalıdır. Bu qaydalar da bəzən pozulur. Binalar bir-birinə yaxın tikilir. Beləliklə, şəhərin mikroiqlimi pozulur. Bakı küləkli şəhərdir, ona görə də tikinti zamanı küləyin istiqaməti nəzərə alınmalı, iqlim öyrənilməlidir. Şəhərsalmada belə bir qanun var. Şəhər zonalara bölünür: sənaye, istirahət, idman, yaşayış zonaları. Küləyin çox əsdiyi istiqamətdə sənaye zonası salmaq olmaz, çünki orada atılan tullantılar, zavodun tüstüsü, qoxular şəhərə yayılır.

Müsahibimiz bildirir ki, mövcud şəhərdə rekonstruksiya işlərinin aparılması boş sahədə şəhər salmaqdan daha çətindir. Çünki qonşuluqda tikilən göydələnlər tarixi binalara zərər verə bilir. Tarixi binalar ayaqda güclə dayanırlar, yaxınlıqda digər bina üçün özül qazmaq ona ciddi ziyan vura və çökmə səbəb ola bilər.

### Xalq memarlığından peşəkar memarlığa...

Rizvan Qarabağlı Azərbaycanda fəaliyyət göstərmiş memarlıq məktəblərindən də söz açdı. Həmsöhbətimiz deyir ki, Orta əsrlərdə Azərbaycanda 4 adda memarlıq məktəbləri formalaşıb: Şirvan, Aran, Marağa-Naxçıvan, Qəzvin-Həmədan. Bu regional memarlıq məktəbləri də özlüyündə yerli memarlıq məktəblərinə bölünüblər. Məsələn, Şirvanın Bakı və Abşeron memarlıq məktəbləri, Aranın Qarabağ memarlıq məktəbi, hətta Qarabağ memarlıq məktəbinin özü də 3 dövrə bölünüb. XII yüzillikdən XVI yüzilliyə qədər Əli Məcdəddin, XIX əsrə qədər Şeyx Bəhaəddin, XIX əsrin sonu XX əsrin əvvəli isə Kərbalayi Səfixan Qarabağinin memarlıq məktəbi mövcud olub. Marağa-Naxçıvan memarlıq məktəbində Əcəmi Naxçivani, Əhməd ibn Əyyub əl Hafiz xüsusi xidmətləri ilə seçiliblər. Bu məktəblər bir-birindən həm tikinti materialları, həm də memarlıq üslubları ilə fərqlənirlər. Ümumilikdə isə yaradılan nümunələrin hər biri Azərbaycan memarlıq məktəbini xarakterizə edir.

R.Qarabağlı ötən əsrlərdə Bakıda Avropa memarlıq üslubunun geniş yayılmasının səbəblərindən danışıb. O bildirir ki, həmin dövrlərdə xalqın içindən çıxan, xalq memarlığını yaşadan memarlardan başqa professional memarlıq da var idi: "Xalq memarlığı ənənə şəklində babadan, atadan övladlarına keçirdi. Məsələn, Kərbalayi Səfixan bu sənəti atasından öyrənmişdi. XII yüzillikdə professional məktəb yox idi. Sovet dövründə peşəkar memarlığın ilk nümayəndələri isə Mikayıl Hüseynov və Sadıq Dadaşov idi. Onlar sovet dövründə Bakı şəhərinin formalaşmasında böyük rol oynadılar. Azərbaycan Milli Elmlər Akademiyasının binası, "Elmlər Akademiyası", "Nizami Gəncəvi", "Nəriman Nərimanov" stansiyalarının, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və digər bir çox layihələrin müəllifləri Mikayıl Hüseynov və Sadıq Dadaşov idilər. Mikayıl Hüseynov layihələrinin tikilmə sayına görə dünyada üçüncü yerdə qərarlaşan memardır. O vaxt azərbaycanlı memarlar az olduğuna görə əcnəbi memarlar bura ayaq açdılar. Onlar bu sahə üzrə ali təhsil alan mütəxəssislər idi. O vaxt polyaklar, ruslar, digər əcnəbi tələbələr, eyni zamanda azərbaycanlılar da Sankt-Peterburq Mülki Mühəndislər İnstitutunda təhsil alırdılar. XIX əsrin sonlarında bu institutu yaxşı biliklə bitirənlər oldu. Həmin dövrdə 15 sovet respublikası içərisində ən çox tikinti harada aparılırdısa, məzunları həmin yerə göndərirdilər. Bakı tikinti tempinə görə Nyu Yorku ötüb keçmişdi, çünki burada neft mandatları var idi, milyonerlər xaricdə gördükləri binaların layihələrini alaraq, memarlara oxşar binalar tikdirirdilər. İosif Ploşko, Adolf Eyxler, Nikolay Bayev, İosif Qoslavski - onların hamısı təyinatla Bakıya gəlmişdilər. Həmin dövrdə avropalaşmanın səbəbi də bu idi. Çünki bu memarların hamısı Avropa memarlıq üslubunu mənimsəmişdilər və öz memarlıq ənənələrini Azərbaycana gətirmişdilər", - deyir mütəxəssis.

### Klassika ilə modernizmin vəhdəti

Qədim Bakı həmahəngliyi qoruyaraq həm də dünyanın müasir şəhərlərindən birinə çevrilir. Bu gözəl şəhəri görmək üçün uzaq-uzaq ölkələrdən Azərbaycana üz tutanların sayı az deyil. Təbii ki, paytaxtımızda ziyarətçiləri cəlb edən həm də müasir memarlıq nümunələridir.

Müasirləşən Bakının modernizm üslubunun özünəməxsus olduğunu vurğulayan R.Qarabağlı deyir ki, bu gün Bakıda elə binalar var ki, onlar Avropa şəhərlərindəkilərdən daha gözəldir. Məsələn, Alov qüllələri Bakının simvoluna çevrilib. Heç yerdə bu binalar yoxdur. "Dünya sürətlə inkişaf edir. Memarlıq da inkişaf etməlidir, amma bu, o demək deyil ki, ünvansız bina tikilməlidir. Binanın harada tikilməsindən asılı olmayaraq, onun ünvanını və Azərbaycan memarlığının nümunəsi olduğunu göstərməlidir. Ünvansız binalar dünyanın hansı yerində tikilsə də, onun Azərbaycana məxsusluğu bilinməz. Buna görə də memarlıq nümunələrində milliliyin qorunub saxlanmasına diqqət edilməlidir. "Memarlıq xalqın simasıdır. Hər hansı ölkəyə gedəndə ora çatan kimi xalq haqqında fikir formalaşdıran onun memarlığıdır. Müasir binalar tikmək olar, amma orada milliliyi göstərən müəyyən atributlardan istifadə etmək olar. Məsələn, şüşə fasadlar içərisində bir şəbəkə də istifadə edilə bilər. Tbilisi prospektində yerləşən Qafqaz Baku City Hotel and Residences hotelinin binasında oxvari tağlar yer alıb ki, bu, Azərbaycan memarlığına nümunədir. Modern üslubda olan gözəl memarlıq nümunələrindən biri də Heydər Əliyev Mərkəzidir. Zaha Hadidin bu əsəri müasir üslubda tikilsə də, orada oxvari tağlar yer alıb. Güman ki, Zaha Hadid bu layihədə Dənizkənarı Milli Parkda yerləşən "Mirvari" restoranından bəhrələnib.

Memar söyləyir ki, yeni tikilən binaların çoxu həyat obrazlarını əks etdirirlər. Bəzən belə binalar inkişaf etmiş ölkələrdə çoxdan tikilmiş olur və biz ondan əxz eləyirik. Əxz etmək memarlığa xas xüsusiyyətdir.

Müsahibimiz bu gün Bakı-Abşeron memarlığına xarakterik olan inşaat materialları, üslublar barədə sualımızı da cavablandırır. O deyir ki, Abşeron-Bakı memarlığında yerli inşaat materialı əhəng daşıdır. "Əhəng daşı təbəqəli yonulma xüsusiyyətinə malikdir. Hətta ondan büst, heykəl də yonmaq olur. Ona görə Bakıda təbəqəli yonma daş memarlığı özünü qabarıq göstərir. Bu binaları hansı ölkədə tiksən dərhal deyəcəklər ki, Bakı memarlığına məxsusdur. İsmailiyyə binası, Səadət sarayı, 28 Mayda yerləşən alman kirxası qotik üslubunda tikilmiş binalardır, amma onlar artıq Bakılaşıb, paytaxtın memarlıq siluetini özündə əks etdirir. Bakı memarlığı Gürcüstan, Qərbi Azərbaycan, İran, Orta Asiya memarlığından kəskin surətdə fərqlənir. Bakıda binaların fasadında qoyulmuş bəzək elementləri əllə yonulub, amma digər ölkələrdə binalara vurulan ornamentlər plastikdir, tökmədir. Bakıda binalardakı bəzəklər əl işi olduğundan onun üzərindən fasadı çıxarmaq təhlükəlidir. Onlar üzlük daşı deyil, yükdaşıyan divardır, hörülüb. Bu baxımdan, Bakının memarlığı olduqca qiymətlidir", - deyə o bildirir.

Bakı dəyərli tarixə şahidlik etmiş şəhərdir. Keçmişlə bu günün qovuşduğu, modernizmin ruhunu özündə yaşadan və gələcəyə daşıyan unikal memarlıq ünvanıdır.

Şair Əliağa Kürçaylının dediyi kimi:

*Uzaq elli əziz dostum soruşdu:*
*Sizin Bakı söylə, necə şəhərdir?*
*Dedim: - Qardaş, mənim doğma şəhərim*
*Yazılmamış, oxunmamış əsərdir.*

*Çiçək desən - könül açan çiçəyi,*
*Külək desən - ev uçuran küləyi.*
*Qasırğada ağ dalğalar çiçəyi,*
*Sakit gündə gözü mavi Xəzərdir.*

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qlobal çağırışların müzakirə olunduğu dialoq mərkəzi

## WUF13-ün timsalında dünyanın yeni şəhərsalma fəlsəfəsi Bakıda formalaşacaq



Foto İlham BABAYEVİNDİR

**Azərbaycanın beynəlxalq arenadakı fəallığı qlobal tədbirlərdə iştirakla yanaşı, sistemli və həlledici xarakter daşıyan liderlik missiyasına çevrilib. Ölkəmiz müxtəlif coğrafiyaları, sivilizasiyaları və ideologiyaları ortaq bir məqsəd ətrafında birləşdirən diplomatik platforma kimi artıq özünü təsdiqləyib. COP29-un tarixi uğurlarından sonra Bakı indi daha bir nəhəng tədbirə - Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyi etməyə hazırlaşır.**

### Urbanizasiya məqsədlərinə mühüm töhfə

Azərbaycanın beynəlxalq nüfuzunun ən parlaq səhifələrindən biri COP29-a evsahibliyi və orada əldə edilən tarixi razılaşmalardır. İqlim maliyyəsi sahəsində ildə ən azı 300 milyard dollar vəsaitin səfərbər olunması öhdəliyinin təmin olunması Azərbaycanın bəşəri problemlərin həllində vacib aktor olduğunu sübut etdi. Respublikamızın növbəti evsahibliyi edəcəyi qlobal tədbir WUF13 öz miqyasına və strateji əhəmiyyətinə görə COP-dan sonra BMT-nin ikinci ən böyük platforması hesab olunur. May ayında Bakıda keçiriləcək bu forum, "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər" mövzusunda qlobal mənzil çağırışlarını müzakirə edəcək.

Azərbaycanın çox qısa zamanda Qarabağ və Şərqi Zəngəzurda dirçəliş dastanı yazması, müasir standartlara uyğun şəhərlər salması heç şübhəsiz ölkəmizin bu tədbirə evsaibliyinə layiq görülməsində mühüm rol oynayıb.

Prezident İlham Əliyevin III Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarına ünvanladığı müraciətdə deyilir ki, Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi qabaqcıl təcrübə beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır: "Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma sahəsində qlobal çağırışların həllində və innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. Bu sahədə beynəlxalq əməkdaşlıq, xüsusilə də BMT-nin Məskunlaşma Proqramı ilə birgə həyata keçirilən təşəbbüslər xüsusi önəm daşıyır".

Dövlətimizin başçısı əlavə edib ki, 2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir: "Bu mötəbər tədbir Azərbaycanın ümumdünya urbanizasiya proseslərində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafına və ümumilikdə qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcək".

### Mövcüd vəziyyətə uyğun çevik qərarlar

Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü və uzaqgörən siyasət sayəsində respublikamız nüfuzlu təşkilatlarda uğurla təmsil olunur, fəal şəkildə beynəlxalq çağırışlara qoşulur. Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallıqlar isə ölkəmizi həm də beynəlxalq aktor kimi ön plana çıxarıb.

Azərbaycanın qlobal proseslərdə liderliyi təsadüfi deyil, uzunmüddətli və ardıcıl siyasətin nəticəsidir. 2024-2026-cı illər üzrə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrlik, Türk Dövlətləri Təşkilatında aparıcı rol, Qoşulmama Hərəkatına rəhbərlik dövründə "peyvənd millətçiliyi"nə qarşı göstərilən qətiyyətli mövqe Azərbaycanın beynəlxalq məsələlərdə həlledici rolunu bir daha nümayiş etdirdi. O cümlədən BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi terrorizmlə mübarizə və hüququn aliliyi sahəsindəki fəaliyyətimiz təqdir olundu. Ölkəmiz 2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsinə altıaylıq sədrlik dövründə də Avropanın hüquqi və humanitar məkanında mühüm gündəlik formalaşdırdı. Azərbaycanın qlobal nüfuzunun ən parlaq səhifələrindən biri COP29-a evsahibliyi və orada əldə edilən tarixi nəticələr oldu. Bütün bu sadalananlar Azərbaycanın dünya nüfuzlu ölkə olmasından xəbər verir.

Bu gün dünyamiqyaslı tədbirlərin keçirildiyi, qlobal problemlərin dialoq yolu ilə həllinə mühüm töhfələrin verildiyi ünvan kimi adından söz etdirən Azərbaycan həm də evsahibliyi etdiyi toplantıları yüksək səviyyədə keçirməsi ilə beynəlxalq rəğbət qazanıb. Təkcə paytaxtımızda deyil, ölkəmizin Qarabağ və Şərqi Zəngəzur da daxil olmaqla hər bir bölgəsində yüksək təşkilatçılığı ilə fərqlənən qlobal miqyaslı tədbirlər, konfranslar keçirilir. Bütün bunlar respublikamızın hərtərəfli inkişafından, yaradılan zəngin infrastrukturdan xəbər verir.

O da vurğulanası vacib məqamdır ki, belə nəhəng tədbirlərin təşkili ölkə həyatının bütün sahələrində müvəqqəti və çevik adaptasiyanı zəruri edir. Qlobal forumlar zamanı təhsilin fasiləsizliyi prinsipini qorumaq məqsədilə dərslərin onlayn formata keçirilməsi də müasir rəqəmsal təcrübənin bir hissəsidir. WUF13-ün keçiriləcəyi tarixdə təhsil sistemimizdə atılacaq bu addım şagirdlərin proqramdan geri qalmasını önləməyə, təhsil sisteminin dayanıqlılığını və texnoloji bacarıqları artırmağa hədəflənib. Bu yolla həmçinin dünya praktikasına uyğun olaraq, paytaxtın logistik yükünün idarə olunması işi daha da asanlaşdırılacaq.

Mövcud vəziyyətə uyğun çevik qərarlar Azərbaycanın istənilən şəraitdə qlobal öhdəliklərini yerinə yetirməsini göstərir. Ölkəmiz hələ illər öncədən qlobal tədbirlərə layiqli evsahibliyi etməsi ilə dünyada tanınır. Siyasi, iqtisadi, mədəni, idman sahələrində keçirilən çoxsaylı tədbirlər ideal formada həyata keçirilməsi ilə diqqət çəkib. Təşkilatçılığın yüksək səviyyədə olması, nümunəvi evsahibliyi, insanların mehribanlığı ölkəmizin qonaqlarında unudulmaz təəssüratlar yaratmışdı. Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Eurovision", eləcə də Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə bu çərçivədə ölkəmizdə həyata keçirilən SPECA-nın Zirvə görüşü, Beynəlxalq Astronavtika Konqresi kimi mühüm tədbirlər yaddaşlara həkk olunub.

Bir sıra mühüm beynəlxalq miqyaslı tədbirlərin təşkilində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri olub. Birinci xanım Mehriban Əliyevanın Təşkilat Komitəsinə rəhbərliyi sayəsində həmin tədbirlər yüksək səviyyədə keçirilib.

Avropa Oyunlarından COP29-a qədər bütün mötəbər tədbirlərdə nümayiş etdirilən yüksək təşkilatçılıq və qonaqpərvərlik nümunəsi, WUF13-ün də uğuruna tam zəmanət verir. WUF13 Azərbaycanın şəhərsalma sahəsindəki uğurlarının nümayişi olmaqla yanaşı, ölkəmizin bəşəriyyəti narahat edən problemlərin həllində "etibarlı tərəfdaş" imicinin növbəti təsdiqi, yüksək təşkilatçılıq qabiliyyətinin göstəricisi və xalqımızın qonaqpərvərliyinin təcəssümü olacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində rekultivasiya işlərinə başlanılıb

**"AzerGold" QSC tərəfindən yerli və beynəlxalq qanunvericiliyə, ətraf mühitin mühafizəsi və dayanıqlı inkişaf prinsiplərinə uyğun olaraq Daşkəsən rayonunun Çovdar kəndinin yaxınlığında yerləşən emal kompleksində rekultivasiya işlərinə başlanılıb.**




Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) yerləşən, hazırda istismara yararsız olan və ümumilikdə 88 hektarı əhatə edən boş süxur anbarının 15 hektarlıq hissəsində artıq münbit torpaq qatı bərpa edilib, yamacbərkitmə işləri həyata keçirilib. Növbəti mərhələdə bioloji rekultivasiya tədbirləri çərçivəsində əraziyə 300 kiloqram yonca toxumu səpilib. Görülən işlər torpaq strukturunun yaxşılaşdırılmasına və ekosistemin mərhələli şəkildə bərpasına xidmət edir.

Rekultivasiya tədbirləri üzrə layihə planının növbəti mərhələləri çərçivəsində mədənin digər sahələrində hasilat nəticəsində münbitlik xüsusiyyətləri dəyişmiş torpaqların bərpası işlərinin davam etdirilməsi nəzərdə tutulur. Bu çərçivədə rekultivasiya tədbirləri mədən şirkətlərinin ekoloji məsuliyyətinin ayrılmaz hissəsi olmaqla, qanunvericilik və beynəlxalq standartlara uyğun şəkildə həyata keçirilir.

Qeyd edək ki, "AzerGold" QSC ölkədə rekultivasiya işlərini həyata keçirən ilk dağmədən şirkətidir. Şirkət tərəfindən istismarı başa çatmış "Ağyoxuş-1" qızıl mədənində rekultivasiya işləri həyata keçirilib.

# Tramp İrana nüvə zərbəsi endirilməsini istisna edir

## İsrail ilə Livan arasında atəşkəsin müddəti uzadılır

**ABŞ Prezidenti Donald Tramp İrana qarşı nüvə silahından istifadə etmək niyyətində olmadığını bildirib və iddia edib ki, Amerika artıq İran ordusunun hərbi potensialını dağıdıb.**



Ağ Ev rəhbəri həmçinin Hörmüz boğazında mina yerləşdirən gəmilərə qarşı silah işlədilməsini əmr edib. ABŞ lideri onu da bildirib ki, İsrail ilə Livan arasında atəşkəsin müddəti üç həftə uzadılıb.

Dünən Tramp Ağ Evdə keçirilən mətbuat konfransında Yaxın Şərqdəki böhranla bağlı bir neçə açıqlama verib. Bir müxbir ondan İrana qarşı nüvə silahından istifadə edib-etməyəcəyini soruşub. ABŞ Prezidenti sualı belə cavablandırıb: "Niyə etməliyəm?" - "Nüvə silahlarını istifadə etmədən, ənənəvi şəkildə tamamilə məhv etsək, niyə istifadə etməliyəm? Heç kimin nüvə silahından istifadə etməsinə icazə verilməməlidir".

Məlum olduğu kimi, İrana qarşı müharibədə atəşkəs elan etməzdən bir müddət əvvəl Tramp İran hökumətini "bütöv bir sivilizasiyanı məhv etməklə" hədələyib və bəzi ekspertlər bunu kütləvi qırğın silahlarının istifadəsi ilə bağlı müzakirə kimi şərh ediblər.

Bu arada, ABŞ və İranın sülh danışıqlarını bərpa etmək niyyətində olub-olmadığı hələ də məlum deyil. Onların bu həftə Pakistanda keçirilməsi planlaşdırılırdı, lakin İran liderləri ABŞ-nin Hörmüz boğazının blokadasını davam etdirməsini əsas gətirərək görüşməkdən imtina ediblər.

Donald Tramp isə danışıqlarla bağlı "xoş xəbər"in həftənin sonuna qədər yayıla biləcəyini deyib. Amma hələlik bu barədə yeni məlumat verilməyib. ABŞ Prezidenti İranla atəşkəsin qeyri-müəyyən müddətə uzadılacağını və Tehrandan konkret təkliflər gözlədiyini açıqlayıb.

CNN telekanalının verdiyi son məlumata görə, ABŞ Prezidentinin elçisi Stiv Uitkoff və Donald Trampın kürəkəni Cared Kuşner İranla danışıqlar aparmaq üçün Pakistana yollanıblar. İki rəsmi mənbəyə istinadən bildirilir ki, Uitkoff və Kuşner İslamabadda İranın xarici işlər naziri Abbas Əraqçi ilə danışıqlarda iştirak edəcəklər.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*




## "WhatsApp"a rəqib




"X" platforması "iPhone" və "iPad" cihazları üçün ayrıca mesajlaşma tətbiqi olan "Xchat"ı istifadəyə verməyə hazırlaşır. Yeni tətbiqin əsas məqsədi istifadəçilərə reklamsız, izlənməsiz və şifrələnmiş mesajlaşma təcrübəsi təqdim etməkdir.

Tətbiq yalnız mətn mesajlaşması ilə kifayətlənməyəcək. Buraya audio və video zənglər, sənəd göndərmə, qrup çatları yaratmaq, göndərilmiş mesajları redaktə və silmək kimi funksiyalar da daxil ediləcək. Paylaşılan ilkin görüntülərə əsasən, platforma minimalistik dizayna sahib olacaq və əsas diqqət istifadəçilərin aktiv söhbətlərinə yönələcək.

## Süni intellektin su sərfi



Süni intellekt sistemlərinin su istehlakı əsasən iki amillə bağlıdır. Birincisi, böyük məlumat mərkəzlərində işləyən güclü prosessorlar həddindən artıq qızdığı üçün onların soyudulmasında sudan istifadə olunur. Su istiliyi udaraq buxarlanır və sistemin temperaturunu sabit saxlayır.

İkincisi, bu mərkəzləri enerji ilə təmin edən elektrik stansiyaları da fəaliyyət göstərmək üçün böyük həcmdə su tələb edir. Araşdırmalara görə, süni intellektlə aparılan qısa bir söhbət belə, yarım litr suyun buxarlanmasına səbəb ola bilər.

Süni intellektin təkbaşına su qıtlığı yaradacağını demək mübahisəli məsələdir, lakin bəzi risklər mövcuddur. Əgər məlumat mərkəzləri su ehtiyatları onsuz da az olan quraq bölgələrdə tikilirsə, bu, yerli əhali və kənd təsərrüfatı üçün ciddi problemlər yarada bilər. Süni intellekt istifadəçilərinin sayı həndəsi silsilə ilə artdıqca, resurslara olan tələbat da idarəolunmaz həddə çata bilər. Texnologiya şirkətləri bu problemi azaltmaq üçün hava ilə soyutma, xüsusi maye sistemləri və suyun yenidən dövriyyəyə qaytarılması kimi həllər üzərində işləyirlər.

## Uşaqlar üçün yeni təhlükəsizlik sistemi

"Roblox Corporation" şirkəti uşaqlar üçün daha təhlükəsiz virtual mühit yaratmaq məqsədilə yaş hədlərinə əsaslanan yeni tənzimləmə sistemini istifadəyə verib. Bu sistem çərçivəsində istifadəçilər yaş qruplarına görə müxtəlif hesab növlərinə ayrılacaq və bu bölgü onların hansı oyunlara qoşulacağını, eləcə də ünsiyyət imkanlarını müəyyən edəcək.

Yeniliklərə əsasən, 5-9 yaşlı uşaqlar "Roblox Kids", 9-15 yaş aralığındakılar isə "Roblox Select" profillərinə keçəcəklər. 16 yaşdan yuxarı şəxslər mövcud standart hesablardan istifadə edəcəklər. Sərt ifadələrin, romantik münasibətlərin və zorakılıq elementlərinin yer aldığı məhdudlaşdırılmış məzmun bölməsinə yalnız 18 yaşı tamam olmuş şəxslər daxil ola biləcəklər.

*Hazırladı: Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Hava dəyişkən buludlu olacaq

**Aprelin 25-nə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şimal-qərb küləyi axşama doğru arabir güclənəcək.



Havanın temperaturu gecə 8-12° isti, gündüz 15-18° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın əsasən dağlıq və dağətəyi rayonlarında havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi gecə və səhər bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 8-11° isti, gündüz 19-24° isti, dağlarda gecə 3-8° isti, gündüz 10-15° isti olacaq.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## "Lənkəran Dəmir Beton Zavodu" ASC-nin səhmdarlarının nəzərinə

"Lənkəran Dəmir Beton Zavodu" ASC-nin səhmdarlarının ümumi yığıncağının iclası 25 iyun 2026-cı il saat 12:00 da cəmiyyətin yerləşdiyi Lənkəran şəhəri, Heydər Əliyev prospektində keçiriləcəkdir.

**Səhmdarların ümumi yığıncağının gündəliyi:**

1. "Lənkəran Dəmir Beton Zavodu" ASC-nin 2025-ci il üçün illik hesabatı;
2. "Lənkəran Dəmir Beton Zavodu" ASC-nin fəaliyyətinin 10 il müddətinə dayandırılması. Cəmiyyətin fəaliyyətinin dayandırılması barədə arayışın Dövlət Vergi Xidmətinə təqdim edilməsi;
3. Cəmiyyətin fəaliyyətinin dayandırılması ilə əlaqədar direktorlar şurasının (müşahidə şurasının), icra orqanının (idarə heyətinin), təftiş komissiyasının (müfəttişin) səlahiyyətlərinə xitam verilməsi.
4. "Lənkəran Dəmir Beton Zavodu" ASC-nin işçilərinin əmək müqavilələrinə xitam verilməsi.

**Ünvan: Lənkəran şəhəri, Heydər Əliyev prospekti (Lənkəran şəhəri, keçmiş T.İsmayılov, ev 247)**

***"Lənkəran Dəmir Beton Zavodu" ASC***




# Bilmək istəyirəm

***- Müharibə veteranıyam, medallarım da var. Bu yaxınlarda işdən çıxanda mənə istifadə etmədiyim tam iş dövrünə görə 36 təqvim günü üçün pul əvəzi verildi. Amma işlədiyim zaman 46 təqvim günü məzuniyyət verilirdi. Eşitdiyimə görə, son haqq-hesab zamanı istifadə olunmamış məzuniyyət günlərinin hesablanması ilə bağlı yeni qərar var. Aydınlaşdırmaq istəyəndə "belə olmalıdır", - deyə cavab verdilər. Bu düzgündür?***

***B.FÜZULİOĞLU, Masazır qəsəbəsi***

- Sualınıza cavab olaraq bildiririk ki, statusunuzda olan şəxslər üçün bu məsələ həm Əmək Məcəlləsi, həm də Konstitusiya Məhkəməsinin son qərarları işığında mühüm əhəmiyyət kəsb edir. Belə ki, Əmək Məcəlləsinin 120-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə, 1990-cı ilin 20 Yanvar hadisələri ilə, hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə və ya Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar səbəblərdən əlilliyi olan işçilərə, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış işçilərə, döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçu olmuş işçilərə, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda xəsarət (yaralanma, travma, kontuziya) almış işçilərə, Azərbaycan Respublikasının Vətən Müharibəsi qəhrəmanlarına, Azərbaycanın Milli qəhrəmanlarına, Sovet İttifaqı qəhrəmanlarına, Azərbaycan Respublikasının ən yüksək təltifi ilə, "İstiqlal" ordeni ilə, habelə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi ilə bağlı digər dövlət təltifləri ilə təltif olunmuş işçilərə məzuniyyət 46 təqvim günündən az olmayaraq verilir.

Əmək Məcəlləsinin 144-cü maddəsinin 2-ci hissəsinin tələbinə görə, əmək müqaviləsinə xitam verilməsinin səbəbindən və əsasından asılı olmayaraq işçiyə işdən çıxan günədək hər hansı şərt və ya məhdudiyyət qoyulmadan istifadə etmədiyi bütün iş illərinin əsas məzuniyyətlərinə görə kompensasiya ödənilməlidir.

Həmçinin Əmək Məcəlləsinin 144-cü maddəsinin 3-cü hissəsinin tələbinə görə, əmək münasibətlərinə xitam verilərkən Əmək Məcəlləsinin 115 - 117-ci və 118-1-ci maddələrində nəzərdə tutulmuş əlavə məzuniyyətlərə, təhsil və yaradıcılıq məzuniyyətlərinə, habelə sosial məzuniyyətlərə görə kompensasiya verilmir.

"Azərbaycan Respublikası Əmək Məcəlləsinin 144-cü maddəsinin 2 və 3-cü hissələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I və III hissələrinə, 71-ci maddəsinin II hissəsinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair" Konstitusiya Məhkəməsi Plenumunun 18 fevral 2026-cı il tarixli qərarına görə, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 144-cü maddəsinin 3-cü hissəsindəki "bu Məcəllənin 115-117 və 118-1-ci maddələrində nəzərdə tutulmuş əlavə məzuniyyətlərə görə kompensasiyanın verilməməsi" müddəası bərabərlik və normativ-hüquqi aktların haqq-ədalətə əsaslanması prinsiplərinin tələbləri ilə uyğunsuzluq təşkil etdiyinə və ödənişli əmək məzuniyyəti hüququnu qeyri-mütənasib şəkildə məhdudlaşdırdığına görə Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I və III hissələrinə, 71-ci maddəsinin II hissəsinə və 149-cu maddəsinin I hissəsinə uyğun olmadığından tətbiqi dayandırılsın. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən işdən çıxan günədək işçinin istifadə etmədiyi Azərbaycan Respublikası Əmək Məcəlləsinin 115-117 və 118-1-ci maddələrində göstərilən əlavə məzuniyyətlərə görə kompensasiya ödənilməsinin təmin edilməsi məqsədilə həmin Məcəllənin 144-cü maddəsinin 2 və 3-cü hissələri Azərbaycan Respublikası Konstitusiyanın 25-ci maddəsinin I və III, 71-ci maddəsinin II və 149-cu maddəsinin I hissələrinin tələblərinə uyğunlaşdırılsın. Məsələ qanunvericilik qaydasında həll edilənədək Azərbaycan Respublikası Konstitusiyasının 25 və 149-cu maddələrinin tələbləri nəzərə alınmaqla, mövcud qeyri-bərabərliyin qarşısının alınması məqsədilə, əmək müqaviləsinə xitam verilərkən işçiyə bütün iş illərinin istifadə etmədiyi Azərbaycan Respublikası Əmək Məcəlləsinin 115-117 və 118-1-ci maddələrində göstərilən əlavə məzuniyyətlərinə görə, istifadə olunmamış əsas əmək məzuniyyəti üçün müəyyən edilmiş qaydada və məbləğdə hesablanan kompensasiyanın verilməsi təmin edilsin.

Beləliklə, sizin 46 günlük məzuniyyət hüququnuz qanunla təsbit olunub və işdən çıxarkən həmin 46 günün hər biri üçün kompensasiya almalı idiniz.

Odur ki, işəgötürənə bu barədə rəsmi ərizə ilə müraciət edərək, Əmək Məcəlləsinin 120-ci və 144-cü maddələrini xatırladın və 46 gün əvəzinə 36 gün hesablanmasının hüquqi əsasını yazılı şəkildə tələb edin. Əgər müraciətiniz nəticəsiz qalsa, Dövlət Əmək Müfəttişliyi Xidmətinə bu barədə müvafiq şikayət edə bilərsiniz.

Bundan əlavə, sizin ödənilməmiş kompensasiya fərqini məhkəmə qaydasında tələb etmək hüququnuz mövcuddur.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20**


***Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi, 1-ci blok, 1-ci mərtəbədə yerləşən qeyri-yaşayış sahəsinə dair 27 may 2016-cı il tarixdə Məcid Müseyib oğlu Şükürov ilə "TVİNS-ART" MMC arasında bağlanmış müqavilə, maliyyə arayışı və tikinti planı itdiyi üçün etibarsız sayılır.***


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3722
Sifariş 512

Qiyməti 60 qəpik